Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Beşinci sessiya
Payız

55-ci cild

23 dekabr 2025-ci il

Milli Məclisin nəşri
Bakı – 2025

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# V SESSİYASI İCLASININ

# PROTOKOLU № 56

*Milli Məclisin iclas salonu.*
*23 dekabr 2025-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 106 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 103 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 31 oktyabr tarixli Sazişə Əlavə Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.
2. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair 2021-ci il 19 fevral tarixli Protokola Əlavə Protokol"un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.
3. "Azərbaycan Respublikası Hökuməti ilə Oman

Sultanlığı Hökuməti arasında diplomatik, xüsusi və xidməti pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

4. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. "Dövlət rüsumu haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. Azərbaycan Respublikasının Əmək Məcəlləsində,

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Mübariz Qurbanlı, Asif Əsgərov, Azər Kərimli, Azər Badamov, Sahib Alıyev, Məlahət İbrahimqızı, Nigar Məmmədova, Günay Ağamalı, Vüqar Bayramov, Ziyafət Əsgərov, Tural Gəncəliyev, Fazil Mustafa, Əminə Ağazadə, Vüqar Rəhimzadə, Bəhruz Məhərrəmov, Ceyhun Məmmədov, Aydın Hüseynov, Aydın Mirzəzadə, Razi Nurullayev

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
| Lehinə | 101 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**1. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 31 oktyabr tarixli Sazişə Əlavə Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Anar İsgəndərov, Siyavuş Novruzov, Fariz İsmayılzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**2. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair 2021-ci il 19 fevral tarixli Protokola Əlavə Protokol"un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Anar İsgəndərov, Fariz İsmayılzadə, Fazil Mustafa, Elçin Mirzəbəyli, Ceyhun Məmmədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**3. “Azərbaycan Respublikası Hökuməti ilə Oman Sultanlığı Hökuməti arasında diplomatik, xüsusi və xidməti pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**4. “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Anar İsgəndərov

|  |  |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**5. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Sadiq Qurbanov

|  |  |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**6. "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Ziyafət Əsgərov, Əli Hüseynli

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**7. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov, Kamal Cəfərov, Zahid Oruc, Rəşad Mahmudov

| | |
|---|---|
| **Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

| | |
|---|---|
| **Təklif:** 1-ci maddə qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**8. "Dövlət rüsumu haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Razi Nurullayev, Siyavuş Novruzov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Azər Əmiraslanov, Soltan Məmmədov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**11. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası**

**haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Soltan Məmmədov, Əli Hüseynli, Azər Əmiraslanov, Siyavuş Novruzov, Jalə Əliyeva, Rəşad Mahmudov, Şahin İsmayılov, Pərvanə Vəliyeva

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7–9-cu maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 10–12-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** 13–15-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 16–18-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

## *MİLLİ MƏCLİSİN İCLASI*

*23 dekabr 2025-ci il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 101 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var. Biz iclasımıza başlayırıq.

Hörmətli həmkarlar, bildiyiniz kimi, sabah Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin doğum günüdür. Möhtərəm İlham Əliyev fəaliyyətinin miqyasına və əhəmiyyətinə görə milli tariximizdə müstəsna yeri olan siyasi və dövlət xadimidir. Eyni zamanda, o, dünya siyasətinin ən tanınmış və nüfuzlu şəxsiyyətlərindən biridir. Müasir Azərbaycanın dinamik iqtisadiyyata malik olan,

regional və qlobal proseslərdə önəmli rol oynayan bir dövlət kimi inkişaf etməsi Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti ilə bağlıdır.

Məhz onun fenomenal liderlik məharəti, strateji baxışı, əzmi və cəsarəti sayəsində Azərbaycan sabitlik və quruculuq məkanına çevrilmiş, dövlətimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. Son 22 ildə möhtərəm cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən strateji xətt Ulu Öndər Heydər Əliyevin siyasi kursunu yeni dövrün şəraitinə və qlobal transformasiyaların tələblərinə uyğunlaşdırmağa imkan vermişdir. Möhtərəm İlham Əliyevin dövlət maraqlarımızın qorunmasında prinsipial, qətiyyətli və ardıcıl fəaliyyəti Azərbaycanı beynəlxalq birliyin önəmli bir üzvünə çevirmişdir.

Hörmətli həmkarlar, Prezident İlham Əliyevin tarixi xidmətlərindən biri də dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunmasıdır. Onun rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında əldə edilən tarixi qələbələr sayəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulması ölkəmizin inkişafında yeni mərhələ açmışdır.

Hörmətli deputatlar, möhtərəm cənab Prezidentin sülh diplomatiyasının təntənəsi olan Vaşinqton razılaşmaları milli maraqlarımızın təmin edilməsi yolunda növbəti böyük uğur olmuşdur. Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Donald Trampın vasitəçiliyi ilə əldə edilən bu razılaşmalar bizim ölkəmiz və bütün Cənubi Qafqaz regionu qarşısında sülhü, sabitliyi və əməkdaşlığı təcəssüm etdirən yeni üfüqlər açmışdır.

Hörmətli deputatlar, ölkəmizin davamlı iqtisadi inkişafı xalqımızın və dövlətimizin rifahına yönələn möhtəşəm layihələri reallaşdırmağa imkan verir. Möhtərəm cənab

Prezidentin rəhbərliyi ilə Qarabağın və Şərqi Zəngəzurun simasını dəyişən nəhəng quruculuq işləri sürətlə həyata keçirilir. Məcburi köçkün soydaşlarımız mərhələ-mərhələ ata-baba yurdlarına dönürlər.

Hörmətli həmkarlar, ölkəmizin xoşbəxt gələcəyi cənab İlham Əliyevin əzmlə davam etdirdiyi quruculuq və inkişaf strategiyası ilə bağlıdır. Əminliklə söyləmək olar ki, möhtərəm Prezidentin rəhbərliyi ilə Azərbaycan qarşıdakı illərdə yeni nailiyyətlərə imza atacaq, dünyanın sayılıb-seçilən dövlətləri sırasında öz yerini daha da möhkəmləndirəcək.

Hörmətli həmkarlar, təklif edirəm ki, doğum günü münasibəti ilə möhtərəm Prezidentimizə Milli Məclis adından təbrik məktubu ünvanlayaq. *(Alqışlar.)*

Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişaf etməsi naminə dəyərli fəaliyyətində ona böyük uğurlar arzulayaq. *(Alqışlar.)*

Hörmətli həmkarlar, hesab edirəm ki, sizin alqışlarınız təbrik məktubunu dəstəkləyən alqışlardır.

Diqqətinizə görə çox sağ olun. İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, gündəliyə münasibət bildirək. Gündəlik sizə paylanıb. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
| --- | --- |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, Fərid müəllim, bu gün saat 12-dək bizim cari məsələlərlə bağlı çıxışlarımız olacaq. Gündəmdə, ya da gündəlikdə olan məsələlərlə bağlı kim danışmaq istəyirsə, buyursun, yazılsın. Xahiş edirəm, 3 dəqiqəlik reqlamenti nəzərə alın.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Hörmətli sədr, Sizin dəyərli təbriklərinizə qoşuluruq. Liderin tarixdə yeri təkcə öz xalqının ona verdiyi qiymətlə ölçülmür. Əsl meyar başqa millətlərin, o cümlədən digər dövlət başçılarının ona münasibəti ilə müəyyənləşir.

İşğal dövründə İlham Əliyevə ünvanlanan təbriklərdə "sabitlik", "regional əməkdaşlıq", "enerji tərəfdaşlığı" kimi ehtiyatlı və neytral diplomatik terminlərdən istifadə olunurdu. İndi eyni dünya liderləri İlham Əliyevi "yeni geosiyasi reallıqların memarı", "qalib Prezident" və "regional nizamın qurucusu və strateqi" kimi təqdim edirlər. Təbriklərin dili dəyişib. Çünki dövlətimizin siyasi çəkisi artıb və liderin qalib statusu dünyada təsdiqlənib.

Tarix belə liderləri dövrün adı ilə yadda saxlayır. Ruzvelt dövrü, Çörçill dövrü, İlham Əliyev dövrü. O, Birinci katibin övladı, imperiyanın üçüncü adamının oğlu, Prezidentin siyasi varisi olmasına baxmayaraq, sadə xalqın arzularının daşıyıcısı, əliqabarlı insanların ümidlərinin ifadəçisidir. İlham Əliyev yüz illərin "kimdir günahkar" dilemmasını tariximizdən sildi, nəsillərarası günahı sonlandırdı. İndi sabahın övladlarına işğal və soyqırımları deyil, qalibiyyəti miras qoyuruq. Artıq başqa xalqların qələbələrinə həsədlə baxmırıq.

1990-cı illərdə Rusiya qoşunlarının ölkəmizdən çıxarılmasını nailiyyət kimi təqdim edənlər o zaman dövlətin zəifliyi nəticəsində həmin qüvvələrin 20 faizlik torpaqlar

üzərində, faktiki ərazilərimizdən heç yerə getmədiyini etiraf etmirlər. Lakin 2024-cü ildə Rusiya hərbi kontingentinin müharibəsiz, itkisiz və Bakı tərəfindən müəyyən edilən qrafiklə, vaxtından bir il əvvəl torpaqlarımızı tərk etməsi Birinci Pyotrdan sonra  Qafqazda tək nümunədir. İlk dəfədir, xarici hərbi qüvvələr qalib və suveren bir dövlətin siyasi iradəsi ilə çıxarılır.

Bir vaxtlar İkinci Dünya müharibəsində qəhrəmanlığımızdan danışarkən deyirdik: “Azərbaycan oğulları Qafqazdan Berlinə qədər şərəfli bir yol keçiblər”. Lakin 30 il öz torpaqlarımıza gedə bilmirdik. Biz indi istənilən Avropa paytaxtına Zəngilandan, Füzulidən uça bilərik. Torpaqlarımız kimi hava məkanımız da azaddır. Müharibədən sonrakı dövrün qəhrəmanı artıq fəhlədir, iş icraçısıdır, layihə rəhbəridir. Yeni vətəni quran bənnanın da, dağları aşan elektrik ustasının da, su çəkən mühəndisin də mülki Ali Baş Komandanı odur.

İndi hərbi taborları tikinti və inşaat batalyonları əvəzləyir. İlham Əliyev Qarabağda təkcə infrastruktur qurmur, dünyaya mesaj verir – biz qayıtmışıq, özü də əbədi dönmüşük və yalnız binalar tikmirik, həm də siyasi gələcəyimizi inşa edirik.

O, İrəvanda kilsə, dövlət və diaspor üçlüyünə söykənən dini-siyasi ayinləri də sülh duaları ilə əvəz edib. Azərbaycan liderləri Qafqazda zəif olanda həmişə torpaq və sərvət itirirdilər. İndi İrəvanın və Tiflisin taleyi Bakıda həll olunur.

Qələbənin simvoluna çevrildiyi üçün İlham Əliyevə ünvanlanan təbriklər artıq protokol deyil, ərazi bütövlüyümüzə və suverenliyimizə verilən beynəlxalq siyasi qiymətdir.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Mübariz Qurbanlı. Buyurun.

**Mübariz Qurbanlı.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hər bir millətin qarşısında hədəflər olur. Yəni millət o hədəflərə çatmaq üçün daim çalışır. Azərbaycan xalqı öz müstəqilliyini bərpa etmək üçün istəklərini, arzularını həmişə ifadə edibdir və bu hədəfə çatmaq üçün fəaliyyət göstəribdir. Ulu Öndərin sayəsində biz birinci milli hədəfimizi həll edə bildik. Yəni Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi, onun istiqlalının dönməzliyi təmin edildi. Azərbaycan xalqını birləşdirən azərbaycançılıq ideologiyası faktiki olaraq dövlət ideologiyası səviyyəsində təsbit olundu. Eyni zamanda, Heydər Əliyev yolu ilə Azərbaycanın inkişaf istiqamətləri irəliləməyə başladı. Bu istiqamətdə ikinci hədəfimiz var idi. Bu da Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etmək idi. Əlbəttə, bu hədəfi də əldə etmək üçün Prezidentimiz cənab İlham Əliyev uğurlu bir siyasət həyata keçirdi. Bu uğurlu siyasət nəticəsində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa edildi. Azərbaycana qarşı 200 ilə yaxın davam edən təhdidin qarşısı alındı. Eyni zamanda, Azərbaycanın sülh gündəliyi ilə avqust ayının 8-də Vaşinqtonda sənəd imzalandı və Azərbaycan dünyaya özünün mövcudluğunu və ərazi bütövlüyünü təsbit edərək sübut etdi ki, xalqımız buna qadirdir.

İndi Azərbaycan xalqının qüruru, Azərbaycan xalqının istək və arzuları, demək olar ki, yerinə yetirilmişdir. Bax, bu iki istiqamətdən sonra Azərbaycanın yeni bir hədəfi vardır. Bu yeni hədəfi də Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə biz həyata keçirməkdəyik. Əlbəttə, Prezidentimizin çoxşaxəli fəaliyyəti haqqında saatlarla

danışmaq olar. Yalnız onun gördüyü işlərin başlıqlarını sadalasaq belə, bizə çox vaxt lazım gələr. Prezidentimiz bir çox ilklərə imza atmışdır. Azərbaycan xalqının yeni hədəflərinin müəyyən edilməsi də bu ilklər içərisindədir.

Yeni Azərbaycan Partiyasının proqramında Azərbaycanın 10 təməl prinsipi müəyyən edilibdir. Bu təməl prinsiplərin başında Heydər Əliyev yolu dayanır. Heydər Əliyev yolu ilə biz üçüncü hədəfimizə doğru gedirik. Üçüncü hədəfimiz güclü, zəngin Azərbaycandır və bu üçüncü hədəfimizə nail olacağımıza qəti əminik. Çünki xalq–iqtidar vəhdəti, Prezidentimizə böyük inam vardır. Heydər Əliyev yolu Azərbaycan üçün əbədidir və parlamentimiz də bu yolda öz töhfəsini verməkdədir.

Sizin dəyərli çıxışınızda söylədiyiniz fikirlərə, təbriklərə qoşuluram. Əminəm ki, Prezidentimiz Azərbaycan xalqını yeni uğurlara aparacaqdır.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Asif Əsgərov. Buyurun.

**Asif Əsgərov**. Təşəkkür edirəm. Hörmətli millət vəkilləri, media nümayəndələri, dövlətlərin tarixində elə şəxsiyyətlər olur ki, onların fəaliyyəti bir dövrün deyil, bütöv bir mərhələnin mahiyyətini müəyyənləşdirir. Bu gün müasir Azərbaycanın inkişaf yoluna nəzər saldıqda aydın görürük ki, əldə olunan nailiyyətlərin, qorunan sabitliyin və qazanılan möhtəşəm uğurların mərkəzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş, uzaqgörən və qətiyyətli siyasəti dayanır.

Ölkə rəhbərinin xidmətlərinin möhtəşəmliyi, ilk növbədə, onun milli maraqları hər şeydən üstün tutduğu dövlətçilik fəlsəfəsində özünü göstərir. Bu fəlsəfənin əsasında

güclü dövlət, rifahlı cəmiyyət və ləyaqətli vətəndaş anlayışı dayanır. Sabitlik üzərində qurulan inkişaf modeli, milli maraqlara əsaslanan müstəqil siyasət, güclü iqtisadiyyat və sosial ədalət prinsipləri bu idarəçilik xəttinin əsas sütunlarıdır. Azərbaycan modeli artıq bir çox dövlətlər üçün nümunə kimi qəbul olunur. Bu nailiyyətlər təsadüfi deyil, onlar ardıcıl və sistemli idarəetmənin bəhrəsidir. Məhz bu yanaşma nəticəsində Azərbaycan müstəqil qərarlar qəbul edən, daxili və xarici siyasətini milli maraqlar əsasında formalaşdıran güclü dövlətə çevrilmişdir.

Hörmətli həmkarlar, ölkə rəhbərinin tarixə düşən xidmətləri sırasında milli qürurumuzu bərpa edən tarixi Zəfər xüsusi yer tutur. Ali Baş Komandan kimi göstərdiyi siyasi iradə və qətiyyət nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü təmin etmiş, tarixi ədalət bərpa olunmuşdur. Bu qələbə yalnız hərbi uğur deyil, güclü liderliyin, milli birliyin və sarsılmaz dövlət iradəsinin təntənəsidir.

Bu gün azad edilmiş torpaqlarda aparılan bərpa və quruculuq işləri ölkə rəhbərinin xidmətlərinin davamı kimi çıxış edir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı layihələr, Böyük Qayıdış proqramı, yeni yaşayış məkanlarının salınması ölkəmizin gələcəyinin necə planlı və əmin addımlarla qurulduğunu göstərir. Bu torpaqlar artıq keçmişin ağrısını deyil, gələcəyin ümidini ifadə edir, dirçəlişin, sülhün və inkişafın simvoluna çevrilməkdədir. Eyni zamanda, dövlət başçısının beynəlxalq müstəvidə göstərdiyi xidmətlər Azərbaycanın qlobal miqyasda artan nüfuzunda öz əksini tapır.

Bütün bu reallıqlar bir həqiqəti təsdiqləyir: ölkə rəhbərinin xidmətləri Azərbaycanın bu gününü formalaşdırmaqla yanaşı, onun sabahını da möhkəm təməl üzərində

qurur. Möhtərəm cənab Prezident xalqın güvəndiyi lider, çətin anlarda milləti ətrafında birləşdirən, məsuliyyətli qərarları ilə tarix yaradan şəxsiyyətdir. Bu dahi insanın həyat və fəaliyyət yolu bizlər üçün vətənpərvərlik, fədakarlıq və dövlətə sədaqət nümunəsidir.

Bu dahi şəxsiyyətin doğum günü təkcə bir şəxsin həyat tarixçəsi deyil, həm də dövlətçilik salnaməmizdə xüsusi məna daşıyan bir gündür. Bu əlamətdar gün yalnız bir təqvim tarixi deyil, müstəqil Azərbaycanın keçdiyi şərəfli yolun, qazanılmış möhtəşəm zəfərlərin, xalq–lider birliyinin və milli qürurumuzun təntənəsidir. Bu gün Azərbaycan xalqı ona – xidmətləri ilə tarix yazmış liderə hörmətini və ehtiramını ifadə edir.

Bu əlamətdar gün münasibəti ilə möhtərəm cənab Prezidentə möhkəm can sağlığı, uzun ömür, tükənməz enerji, qətiyyətli iradə və ali missiyasında yeni-yeni uğurlar arzulayırıq. Qoy, onun rəhbərliyi altında Azərbaycan dövləti daha da qüdrətlənsin, xalqımız daim sülh, rifah və təhlükəsizlik şəraitində yaşasın.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Azər Kərimli. Buyurun.

**Azər Kərimli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, Prezident İlham Əliyevin sərəncamı ilə 2026-cı ilin Azərbaycan Respublikasında “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ölkənin sosial-iqtisadi inkişaf strategiyasında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir. Bu qərar təkcə urbanistik və estetik yanaşmanın gücləndirilməsi deyil, eyni zamanda, müasir idarəetmə, dayanıqlı inkişaf, milli-mədəni irsin qorunması və postmünaqişə dövründə ərazilərin yenidən qurulması proseslərinin sistemli şəkildə davam etdirilməsi məqsədi daşıyır.

Müasir dövrdə şəhərsalma anlayışı yalnız tikinti fəaliyyəti ilə məhdudlaşmır. Bu, sosial münasibətlərin təşkili, insan kapitalının inkişafı, ekoloji balansın qorunması və ictimai rifahın təmin olunması ilə birbaşa bağlı kompleks bir idarəetmə modelidir. Azərbaycan son illər bu sahədə qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan, eyni zamanda, milli xüsusiyyətləri nəzərə alan konseptual yanaşma formalaşdırıb.

Xüsusi ilə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" layihələri şəhərsalmanın innovativ aspektlərini ön plana çıxarır. Burada enerji səmərəliliyi, yaşıl texnologiyalar, rəqəmsal idarəetmə və sosial inklüzivlik əsas prinsiplər kimi çıxış edir. 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması bu modelin ölkə miqyasında dərinləşdirilməsinə xidmət edəcək.

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə həyata keçirilən layihələr göstərir ki, dövlət siyasətində memarlıq, sadəcə, forma deyil, məzmun və ideologiya daşıyıcısıdır. Yeni inzibati binalar, mədəniyyət mərkəzləri, ictimai məkanlar milli üslubun müasir memarlıq dili ilə təqdim olunmasına nümunədir. 2026-cı il bu yanaşmanın elmi, konseptual və praktiki müstəvidə daha da möhkəmləndirilməsi üçün imkan yaradacaq.

Qeyd edim ki, "Şəhərsalma və Memarlıq İli"nin elan olunmasının xüsusi rəmzi mənası var. Çünki Azərbaycan bu mərhələyə ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş ölkə kimi daxil olur. Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri artıq beynəlxalq səviyyədə unikal postmünaqişə şəhərsalma modeli kimi dəyərləndirilir. Şəhərsalma və memarlıq dövlətin inkişaf səviyyəsinin, idarəetmə keyfiyyətinin və

vətəndaşa münasibətinin göstəricisidir.

Hörmətli həmkarlar, Prezident İlham Əliyevin fəaliyyəti müasir Azərbaycan dövlətçiliyinin sistemli, ardıcıl və məqsədyönlü inkişaf modelini əks etdirir. 2024-cü ilin Zəfər seçkisi bu modelin siyasi yekunu deyil, yeni mərhələnin başlanğıcıdır. Qalib xalqın qalib lideri kimi İlham Əliyev təkcə ölkəmizin arxitekturasını deyil, bu günün və gələcəyin də siyasi arxitekturasını qurur və bu arxitektura milli maraqlar, suverenlik, ədalət və inkişaf üzərində möhkəm təməl tapır.

Fürsətdən istifadə edərək mən də təbriklərə qoşulur və...

**Sədrlik edən.** Sağ olun.

Azər Badamov. Buyurun.

**Azər Badamov.** Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, Azərbaycanın hər bir vətəndaşının Prezidenti olmaqla özünü təsdiq edən cənab İlham Əliyevi 24 dekabr doğum günü münasibəti ilə qusarlılar adından təbrik edir, möhkəm can sağlığı və yorulmaz fəaliyyətində uğurlar arzulayıram.

İlham Əliyev adını, zənn edirəm ki, ana dilimizdə ilkin, başlıca söz olan vətən, zəfər, ləyaqət ifadələri ilə xarakterizə etmək olar. Torpağı vətən edən, vətəni Zəfərə qovuşduran, Zəfəri isə ləyaqət simvoluna çevirən müzəffər Ali Baş Komandanımızın yürütdüyü siyasət nəticəsində Cənubi Qafqaz yeni bir səmaya, silah səsləri eşidilməyən səmaya şahidlik edir. Azərbaycan lideri çoxəsrlik münaqişəyə deyil, çoxəsrlik düşmənçiliyə, revanşizmə, məkrli oyunlara son qoydu.

Hörmətli həmkarlar, Azərbaycanın dövlət başçısının həm daxili, həm də xarici siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının sosial-

iqtisadi durumunun yaxşılaşdırılması, eyni zamanda, xalqımızın qürurlu xalq kimi dünyada tanınması dövlət başçımızın əsas amallarından biridir. Biz artıq beynəlxalq arenalarda qalib xalq kimi boy göstəririk. Bu məqamda demək yerinə düşür ki, böyük Zəfərdən sonra Azərbaycanda "Nizami Gəncəvi İli", "Şuşa İli", "Heydər Əliyev İli", "Yaşıl dünya naminə həmrəylik İli", "Konstitusiya və Suverenlik İli" və qarşıdan gələn 2026-cı ilin isə "Şəhərsalma və Memarlıq İli" olaraq qeyd olunması tarixi dəyərlərimiz qədər müasir dünyanın gətirdiyi çağırışların hər birinə ən ali səviyyədə diqqət yetirilib dəyər verilməsidir.

Humanizm, ədalət, xalqlararası dostluq, mədəni müxtəliflik, bədii-memarlıq yaradıcılığının kamilliyi, tarixiliklə müasirliyin vəhdəti cənab Prezident Əliyevin xarici və daxili siyasətinin özəyində dayanır.

Hörmətli həmkarlar, Ümummilli Lider ünvanına layiq görülən Heydər Əliyev Azərbaycanın indiki reallığının əsasını qoydu, Prezident İlham Əliyev isə hörmətli Mehriban xanım Əliyeva ilə birgə bu əsaslar üzərində qalib Azərbaycanı ucaltdı. Humanitar siyasətin də son dərəcədə uğurla icra edilməsi xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar, son yarım ayda iki dəfədir ki, eyni qurumun, yəni Avrasiya İqtisadi İttifaqının fərqli formatlı toplantılarında Ermənistan baş naziri Nikol Paşinyan ölkəsinə daşınan yüklərə qoyulan qadağanın aradan qaldırılmasına və ikitərəfli ticarətdə atılan ilk addıma görə

Azərbaycan Prezidenti cənab İlham Əliyevə təşəkkür edir. Mən də öz növbəmdə Ermənistan baş nazirini təbrik edirəm ki, selektivliyə, arada yenə ziddiyyətli davranışa yol versə də, Azərbaycanın göstərdiyi xeyirxahlığa qarşı tərəfdən ilk dəfədir, azacıq da olsa, adekvat reaksiya görürük.

Selektivlik deyərkən, verilən sualları cavablandırdıqlarını nəzərə almasaq, Nikol Paşinyanın Qərb platformasında qatıldığı tədbirlərdə nədənsə bu təşəkkür məsələsini unutmağa üstünlük verdiyini nəzərdə tuturam. Ziddiyyət isə ondadır ki, Ermənistan baş naziri, bir tərəfdən, tamamilə əsassız olaraq Qərbi Azərbaycan İcması ilə başında imperiya agentlərinin və terrorçuların durduğu "çevrəni" eyniləşdirərək, Qarabağı özləri tərk edənlərin, ora dönüşləri ilə Ermənistandan deportasiya olunanların məsələsinin ikitərəfli formatda keçirilən danışıqlarda həllini təklif edir, digər tərəfdən, biz Avropa İttifaqı ilə imzaladıqları sənəddə bunun əksini görürük. Yəni Ermənistan rəhbərliyi öz maraqlarına cavab verəndə məsələni beynəlmiləlləşdirməyə, çoxtərəfli platformaya daşımağa çalışır. Amma unudurlar ki, son 5 ildə bu qəbildən olan hərəkətləri onlara acı təcrübədən başqa heç nə verməyib.

Bir tərəfdən, Eçmiədzindəkiləri Rusiyaya xidmətdə suçlandıraraq onlara təzyiq göstərən 3 arxiyepiskopu, 1 yepiskopu həbsə atdıran Ermənistan baş nazirinin, digər tərəfdən, Moskvanın rəğbətini qazanmaq üçün dəridən-qabıqdan çıxması, Rusiyada keçirilən ikinci, üçüncü dərəcəli tədbirlərə belə böyük həvəslə qatılması ziddiyyət deyil, bəs nədir? Bu, əlbəttə, onların öz işidir. Sadəcə, ona görə xatırladıram ki, baş aldatdıqlarını düşünürlərsə, yanılırlar.

Azərbaycan xalqı bunu da gözəl dərk edir və bilir ki, Ermənistana nə böyük qazanc güdülməsi səbəbindən benzin satılmasına razılıq verilib, nə də bu onların təşəkkürünə ehtiyac duyduğumuz üçündür. Azərbaycan bununla bir daha göstərir ki, Brüsseldədirlər və ya qulağımızın dibindədirlər, fərqi yoxdur, hər hansı güc cənab İlham Əliyevin regiona gətirdiyi sülhə qarşı hərəkətə keçdiyi təqdirdə biz də seyirçi qalmır, gərəkən əks tədbirləri görürük və görəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Məlahət İbrahimqızı. Buyurun.

**Məlahət İbrahimqızı.** Çox sağ olun, xanım sədr. Hörmətli xanım sədr, hörmətli həmkarlarım, sabah, dekabrın 24-də uzun illərdir ki, Azərbaycan xalqı tərəfindən böyük sevgi ilə, ümumxalq bayramı kimi qeyd edilən və milli dövlətçilik tariximizin şanlı səhifələrinə qızıl hərflərlə yazılmış əlamətdar bir gün – Prezidentimiz və müzəffər Ali Baş Komandanımız möhtərəm cənab İlham Əliyevin doğum günüdür.

Şübhəsiz ki, erməni işğalının yaratmış olduğu Qarabağ problemini, milyondan çox qaçqın və məcburi köçkün soydaşlarımızın ağrı-acısını bütün varlığı ilə yaşayan və onların taleyüklü problemlərini həll edən möhtərəm cənab İlham Əliyev dövlət, vətən və millət fədaisi kimi qədirbilən xalqımızın yaddaşına əbədi yazılacaqdır.

Müasir dövlətimizin qurucusu, Ulu Öndərimiz Heydər Əliyev xalqımızın qan tökərək qazandığı müstəqil dövlətimizi parçalanmaqdan xilas edərək qüdrətli bir dövlətin əsasını qoydu. Möhtərəm cənab İlham Əliyev isə bu təməllər üzərində qurduğu qüdrətli və məğlubedilməz dövlətin gücü ilə dünya erməniliyini və onu dəstəkləyən

dünya güclərini diz üstə çökdürərək məğlub etdi. Müzəffər Ali Baş Komandanımız uzun onilliklər boyu beli bükülmüş, torpaqları əlindən alınmış, qovulmuş məğlub xalqı dünyaya qalib xalq kimi tanıtdı. Müzəffər Ali Baş Komandanımız özünün qəhrəman və rəşadətli milli ordusu ilə bayram əhval-ruhiyyəli savaşla 44 gün ərzində respublikamızın ərazi bütövlüyünü və 1 gün ərzində suverenliyini bərpa edərək xalqımıza möhtəşəm Zəfər qazandırdı. O bu Zəfərlə həm də türk millətinin, türk dövlətlərinin şöhrətini və izzətini ucaltdı. O, həm savaşın, həm də sülhün qalibi kimi bölgənin savaş tarixinə son qoyaraq sülh və barış, əməkdaşlıq və dialoq tarixinin yol xəritəsini yazdı.

Məhz dövlətimizin başçısının zəngin dövlətçilik təcrübəsi, müdrik siyasəti və diplomatiyası ilə müasir qlobal çağırışları düzgün dəyərləndirməsi və əzmkarlığı ilə geosiyasi və geocoğrafi baxımdan, eləcə də məcbur olduğu müharibənin dairəsinin Ukraynadan, Yaxın Şərqdən daha təhlükəli və daha mürəkkəb olan Azərbaycanda nəinki erməni təcavüzkarlığına birdəfəlik son qoyuldu, həm də pisniyyətli qüvvələrin ölkəmizə uzanan əlləri kəsildi, bölgəmiz sonu görünməyən müharibədən qurtardı.

Sözsüz ki, hər birimiz bu misli görünməmiş uğurların şahidiyik və bu misilsiz uğurlar haqda saatlarla danışa bilərik. Bu gün bunu da demək çox vacibdir ki, işğaldan azad olan Qarabağ dünyanın mədəniyyət, dialoq, dostluq mərkəzinə çevrilmişdir.

Hörmətli həmkarlarım, hörmətli Sahibə xanım, mən də sizin təbriklərə qoşuluram. Çox sağ olun ki, bu gün təbrik də göndərməyimizə şərait yaradırsınız. Öz adımdan və təmsil etdiyim Nəsimi rayonunun çoxsaylı seçiciləri adından möhtərəm Prezidentimizi və eləcə də möhtərəm

Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanı artıq Azərbaycanda bir ənənəyə çevrilmiş hər il öz ad günlərində...

**Sədrlik edən.** Sağ olun, Məlahət xanım.

Nigar Məmmədova. Buyurun.

**Nigar Məmmədova.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Möhtərəm Prezidentimizin ad günü ilə bağlı səslənən təbriklərə qoşuluram, öz adımdan və seçicilərim adından can sağlığı və ölkəmizin inkişafı naminə fəaliyyətində uğurlar diləyirəm.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində ölkəmiz bu gün siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz, regionun mühüm siyasi və iqtisadi mərkəzlərindən birinə çevrilmişdir. Cənab Prezidentin daim vurğuladığı kimi, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. 2003-cü ildə keçirilmiş prezident seçkilərində xalqımız Ulu Öndər Heydər Əliyevin siyasi kursunun davam etdirilməsinə dəstək verərək ölkədə sabitliyin və inkişafın əsasını qoydu. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan beynəlxalq aləmdə strateji əhəmiyyətini artırmış, etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirmişdir.

Hörmətli həmkarlar, dövlət siyasəti çərçivəsində regional infrastrukturun inkişafı məsələlərinə xüsusi diqqət yetirilir ki, bu da ali dövlət səviyyəsində qəbul edilən qərarlarda, o cümlədən yolların sistemli şəkildə yenilənməsinə və ümumilikdə, müvafiq regionun balanslı inkişafına yönəlmiş Prezidentin son sərəncamında öz əksini tapıb. Belə ki, "Abşeron rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında"

Sərəncama əsasən rayonun Hökməli və Qobu qəsəbələri ərazisində avtomobil yolları əsaslı təmir ediləcək. Bu məqsədlə 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu investisiya xərcləri üçün nəzərdə tutulan vəsaitin bölgüsünün müvafiq yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1 milyon 400 min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Bu yanaşma nəqliyyat əlçatanlığının təmin olunması ilə yanaşı, eyni zamanda, ərazilərin sosial-iqtisadi inkişafı baxımından da strateji əhəmiyyət daşıyır. Təmsil etdiyim dairə üçün yolların vəziyyəti, sadəcə, rahatlıq məsələsi deyil. Bu, ilk növbədə, tibbi xidmətlərə, təhsilə, iş yerlərinə çıxış, vətəndaşların təhlükəsizliyi və sahibkarlığın inkişafı üçün real imkanlar deməkdir. Məhz buna görə də cənab Prezident tərəfindən bu ərazilərin inkişafına, xüsusi ilə yol infrastrukturuna göstərilən diqqət vaxtında verilmiş qərardır. Buna görə dövlət başçımıza həm öz adımdan, həm də seçicilərim adından minnətdarlığımı bildirirəm.

Xüsusi ilə vurğulamaq istərdim ki, sözügedən sərəncam yerli səviyyədə mövcud real ehtiyacları nəzərə alır, mərkəzi və regional icra orqanları arasında daha səmərəli əməkdaşlıq üçün möhkəm əsas yaradır. Bu isə mövcud problemlərin ardıcıl və sistemli şəkildə həllinə, insanların həyat keyfiyyətinin yüksəldilməsinə imkan verir.

Diqqətiniz üçün dərin təşəkkürümü bildirirəm.

**Sədrlik edən.** Sağ olun.

Günay Ağamalı. Buyurun.

**Günay Ağamalı.** Hörmətli xanım sədr, hörmətli həmkarlar və media mənsubları. 24 dekabr – möhtərəm cənab Prezidentin doğum günü münasibəti ilə səslənən təbriklərə qoşularaq 65 saylı Salyan-Biləsuvar-Neftçala dairəsindən olan vətəndaşlar adından və öz adımdan dövlət başçımızı

təbrik edir, ona möhkəm can sağlığı, uzun ömür və Azərbaycan dövlətinin daha da güclənməsi naminə yorulmaz fəaliyyətində yeni-yeni uğurlar diləyirəm.

Möhtərəm cənab Prezident İlham Əliyevin 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında imzaladığı Sərəncam dövlətimizin milli irsə, tarixi yaddaşa və müasir inkişaf çağırışlarına verdiyi strateji əhəmiyyətin parlaq ifadəsidir. Bu qərar Azərbaycan şəhərsalma və memarlıq məktəbinin çoxəsrlik zəngin ənənələrinə sadiqliyin və gələcəyə yönəlik baxışın məntiqi davamıdır.

Azərbaycanın şəhərsalma və memarlıq mədəniyyəti xalqımızın dünyagörüşünü, estetik zövqünü və milli kimliyini özündə ehtiva edən canlı irsdir. Tarixi şəhərlərimizin memarlıq siması əsrlər boyu Şərq və Qərb mədəniyyətlərinin qovşağında formalaşaraq milli dəyərlərimizi qorumaqla inkişaf etmişdir. Bu baxımdan "Şəhərsalma və Memarlıq İli"nin elan olunması milli irsimizin sistemli şəkildə qorunması və təbliği baxımından mühüm addımdır.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə tarixi şəhərlərin qorunması və memarlıq abidələrinin bərpası dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmuşdur. Bu strateji xətt bu gün möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə müasir memarlıq konsepsiyası ilə milli irsin vəhdəti təmin edilmiş, paytaxt Bakıda və regionlarda həyata keçirilən layihələr ölkəmizin inkişaf fəlsəfəsinin bariz nümunəsinə çevrilmişdir.

Xüsusi ilə qeyd etmək istərdim ki, Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın mədəni irsin qorunması və tarixi memarlıq abidələrinin bərpası istiqamətində ardıcıl fəaliyyəti bu sahədə dövlət siyasətinin

humanist və estetik mahiyyətini daha da gücləndirir.

Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri, “ağıllı şəhər”, “ağıllı kənd” və “yaşıl enerji” konsepsiyalarının tətbiqi Azərbaycanın şəhərsalma siyasətinin müasir və innovativ xarakterini nümayiş etdirir. Şuşa şəhərinin tarixi siması qorunmaqla bərpası milli iradənin və mədəni yaddaşın təntənəsidir.

Bakıda 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumunun keçirilməsi isə ölkəmizə olan beynəlxalq etimadın göstəricisidir. Əminəm ki, “Şəhərsalma və Memarlıq İli” çərçivəsində görüləcək işlər şəhərlərimizin daha estetik, rahat və dayanıqlı mühitə çevrilməsinə mühüm töhfə verəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, Azərbaycan tarixi günlərini yaşayır. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan postsovet məkanında münaqişələrə məruz qalan ölkələr arasında ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən ilk dövlətdir.

Uzun müddət işğal altında qalan, tamamilə dağıdılan Qarabağ və Şərqi Zəngəzur artıq qurulur, bərpa edilir və məskunlaşır. Son 5 ildə Qarabağın və Şərqi Zəngəzurun bərpasına 23 milyard manatdan artıq vəsait ayrılıb. Eyni zamanda, həmin ərazilərimizdə artıq 65 min vətəndaşımız məskunlaşıb, işləyir və yaşayır. Təbii, bütün bunlar ondan xəbər verir ki, Zəfərdən keçən qısa müddətdə cənab Prezidentin rəhbərliyi ilə işğaldan azad olmuş ərazilərimizdə iqtisadiyyatın formalaşması və reinteqrasiyası prosesi sürətlə davam edir.

Son 22 ildə Azərbaycan iqtisadiyyatının inkişafı ilə bağlı bir sıra məqamlara müstəqil iqtisadçı olaraq diqqəti cəlb etmək istərdim. Bir sıra hallarda bəzi marjinal siyasi qruplar tərəfindən islahatların nəticələrinə kölgə salmağa çalışılır. Son 22 ildə Azərbaycan iqtisadiyyatı 4 dəfə böyüyüb. Biz qlobal iqtisadi artımla müqayisə etsək, qlobal ÜDM həmin dövrdə 39,3 trilyon dollardan 113,8 trilyon dollara qədər artıb. Yəni bu o deməkdir ki, həmin dövrdə qlobal ÜDM 2,9 dəfə artıb. Bu, eyni zamanda, o deməkdir ki, Azərbaycan iqtisadiyyatı sözügedən dövrdə qlobal iqtisadiyyatla müqayisədə ən azı 100 faiz daha çox artıb. Həmin dövrdə Azərbaycanın xarici ticarət dövriyyəsi 11 dəfə artıb. Qlobal ticarət dövriyyəsi isə 9,4 trilyon dollardan 33 trilyon dollaradək dəyişib. Bu isə ondan xəbər verir ki, qlobal ticarətlə müqayisədə Azərbaycanın ticarət dövriyyəsi təxminən 4 dəfəyə yaxın daha çox artıb.

Büdcə gəlirlərimizdə, eləcə də fiskal gəlirlərimizdə artım daha yüksək faizlə ifadə olunur. Büdcə gəlirlərimizdə 30 dəfədən çox artım qeydə alınıb. Eyni zamanda, dövlət rezervlərimiz həmin müddətdə 2 milyard dollardan 80 milyard dollara qədər yüksəlib.

Bütün bunlar ondan xəbər verir ki, cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatının inkişafı, yeni uğurların əldə edilməsi prosesi davam edir. Bütün bunlar növbəti illərdə də yeni dövrün yeni hədəflərinə, iqtisadi inkişafdakı dayanıqlılığın, davamlılığın və inklüzivliyin davam edəcəyi istiqamətində qlobal trendlərə, milli çağırışlara uyğun olaraq, ekosistemin daha da inkişafına zəmin yaradacaq. Bu kontekstdə qlobal iqtisadi müqayisədə belə Azərbaycan iqtisadiyyatının həmin dövrdə daha çox inkişaf etdiyini müşahidə edirik.

Çox sağ olun.

*Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini **Ziyafət Əsgərov** sədrlik edir*

**Sədrlik edən.** Sağ olun.

Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev.** Hörmətli sədarət, hörmətli həmkarlar, 2003-cü ildən bu günə qədər Azərbaycan bir dövrü deyil, bir taleyi dəyişib. Bu dəyişimin mərkəzində isə qətiyyət, siyasi iradə və milli məsuliyyət dayanır. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan gücünü sözlə deyil, nəticə ilə sübut edir. Bu illər ərzində Azərbaycan heç vaxt kənardan diktə olunan siyasətlə hərəkət etməyib. Biz milli maraqlara əsaslanan müstəqil yol seçdik və bu yol bizi güclü dövlət statusuna gətirdi. Azərbaycan bu gün beynəlxalq müstəvidə hesaba alınan, mövqeyi nəzərə alınan ölkədir.

Azərbaycan iqtisadi sahədə gələcəyini o dövrdən qurub. Enerji resursları, sadəcə, ixrac predmeti deyil, artıq dövlətin dayağıdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP, Cənub Qaz Dəhlizi layihəsi kimi layihələr ölkəmizi Avropanın enerji təhlükəsizliyinin ayrılmaz hissəsinə çevirdi. Bu gün isə Azərbaycan yaşıl enerji gündəliyi ilə yeni bir mərhələyə qədəm qoyur. Amma bu yolun ən ağır və ən şərəfli sınağı Qarabağ idi.

2020-ci ildə Azərbaycan xalqı 30 illik ədalətsizliyə 44 gün ərzində son qoydu. Prezident İlham Əliyevin Ali Baş komandanlığı altında Azərbaycan Ordusu tarix yazdı. Biz yalnız torpaqlarımızı deyil, milli ləyaqətimizi də bərpa etdik. 2023-cü ildə suverenliyimiz tam təmin olundu və Azərbaycan dövlətinin gücü bir daha sübut olundu.

Xankəndi şəhərində şanlı bayrağımız qaldırıldı və Ermənistanın təcavüz siyasətinin onurğa sütunu qırıldı. Bu gün işğaldan azad edilmiş torpaqlarda həyat yenidən doğulur. Dağıdılmış şəhərlər dirçəlir, yollar çəkilir, məktəblər, xəstəxanalar tikilir. Böyük Qayıdış təkcə fiziki deyil, mənəvi qayıdışdır.

2026-cı ilə doğru Azərbaycan yalnız keçmişin yaralarını sarımır, gələcəyini qurur. Qarabağ və Şərqi Zəngəzur yeni iqtisadi logistika və enerji mərkəzinə çevrilir. Bu gün Azərbaycan güclü ölkədir, bu gün Azərbaycan gözləyən deyil, bu gün Azərbaycan öz taleyini özü yazan dövlətdir və bu yolun adı güclü liderlik, güclü dövlət, güclü Azərbaycan yoludur.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, insanlara dövlət və ya ictimai vəzifə bir çox hallarda tarixi şərtlər və ya tale vasitəsi ilə nəsib olur. Ancaq vəzifə insanı o zaman tarixdə qalır ki, öz tarixi məsuliyyətini dərindən dərk etsin və vəzifədə olduğu müddəti yola verməklə keçirməsin, riski gözə alıb o tarixi missiyanı yerinə yetirsin. Sabah ad günü olacaq, doğum günü olacaq Azərbaycan Prezidenti İlham Əliyev də məhz bu xüsusiyyətinə görə fərqlənir. Öz tarixi məsuliyyətini böyük bir riski gözə alaraq yerinə yetirməyi qarşısına məqsəd qoyan siyasi bir lider olaraq Azərbaycan tarixində qalacaqdır. Çünki son 200 ildə bu millətin qarşısında duran ən böyük vəzifə müstəqil dövlət yaratmaq idi. Onu babalarımız yaratdı. Bu müstəqil dövləti ikinci dəfə bərpa edəndə onu xaosdan, müəyyən sıxıntılardan qorumaq lazım idi. Bunu Ulu Öndər Heydər

Əliyev etdi və layiqli şəkildə Azərbaycan dövlətinin sabitliyini qoruyub saxlaya bildi. Amma ən böyük vəzifələrdən biri bu dövlətin bütövlüyünü bərpa etmək idi, bu dövlətin ərazi hüdudlarını özünə qaytarmaq idi. Bunu da İlham Əliyev etdi. Bu, həm də bizim üçün yeni hədəflər yaratdı. O hədəflər nədir?

Bu gün, əslində, Azərbaycan Turan quruculuğunun da bir nüvəsini təşkil edir. Zəngəzur dəhlizi artıq bizim üçün Turan quruculuğunun əsasını təşkil edən bir hədəfdir. Bu hədəfi də yerinə yetirəndən sonra artıq Azərbaycanın qarşısında dünya gücləri ilə, qlobal güclərlə birlikdə dünyanın taleyində bir çox məsələlərdə qəraralma imkanı, perspektivi yaranacaqdır. Ona görə də bu gün bizim ən böyük işlərimizdən biri Ermənistanla böyük sülh sazişinin imzalanmasıdır. Biz bir çox hallarda ictimai rəyi bu sazişin əsas mahiyyətinə yönəltməyə çalışmalıyıq. Çünki bir çox hallarda qalib xalqın insanları qalibiyyət qürurunu hələ də hiss etmədiyinə görə bəzən xırda detallar üzərində müəyyən müzakirələr aparırlar. Hansı isə müğənni, hansı isə bir şəxsin QHT-də və ya başqa sektorda atdığı addımları müzakirə edirlər. Amma hər şeyin mahiyyətini anlayan qalib xalq kimi daha böyük təşəbbüskar addımlar atılmalı və bu sülhün bağlanmasına təcili nail olunmalı, bölgədə müharibə riskinin uzaqlaşdırılmasına xidmət etmək gözə alınmalıdır.

O baxımdan da mən hesab edirəm ki, ölkə Prezidentinin bu siyasəti Azərbaycan üçün böyük perspektivlər açır. Onun doğum günü münasibəti ilə təbriklərinə mən də qoşuluram.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Əminə Ağazadə. Buyurun.

**Əminə Ağazadə.** Hörmətli Ziyafət müəllim, hörmətli həmkarlar, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müasir dövlətçilik tariximizdə adı qızıl hərflərlə yazılan liderlərdəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan güclü, müasir və hüquqi dövlət kimi mövqeyini daha da möhkəmləndirmişdir. Onun uzaqgörən və prinsipial siyasəti nəticəsində dövlət idarəçiliyində sabitlik təmin edilmiş, ardıcıl islahatlar həyata keçirilmiş, milli maraqlara əsaslanan strateji inkişaf kursu formalaşdırılmışdır.

Xüsusi ilə vurğulamaq istərdim ki, bu dövrdə qanunvericilik sistemi müasirləşdirilmiş, vətəndaşların hüquq və azadlıqlarının təminatı gücləndirilmiş, dövlət–vətəndaş münasibətlərində şəffaflıq və məsuliyyət prinsipləri ön plana çıxmışdır. Eyni zamanda, cənab Prezidentin liderliyi ilə Azərbaycan öz suveren hüquqlarını tam şəkildə bərpa etmiş, ərazi bütövlüyünü təmin etmiş və beynəlxalq hüququn fundamental prinsiplərini praktik müstəvidə təsdiqləmişdir. Bu, yalnız hərbi və siyasi qələbə deyil, həm də hüquqi və mənəvi zəfərdir.

Biz möhtərəm cənab Prezidentə möhkəm can sağlığı, uzun ömür və Azərbaycan dövlətinin daha da qüdrətlənməsi naminə həyata keçirdiyi fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Vüqar Rəhimzadə. Buyurun.

**Vüqar Rəhimzadə.** Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, dəyərli media nümayəndələri. Müstəqilliyin bərpasından sonra tariximizin 2003-cü ildən bu günə qədərki dövrünün reallıqları Heydər Əliyev yolunun uğurlu davamının təsdiqidir.

Ümummilli Lider Heydər Əliyev 2003-cü ildə Azərbaycan xalqına tarixi müraciətində bu əminliyi ifadə etmişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Həmin müraciətdən ötən 22 ildən artıq dövrdə Azərbaycan tarixinə yazılan zəfərlər, uğurlar, inkişaf bu inamın və ümidin reallaşmasının təsdiqidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə görülmüş genişmiqyaslı işlər, həyata keçirilmiş sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində hazırda Azərbaycan dünyada böyük nüfuz qazanmış, siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağıdır.

Qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah bu gün Azərbaycanın sosial-iqtisadi inkişaf nailiyyətlərini xarakterizə edir. Prezident İlham Əliyevin liderliyi ilə tariximizə Zəfər və Dövlət Suverenliyi günlərinin yazılması dünənimizin, bu günümüzün və gələcəyimizin aydın mənzərəsini yaradır.

Ərazi bütövlüyümüzün, suverenliyimizin bütün ərazilərimizdə tam bərpası, azad olunmuş ərazilərimizdə üçrəngli bayrağımızın qürurla dalğalanması, xalqımızın mədəniyyət beşiyi Şuşanın azad olunması Prezident İlham Əliyevin Zəfər zirvəsidir. Dövlət başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyev adını tariximizə torpaqlarımızın xilaskarı kimi qızıl hərflərlə yazıb. Bu gün harada ya-

şamasından asılı olmayaraq hər bir azərbaycanlı qürurludur.

İşğaldan azad edilmiş ərazilərimiz quruculuq meydanını xatırladır. Bu ərazilərdə bərpa və quruculuq işləri geniş vüsət alıb. Artıq 6 şəhər, 2 qəsəbə və 20-dən artıq kənd sakinlərinə qovuşub. Qarabağımız və Şərqi Zəngəzurumuz cənnət məkana çevrilib.

Hər bir vədini əməli fəaliyyəti ilə reallaşdıran Prezident İlham Əliyevə xalqın sevgisi şəksizdir. Möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycanı gücləndirdi, qalibiyyətimizi şərtləndirən bütün amillərin yaradılmasına nail oldu və sonda azadlığına qovuşacağını 30 il səbirsizliklə gözləyən Qarabağımıza və Şərqi Zəngəzurumuza "Biz gəldik və burada əbədi olacağıq" söylədi.

Prezident İlham Əliyevin qalib lider kimi işğaldan azad edilmiş ərazilərimizə davamlı səfərləri...

**Sədrlik edən.** Sağ olun, Vüqar müəllim.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, əziz həmkarlar, ötən gün möhtərəm Prezident Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibəti ilə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə birdəfəlik maddi yardım verilməsi barədə sərəncam imzaladı. Bu hüquqi akt Azərbaycan dövlətinin gücünün, konstitusion niyyətlərinin və dövlətimizin ali məqsədlərinin uğurla realizəsinin nümayişi olmaqla bərabər, heç şübhəsiz ki, cənab İlham Əliyevin siyasətinin ana xəttinin insan amili və vətəndaş rifahı olduğunu bir daha göstərmiş oldu. Bu o deməkdir ki, müzəffər Prezident və qalib dövlətimiz bayram günlərində yardıma, dəstəyə ehtiyac duyan hər bir evin və hər bir ailənin bir daha hamisinə çevriləcək. Bayram günü

məhz bu yardım hesabına ocağında qazan qaynayacaq, evinə şənlik gələcək hər bir seçicimiz adından möhtərəm Prezidentə minnətdarıq.

1990-cı illərin çörək növbələrindən fərqli olaraq artıq elə inkişaf dövrünə qədəm qoymuşuq ki, hamının bir tikə ruzisi var. Amma cənab İlham Əliyevin bu böyüklüyü, bu ləyaqətli jesti vətəndaşın dövlətinə inamını, etimadını daha da möhkəmləndirmiş oldu. Vətəndaş bir daha gördü ki, lazımi məqamda onun yanında dövləti və Prezidenti dayanır.

Hörmətli həmkarlar, məlumdur ki, cənab İlham Əliyevin digər sərəncamı ilə 2026-cı il Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilir. Əlbəttə, növbəti ilin prioritetləri müəyyən edilərkən kompleks qiymətləndirilmə aparılır və heç şübhəsiz ki, BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının gələn il Bakıda keçirilməsi növbəti ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsində əsas faktor kimi çıxış edib. Lakin konseptual yanaşsaq, növbəti ilin məzmunu, əslində, ölkəmizin yeni inkişaf dövrünə, sülh və əməkdaşlıq perioduna qədəm qoymasını, bərpa-quruculuq prosesinin yeni mərhələyə keçməsini simvolizə edir.

Biz müharibəni cənab İlham Əliyevin sayəsində Zəfərlə başa çatdırdıq. Möhtərəm Prezidentin liderliyində və təşəbbüsləri ilə sülh istiqamətində önəmli məsafə qət edilib. Azərbaycan və Ermənistan arasında etimad quruculuğu prosesləri uğurla davam edir, kommunikasiyalar tədricən blokadadan çıxmaqdadır. Bu, sülh və əməkdaşlıqda ehtiva olunan elə yeni bir dövr deməkdir ki, biz potensialımızı artıq daha çox quruculuğa və yenidənqurmaya sərf edə biləcəyimiz dövrə qədəm qoyuruq.

Hörmətli həmkarlar, gördüyü titanik işlər, qazandığı və

tariximizin ən böyük qələbələri olan hərbi-siyasi zəfərlərlə yanaşı, yalnız bir az əvvəl təhlil etdiyimiz iki sərəncam cənab İlham Əliyevin yeni çağırışların və yeni tarixin lideri olduğunu demək üçün kifayət qədər ciddi əsas verir. Bu gün əminliklə deyə bilərik ki, İlham Əliyev şəxsiyyəti, onun siyasəti artıq yalnız Azərbaycanda deyil, bütövlükdə regionda təhlükəsizliyin qarantıdır.

Bilirsiniz ki, dünyanın pullarının cəm olduğu İsveçrədə, yaxud iqtisadi maraqların müəyyən edildiyi Böyük Britaniyada sülhə və sabitliyə nail olmaq qətiyyən qəhrəmanlıq deyil, bu sabitliyi zatən maraqlar diktə edəcək. Qəhrəmanlıq Cənubi Qafqaz kimi qütblərin və maraqların toqquşduğu coğrafiyada sülhə nail olmaqdır. Qüdrət sülhə, ədalətə, haqqa və hətta özünə inamını itirmiş cəmiyyətləri təkrar həyata bağlamaqdır. Bu mənada cənab İlham Əliyev milyonlarca insanın yeganə ümid yeridir. O cümlədən də Azərbaycanın müstəqilliyi, suverenliyi, bir sözlə, gələcəyi yalnız və yalnız...

**Sədrlik edən.** Sağ olun.

Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov.** Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, hörmətli deputatlar, 1993-cü ildə Ulu Öndər Heydər Əliyev siyasi rəhbərliyə qayıdandan sonra müstəqilliyini itirmək, parçalanmaq təhlükəsindən xilas olan Azərbaycan inkişaf yoluna qədəm qoydu. Dahi şəxsiyyət Heydər Əliyevin öz milləti və xalqı qarşısında ən böyük xidmətlərindən biri də özündən sonra onun siyasi kursunu böyük uzaqgörənliklə və müdrikliklə davam etdirə biləcək layiqli şəxsiyyətin yetişdirilməsidir.

O, 2003-cü ilin oktyabrında xalqa ünvanladığı tarixi müraciətində deyirdi: “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham

Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Ulu Öndərin dediyi sözlər, cənab İlham Əliyevə bəslədiyi ümidlər özünü tam doğruldub.

Əsrə bərabər 22 ilin zirvəsində, təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu gün Prezident İlham Əliyevin gərgin əməyi, güclü səyləri nəticəsində Qarabağ və Şərqi Zəngəzur yenidən dirçəlir. Bütün bu işləri dünya heyranlıqla izləyir.

Möhtərəm Prezidentimiz İlham Əliyev təhsil sahəsinə hər zaman yüksək diqqət göstərib. Bu gün dövlət büdcəsindən təhsil sahəsinə ayrılan vəsait ilk yerlərdən birini tutur. Eyni zamanda, dövlət başçısının uğurlu siyasətinin nəticəsidir ki, bu gün Azərbaycanda dini dözümlülük və tolerantlıq ən yüksək səviyyədədir. Bu gün Azərbaycan bu sahədə bir çox dünya ölkələri üçün əsl nümunədir.

Cənab Prezidentin rəhbərliyi ilə böyük tarixə malik məbədlərimizin bərpası, yenilərinin inşası sahəsində ardıcıl tədbirlər milli-mənəvi dəyərlərimizə olan böyük diqqətin və qayğının göstəricisidir. Son illər tarixi mədəniyyət abidələrinin, məscid və ziyarətgahların, yəhudi və xristian məbədlərinin bərpası və təmiri Azərbaycan gerçəkliyini əks etdirən sağlam dini-mənəvi durumun göstəricisidir. Prezident İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildiyi 2003-cü ildən indiyədək

ölkədə dövlətin dəstəyi ilə 250-dən artıq məscid tikilmiş və ya bərpa edilmişdir.

Bu gün cənab Prezidentin ad günüdür. Bütün cəbrayıllılar adından möhtərəm Prezidentimizi, müzəffər Ali Baş Komandan İlham Əliyevi doğum günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, Azərbaycanın inkişafı naminə gələcək fəaliyyətində ona uğurlar arzulayırıq.

**Sədrlik edən.** Sağ olun.

Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, media nümayəndələri. Məlumdur ki, Azərbaycan müasir tarixdə iqtisadi artım, sosial inkişaf dövrü ilə yanaşı, güclü liderlik və müstəqil dövlətçilik məktəbinin formalaşdığı mərhələ kimi səciyyələndirilir. Bu mərhələnin mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin liderlik keyfiyyətləri, siyasi iradəsi və prinsipial mövqeyi dayanır.

Prezident İlham Əliyevin liderliyini fərqləndirən əsas xüsusiyyətlərdən biri onun prinsipial mövqeni real və müstəqil siyasəti xəttə çevirə bilməsidir. O, beynəlxalq münasibətlər sistemində təzyiqlərin, ikili standartların və ziddiyyətlərin, ziddiyyətli maraqların mövcud olduğu bir şəraitdə Azərbaycanın milli maraqlarını qətiyyətlə qorumuş, heç bir güc mərkəzindən asılı olmayan müstəqil siyasət yürütmüşdür. Bu gün Azərbaycan öz qərarlarını özü verən, mövqeyini özü müəyyən edən dövlətdir.

Prezident İlham Əliyevin liderliyinin ən mühüm göstəricilərindən biri də verdiyi sözə əməl etməsi, onu əmələ çevirməsi, istər iqtisadi inkişaf platformaları, istər sosial öhdəliklər, istərsə də strateji layihələr və beynəlxalq təşəbbüslər olsun, bütün hallarda Prezident tərəfindən səslənən vədlər konkret nəticələrlə təsdiqlənmişdir. Məhz

bu keyfiyyət, sözlə əməl arasındakı tam uyğunluq Prezident İlham Əliyevə həm ölkə daxilində, həm də beynəlxalq münasibətlərdə yüksək etimad qazandırmışdır.

Hörmətli həmkarlar, məlumdur ki, Prezident İlham Əliyevin liderliyinin zirvə nöqtəsi isə dövlət suverenliyinin və ərazi bütövlüyünün tam bərpasıdır. Bu tarixi nailiyyət hərbi güclə yanaşı, prinsipial mövqenin, müstəqil siyasi iradənin və Prezidentin yüksək beynəlxalq nüfuzunun nəticəsidir. Bu gün dünya liderləri Prezident İlham Əliyevi verdiyi sözə sadiq qalan, müstəqil siyasət yürüdən, etibarlı tərəfdaş, regional sabitliyə real töhfə verən lider kimi qiymətləndirir.

Nəticə olaraq onu demək istərdim ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın müstəqil siyasi xəttinin olması onu güclü iqtisadiyyata malik, sosial məsuliyyət daşıyan, beynəlxalq aləmdə hörmət edilən dövlətə çevirmişdir. O da məlumdur ki, Prezident İlham Əliyevin bütün bu nailiyyətlərinin əsasında Ulu Öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya dayanır. Biz cənab Prezidentimizə dəfələrlə minnətdarıq ki, bütün bu proseslərin, bu təlatümlərin və daxili, eləcə də xarici təzyiqlərin qarşısında tab gətirərək Ulu Öndərimiz Heydər Əliyevin siyasətini ləyaqətlə həyata keçirir. Biz bir daha cənab Prezidentimizə bu mənada dəfələrlə minnətdarıq. Çünki Ulu Öndərimizin bu etimadını çoxları doğrulda bilmədi. Adlarını çəkmək istəmirəm, bugünkü mətbuatdan da məlumdur ki, onlar kimlərdir.

Bir daha Prezidentimizi ad günü münasibəti ilə təbrik edirəm.

**Sədrlik edən.** Sağ olun.

Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, Ziyafət müəllim.

Cənab Prezidenti ad günü münasibəti ilə təbrik edirik, ona uğurlar arzulayırıq. Azərbaycanın daha da qüdrətlənməsi, qarşımızda duran problemlərin uğurla həll edilməsi, Azərbaycanın beynəlxalq birlikdə layiqli yerinin daha da möhkəmləndirilməsi fəaliyyətində ona gərgin zəhmətinə görə təşəkkürümüzü bildiririk.

Cənab Prezident Azərbaycan xalqının, Azərbaycan cəmiyyətinin yetirməsidir. Azərbaycan dəyərlərinin, tariximizin, mədəniyyətimizin, dünya görüşümüzün, müstəqilliyə bağlılığımızın yetirməsidir. Cənab Prezident Ulu Öndər Heydər Əliyevin siyasi məktəbinin uğurlu məzunudur. O, həmişə Ulu Öndərin yanında olub. O, Ulu Öndər siyasi təqibdə olarkən onun yanında olub. 1990-cı il yanvarın 21-də Ulu Öndər Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrkən, ona qarşı istənilən təxribatın mövcud olduğu dövrdə onun yanında olub. Ulu Öndər Naxçıvana rəhbərlik edərkən onun yanında olub. Ulu Öndər Azərbaycana rəhbər qayıtdıqdan sonra da ölkəmiz üçün çox məsul sahədə – Dövlət Neft Şirkətinin rəhbərliyində olarkən neft strategiyamızın formalaşdırılmasında yaxından iştirak edib. Cənab Prezidentimiz şəxsən neft müqaviləmizin bağlanması ilə əlaqədar danışıqlarda iştirak edib və həmin müqavilələr Azərbaycan üçün uğurla nəticələnib. Sonradan isə Azərbaycanda gedən islahatların keçirilməsi ilə bağlı layihələrin hazırlanmasında, onların birbaşa həyata keçirilməsində öz töhfəsini verib.

Ulu Öndərdən sonra Azərbaycanın inkişaf yoluna rəhbərlik etməsi və bu müddət ərzində olan nəticələr göstərdi ki, cənab Prezident Azərbaycanın tarixini, mövcud problemlərini yaxşı bilir. Ən əsası isə, onların həlli yollarını bilir. Yadıma gəlir, o, hələ Dövlət Neft Şirkətində vitse-

prezident olarkən yerli qəzetlərdən biri ondan böyük bir müsahibə götürdü. Dövlət başçımız dünyada gedən proseslər, Azərbaycanın bu proseslərdəki rolu, qarşısında duran vəzifələrdən və onların həlli ilə bağlı öz fikirlərini bildirdi. Sonda jurnalist soruşdu: "Sizin siyasətə qarışmaq fikriniz yoxdurmu?" Cənab Prezident çox müdrik bir cavab verdi: "Məgər bayaqdan danışdıqlarım siyasət deyildimi?"

Siyasət cənab Prezident üçün söz deyil, onun üçün konkret işdir. Konkret iş isə ondan ibarətdir ki, cənab Prezident torpaqlarımızı işğaldan azad etdi. Cənab Prezident Azərbaycanın neftdən asılılığının tədricən azaldılmasını təmin etdi. Cənab Prezident regionların inkişafına böyük diqqət göstərir. Cənab Prezident Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması, təmin edilməsi istiqamətində böyük işlər görür. Cənab Prezident Azərbaycanın beynəlxalq birlikdə layiqincə təmsil edilməsini təmin etdi.

Cənab Prezident bu gün dünyada tanınan nüfuzlu liderlərdən biridir və onu ad günü münasibəti ilə təbrik edir, gələcək fəaliyyətində uğurlar arzulayıram. Azərbaycan xalqı öz Prezidenti ilə fəxr edir, həmişə onun yanındadır.

**Sədrlik edən.** Sağ olun.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli Ziyafət müəllim, hörmətli həmkarlar, media nümayəndələri. Bu gün acı bir həqiqəti danışmaq üçün yazılmışam. Biz, illərdir, bu ölkənin hər küncündə ədalət üçün səs qaldırırdıq. Amma bu mübarizədə elə bir siyasətçi var ki, o, yalnız iqtidarı deyil, bütün müxalifəti, bütün dostları özünə düşmən etdi. Söhbət, illərdir, siyasətin zirvəsində dayanmağa çalışan,

1980-ci illərdən fəaliyyət göstərən, lakin əlində nə bir qələbə, nə də bir dostu qalan şəxsdən – AXCP sədri Əli Kərimlidən gedir.

Həbs edildiyi anda ölkədə heç bir siyasi təşkilat onu müdafiə etmədi. Beynəlxalq qurumlar və səfirliklər belə susdu. Bir tək Avropa Parlamenti nə isə dedi. Bu, bir insanın siyasətdəki ən böyük faciəsidir, kütləvi təkliyin fəlsəfəsidir. Bütün fəaliyyəti boyu o, birləşdirməyə deyil, damğalamağa üstünlük verdi. O, digər müxalif qüvvələri, bütün digər partiyaları siyasi prosesin iştirakçısı deyil, özünün siyasi saflıq hekayəsinin fonu hesab etdi. Nəticə etibarı ilə müxalifətin hər bir tərəfində yandırılmış körpülər qaldı. O, siyasi rəqiblərinə satqın damğası vurmaqla, əslində, öz gələcək təcridinin sənədini imzalayırdı.

Əli Kərimlinin siyasəti bir qızıl qayda üzərində qurulmuşdu: ya mənimlə olacaqsan, ya da mən səni satqın elan edəcəyəm. Mənə və mənim kimi prinsipial, konstruktiv yöndə siyasət aparan siyasətçilərə dəfələrlə satqın damğası vurmağa çalışırdı. O, elə bir ab-hava yaradırdı ki, guya ondan başqa bu ölkədə xalqın dərdinə yanan yoxdur.

Belə davranış onillər boyu müxalifəti aciz duruma saldı. Necə ola bilər ki, illərcə eyni ideallar uğrunda mübarizə aparan yoldaşlarını satqın adlandıraraq təkliyə məhkum olasan? Bu siyasət nəticə vermədi. Hələ də 1980-ci illərin şüarları ilə qaldıq. Nə bir ciddi islahat, nə bir vahid cəbhə, nə də yeni bir strategiya. İllərdir, süfrədə eyni soyuq yemək oldu. Çünki özünü baş aşpaz adlandıran şəxs yeni resept axtarmaq istəmədi və axtaranları da satqın adlandırdı.

Müxalifət bu gün təcridxanada deyil, təcrid olunmuş siyasətin içindədir. Bizə yeni siyasət lazımdır, amma etik, hörmətli və nəticəyönümlü siyasət və birlik. Bir-birimizi

satqın adlandıra-adlandıra miskin günə qaldıq. Bu miskinliyin ideya və yaradıcı müəllifi AXCP sədri Əli Kərimlidir və bu gün yaxşı ki, o, Azərbaycan siyasətindən silinmək üçün son çabalarını göstərir. Biz parçalayıcı, damğalayıcı və nəticəsiz siyasətin köhnə libasını çıxarıb atmalıyıq. Əgər lider deyilən şəxs hər kəsi satqın adlandırırsa, sonunda özü tək qalacaq və bu təkliyin məsuliyyətini də yalnız özü daşıyacaq. Mən bu parlament tribunasından xalqımıza müraciət edirəm. Azərbaycan müxalifəti bu gün kimin daha təmiz olduğunu sübut etmək üçün deyil, dövlət və xalq üçün işləmək həvəsindədir.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli deputatlar, hörmətli həmkarlar, mən də deyilən bütün təbriklərə qoşuluram. Möhtərəm Prezidentimizi ad günü münasibəti ilə ürəkdən təbrik edirəm, ona möhkəm can sağlığı və ali dövlət fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.

İndi isə, icazənizlə, gündəlikdə olan məsələlərə keçirik. Gündəliyin 1-ci məsələsi "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 31 oktyabr tarixli Sazişə Əlavə Protokol"un təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsidir. Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov. Anar müəllim, buyurun.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli sədr müavini, hörmətli həmkarlar və media nümayəndələri. Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində

əməkdaşlıq haqqında 2017-ci il 31 oktyabr tarixli Sazişə Əlavə Protokol" Milli Məclisə daxil olmuşdur. Bu protokolun məqsədi Azərbaycan Respublikasında və Türkiyə Respublikasında fəaliyyət göstərəcək məktəblərin fəaliyyətinə və məktəb binalarının istifadəyə verilməsinə dair prosedur və əsasları müəyyənləşdirmək və bu binaların sazişə uyğun olaraq, "Bakı Türk Təhsil Müəssisələri" və Azərbaycan tərəfinin açacağı təhsil müəssisəsi üçün çərçivəni tənzimləməkdir.

6 maddədən ibarət olan qanunun məqsədi Azərbaycan təhsil müəssisələrinin fəaliyyəti, təhsil müəssisələrinin istifadəyə verilmə şərtləri, hər iki tərəfin maliyyə öhdəlikləri, təmir və bərpa işləri və qüvvəyəminmə maddəsi müəyyən edilmişdir. Qanun layihəsi Elm və təhsil komitəsində müzakirə olunmuş və plenar iclasa tövsiyə olunmuşdur. Hörmətli sədr müavini, səsə qoyulmasını xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Anar müəllim.

Qanun layihəsinin müzakirəsi ilə bağlı yazılanlar var.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** İcazənizlə, bir dəqiqə. Darıxmayın.

Buyurun, Siyavuş müəllim.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, hörmətli deputatlar, qeyd etmək istəyirəm ki, çox vacib bir qanundur. Türkiyə ilə Azərbaycan arasında bağlanmış bu müqavilə, demək olar ki, Türkiyə və Azərbaycan məktəbləri arasında əlaqələrin daha da genişlənməsinə xidmət edəcəkdir. Elə Türkiyənin Vitse-prezidenti bu gün Azərbaycandadır. Azərbaycanın Baş naziri ilə birlikdə mətnləri yüz başlıqdan çox olan müxtəlif müqavilələrə imza atılıb ki, bunların da böyük bir hissəsi Türkiyə ilə,

təhsillə bağlı məsələdir. Azərbaycanda müxtəlif ölkələrin – Avropa, rus məktəbləri fəaliyyət göstərir. Hesab edirəm ki, türk məktəbləri burada üstünlük təşkil etməlidir. Həm dil baryeri, həm də milli-mənəvi dəyərlər, eyni zamanda, kifayət qədər Azərbaycan tələbələrinin hərbi, tibb sahələri üzrə Türkiyədə, Türkiyə tələbələrinin isə Azərbaycanda müxtəlif ixtisaslar, məsələn, neft sahəsi üzrə təhsil almaları vacib olan elementlərdəndir. Biz çalışmalıyıq ki, orada təhsil alsınlar və qayıdıb Azərbaycanda öz fəaliyyətlərini davam elətdirsinlər. O baxımdan da qanun layihəsi çox vacibdir.

Türkiyədə müxtəlif hərbi təhsil komplekslərində təhsil almış, müxtəlif sahələrə yiyələnmiş Azərbaycan tələbələrinin ordumuzun gələcəkdə NATO standartlarına uyğun şəkildə qurulmasında yeri və rolu vacib əhəmiyyət kəsb edir. Çünki bu təhsil həm bütün dünyada, həm də Türkiyədə vacib olan təhsil sistemlərindən biridir. O baxımdan da qanun layihəsinə səs verəcəyəm və deputat həmkarlarımı da buna səs verməyə çağırıram.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim, təşəkkür edirəm.

Hörmətli həmkarlar, qanun layihəsi Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də müzakirə olunub. Ona görə də mən komitənin üzvü Fariz İsmayılzadəyə söz verirəm. Buyurun, Fariz müəllim.

**Fariz İsmayılzadə,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli sədr müavini, hörmətli həmkarlar, təqdim olunan qanun layihəsi Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də ətraflı müzakirə olunmuşdur. Komitə

üzvləri hesab edir ki, “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2017-ci il 31 oktyabr tarixli Sazişə Əlavə Protokol” dostluq və strateji tərəfdaşlığı daha da inkişaf etdirəcəkdir, həm milli, həm də regional səviyyədə təhsil sahəsində səmərəli nəticələr əldə etməyə imkan verəcəkdir.

Komitə üzvləri qanun layihəsini dəstəkləyərək plenar iclasda digər millət vəkilləri tərəfindən dəstəklənməsini tövsiyə etmişlər.

**Sədrlik edən.** Sağ olun, Fariz müəllim, təşəkkür edirəm.

Yazılanlardan təkid edən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Türkiyə ilə Azərbaycan arasında olan bir sazişdir. Hesab edirəm ki, hamı bunu bəyənir. Ona görə də təkid edən yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair 2021-ci il 19 fevral tarixli Protokola Əlavə Protokol”un təsdiq edilməsi haqqında

qanun layihəsidir. Anar müəllim, yenə sizin komitədə və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində müzakirə olunub. Buyurun, Anar müəllim, söz Sizindir.

**Anar İsgəndərov**. Hörmətli sədr müavini, hörmətli həmkarlar və media nümayəndələri. Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair 2021-ci il 19 fevral tarixli Protokola Əlavə Protokol" Milli Məclisə daxil olmuşdur. 2021-ci il fevralın 19-da Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol"un 5-ci maddəsinə əsasən razılığa gəlinib.

Qanun layihəsi komitə iclasında müzakirə olunmuş və plenar iclasa tövsiyə olunmuşdur. Qanun layihəsinin səsə qoyulmasını xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Fariz müəllim də məlumat versin. Fariz İsmayılzadə. Buyurun.

**Fariz İsmayılzadə**. Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, hörmətli həmkarlar, bu qanun layihəsi də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində ətraflı müzakirə olunmuşdur. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokola Əlavə Türkiyə və Azərbaycan peşə təhsili müəssisələrinin inkişafını nəzərdə tutur. Bu layihələr hazırda ölkəmizdə peşə sahəsində böyük ehtiyac duyulan peşəkar kadrların hazırlanmasına və təlim-tədris keyfiyyətinin artırılmasına xidmət edəcəkdir. Bu sənəd birgə

əməkdaşlıqda və qardaş Türkiyə ilə əlaqələrin möhkəmlənməsində vacib rol oynayacaq. Komitə üzvləri qanun layihəsinə yekdilliklə səs verib, digər deputatları da səs verməyə çağırırlar.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, təşəkkür edirəm.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoyacağıq, darıxmayın. Amma Fazil müəllim ikinci dəfədir, yazılıb. Fazil müəllimə söz verək, sonra məsləhətləşərik.

Buyurun, Fazil müəllim.

**Fazil Mustafa**. Çox təşəkkür edirəm, hörmətli Ziyafət müəllim. Siz yaxşı bir təcrübə qoydunuz, heç olmasa, birinci yazılana söz verib, sonra səsə qoyursunuz. Yaxşı ənənədir, ona görə də mən birinci yazıldım ki, danışa bilim.

Hesab edirəm ki, hamımız Türkiyə ilə həm təhsili, həm ali təhsili, həm də peşə təhsili sahəsində əməkdaşlığı dəstəkləyirik. Amma bir gerçəklik var ki, illərdir, bu istiqamətdə dövlətlərimiz arasında çox sayda protokollar imzalansa da, biz nümunəvi Türkiyə–Azərbaycan Universitetinin yaranmasına nail ola bilmədik. Biz bunun üzərində düşünməliyik.

Hərbi sahədə çox gözəl əlaqələrimiz var, digər sahələrdə də bir çox imkanlarımız artıb. Amma təhsildə sənəddən kənara çıxa biləcək bir sıra məqamları gerçək həyatda tətbiq edə bilmirik. Yəni əslində, peşə təhsili baxımından bizim müqavilə bağlamalı olduğumuz ölkə bəlkə də Almaniyadır, Avropa ölkələridir. Çünki orada peşə təhsili tamamilə fərqli bir yöndə, modern texnologiyanın tətbiqi ilə həyata keçirilir. Təbii ki, Türkiyədə qardaş ölkə kimi müəyyən irəliləyişlər var. Amma bizdə bu istiqamətdə ali

təhsil məsələsi çox önəmlidir. Yəni nümunəvi Türkiyə–Azərbaycan Universiteti üçün protokollar imzalandı, bütün addımlar atıldı, amma biz bunu populyar bir universitetə, hamının qəbul etdiyi bir modelə çevirə bilmədik. Məsələn, Qırğızıstanda Manas Universiteti Türkiyə və Qırğızıstanın birlikdə layihəsi idi. Bu gün Orta Asiyanın ən nüfuzlu universitetlərindən biri kimi fəaliyyət göstərir. Böyük bir kampusu, xeyli texnoloji imkanları var. Ona görə də biz peşə təhsilinə də bu aspektdən yanaşmalıyıq. Bunun faydalı olması üçün real işlərin görülməsinə və onların əngəllənməməsinə ehtiyac var.

Bir çox hallarda, baxın, binanın verilməsi belə 1, 2, 3 il – uzun müddət çəkir. Ona görə də bu sahə ilə məşğul olan məmurlar Türkiyə ilə Azərbaycan arasında bağlanmış bütün müqavilələrə ciddi yanaşmalıdırlar, ona mane olmamalıdırlar, müəyyən dərəcədə onun daha da irəliləməsinə kömək göstərməlidirlər.

Baxın, bizim hərbçi kadrların xeyli hissəsi, tibb sahəsində olan ən aparıcı mütəxəssislərimizin əksəriyyəti Türkiyədə yetişib. Bir müddət əvvəl orada universitet sistemi daha inkişaf etdiyinə görə bu var idi.

Türkiyə məktəbləri, ümumiyyətlə, Azərbaycan məktəb sferasından tamamilə çıxıbdır və hansısa bir şəkildə onun bərpası istiqamətində də ciddi addımlar atılmadı. Xüsusi ilə də Maarif Vəqfi yaradıldı. Bu istiqamət olduqca önəmli idi. Biz rus dili ilə bağlı müəyyən problemlər yaşayırıq, kadrlarımız yoxdur. Orta məktəblərdə bir çox hallarda rusdilli təhsilin nə qədər zəif olduğunu görürük. Amma heç olmasa, bizdə dil baxımından, mental olaraq yaxın olan Türkiyə orta təhsil sisteminin də müəyyən təzahürlərinin olması lazımdır. Burada Dəyanət Vəqfinin məktəbləri var. Turan Yazqanın məktəbləri də bir vaxt populyar

idi, maddi imkanlar zəif olduğuna görə onları da saxlamaq mümkün olmadı. Halbuki onlar da böyük fayda verdi. Atatürk məktəbi var. Azərbaycan məktəbləri, təbii ki, olsun, onları da inkişaf elətdirək, repetitor caynağından xilas edək, insanları məktəbə qaytaraq. Belə bir modelin olması vətəndaşa alternativ seçim imkanı verirdi. Çünki biz buradan yad bir ideologiya almırıq, yad təsirlərə məruz qalmırıq. Öz qardaş ölkəmizdir və biz, onsuz da, gələcəyimizi bir yerdə qururuqsa, demək, məktəbimiz də, peşə məktəbimiz də, ali məktəbimiz də birlikdə qurulmalıdır və bir istiqamətdə də inkişaf etməlidir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Elçin Mirzəbəyli. Buyurun.

**Elçin Mirzəbəyli.** Təşəkkür edirəm, Ziyafət müəllim. Hörmətli həmkarlar, hörmətli millət vəkilləri, müzakirə etdiyimiz sənəd dövlətlərarası müqavilələrin tərkib hissəsi olsa da, ölkəmizdə peşə təhsili sahəsində son illər həyata keçirilən islahatların məntiqi davamı və tərkib hissəsi hesab oluna bilər. Bu yanaşma özünü Əmək Məcəlləsinə edilən son əlavə və dəyişikliklərdə də büruzə verir. Gənclərin əmək bazarına daha erkən və təhlükəsiz çıxışı, istehsalat təcrübəsinin hüquqi çərçivəyə salınması, şagird və tələbələrin əməyinin qorunması, işəgötürən – təhsilalan münasibətlərinin aydın və şəffaf tənzimlənməsi peşə təhsili sahəsindəki islahatların qanunvericilik bazasının təkmilləşdirilməsi ilə yanaşı, dövlətlərarası əməkdaşlıq prioritetlərində də yer aldığını, sistemli, ardıcıl xarakter daşıdığını təsdiqləyir.

Müzakirə etdiyimiz sənəd isə peşə təhsili sahəsində çoxillik və nəticəyönlü təcrübəyə malik olan Türkiyə Respublikası ilə birlikdə ölkəmizdə həyata keçirilən is-

lahatların növbəti mərhələsi üçün institusional və praktik mexanizm yaradır. Qeyd edim ki, peşə təhsili əmək bazarının formalaşmasının zəruri elementlərindən biri olmaqla yanaşı, həm də sosial xarakter daşıyır və iqtisadi inkişafın zəruri mexanizmlərindən biri kimi çıxış edir.

"Peşə təhsili sisteminin potensialının gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 dekabr tarixli Sərəncamı dövlətimizin bu sahəyə strateji baxış bucağını açıq şəkildə nümayiş etdirir. Cənab Prezidentin sərəncamından irəli gələn vəzifələrin həyata keçirilməsi, inşa edilməsi nəzərdə tutulan yeni peşə təhsili müəssisələrinin necə idarə olunacağı, hansı model əsasında fəaliyyət göstərəcəyi, əmək bazarı ilə necə əlaqələndiriləcəyi peşə təhsili sahəsində həyata keçirilən islahatların davamlı nəticələrə yol açması baxımından vacib əhəmiyyətə malikdir. Məhz bu baxımdan hazırda müzakirə etdiyimiz Əlavə Protokolda yer alan əməkdaşlıq istiqamətlərinin nə qədər önəmli olduğunu vurğulaya bilərik.

Sənəddə nəzərdə tutulan mexanizmlər peşə təhsilinin istehsalatla birbaşa inteqrasiyasını, tələbələrin real müəssisələrdə təcrübə keçməsini, sığorta, əməkhaqqı və təhlükəsizlik məsələlərinin milli əmək qanunvericiliyinə uyğun tənzimlənməsini, diplom və sertifikatların qarşılıqlı tanınmasını təmin edir. Bu yanaşma faktiki olaraq peşə təhsilinin təcrid olunmuş məhdud anlayış çərçivəsindən çıxarılaraq əmək bazarının ayrılmaz və əhəmiyyətli bir hissəsinə çevrilməsinə imkan yaradır.

Xüsusi ilə vacib məqam ondan ibarətdir ki, Əlavə Protokol çərçivəsində yaradılacaq peşə təhsili müəssisələri publik hüquqi şəxs kimi fəaliyyət göstərəcək, şəffaf maliyyə və audit mexanizmlərinə malik olacaq, sözügedən

müəssisələrin strateji inkişaf xətti isə Azərbaycan və Türkiyə tərəfinin birgə İdarəetmə Şurası vasitəsi ilə müəyyən ediləcək. Bu model cənab Prezidentin "Peşə təhsili sisteminin potensialının gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamından irəli gələn vəzifələrin icrasına, peşə təhsili, əmək və məşğulluq sahəsində həyata keçirilən islahatların uğurla davam etdirilməsinə xidmət edir. Müzakirə etdiyimiz sənəd, eyni zamanda, Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin inkişafa, rifaha xidmət edən növbəti nümunəsi kimi də dəyərləndirilə bilər.

Sənəddə yer alan razılaşmaların ölkəmizdə peşə təhsili sahəsində aparılan islahatların ardıcıllığının və məqsədyönlülüyünün təmin edilməsinə töhfə verəcəyinə inanıram.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəli?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif var, səsə qoyaq. Etiraz edən yoxdur? Yazılanlardan təkid edən yoxdur? Aydın müəllim?

Ceyhun müəllim, buyurun.

**Ceyhun Məmmədov**. Hörmətli Ziyafət müəllim, hörmətli həmkarlar, bu gün Azərbaycanla Türkiyə tarixinin ən şanlı və şərəfli dövrlərini yaşayır. Tarix boyu Azərbaycan və Türkiyə həm sevincli günlərində, həm də kədərli günlərində bir-birinin yanında olub və Vətən müharibəsi bunu bir daha təsdiq etdi. Bu mənada bu gün belə bir sənədin qəbul edilməsi yalnız təhsil sahəsində əməkdaşlıq sənədi deyil, bizim bütün sahələrdə əməkdaşlığımızın bir davamıdır və bu, əməkdaşlığın daha da güclənməsinə verilmiş bir töhfədir.

Azərbaycanla Türkiyə arasında ali təhsil sahəsində əməkdaşlıq yüksək olub. Bu gün Türkiyə-Azərbaycan Universiteti bunu uğurla davam etdirir. Bu universitetin

fəaliyyətinin daha da genişləndirilməsinə ehtiyac var. Bu gün Azərbaycanla Türkiyənin peşə təhsili sahəsində də əməkdaşlığının gücləndirilməsi çox önəmlidir.

Məlum olduğu kimi, bir müddət bundan əvvəl cənab Prezident önəmli bir sərəncam imzaladı və bu sərəncamı təhsil sahəsində ən böyük addımlardan biri kimi qiymətləndirə bilərik. 21 peşə təhsili müəssisəsinin tikintisi və iki peşə təhsili müəssisəsinin əsaslı təmiri nəzərdə tutulur. Qeyd etdiyimiz kimi, bu əməkdaşlıq peşə təhsili sahəsində də bizim birgə fəaliyyətimizə öz töhfəsini verəcək.

Çıxışımın sonunda mən bir məsələnin üzərində dayanmaq istəyirəm. Burada önəmli məsələlərdən biri: bildiyimiz kimi, bu gün Türkiyənin peşə təhsili sahəsində çox böyük təcrübəsi var və bu mənada yeni peşə standartlarının işlənməsi və tətbiqi xüsusi önəm daşıyır. Eyni zamanda, peşə təhsili ilə real bazar arasında əlaqənin qurulması məsələsidir.

Sonuncu məsələ. Dünən hökumətlərarası iclasda hörmətli cənab Baş nazir Əli Əsədov önəmli bir məsələyə toxundu. Söhbət Azərbaycan diplomlarının Türkiyədə tanınmasından gedir, bir sıra universitetlərimizin diplomları tanınmır. Hesab edirəm ki, bu əməkdaşlığın nəticəsində Türkiyə tərəfi Azərbaycan diplomlarının tanınması istiqamətində də ardıcıl addımlarını atacaqdır.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, təşəkkür edirəm.

Əgər başqa çıxış etmək istəyən yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verMədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ "Azərbaycan Respublikası Hökuməti ilə Oman Sultanlığı Hökuməti arasında diplomatik, xüsusi və xidməti pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov. Buyurun, Səməd müəllim.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörmətli Ziyafət müəllim. Azərbaycan Respublikası Hökuməti ilə Oman Sultanlığı Hökuməti arasında diplomatik, xüsusi və xidməti pasport sahiblərinin vizadan qarşılıqlı azad olunması Azərbaycanın ərəb dünyası, islam dünyası ilə əlaqələrinin genişlənməsinə, Azərbaycanın siyasi çəkisinin artırılmasına, diplomatik imkanların artmasına, işgüzar əlaqələrin ən yüksək səviyyədə tətbiq olunmasına xidmət edən bir məsələdir. Ona görə komitəmiz yekdilliklə bunun lehinə səs vermişdir. Sizi də səs verməyə dəvət edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, təşəkkür edirəm.

Çıxış etmək istəyən yoxdur. Onda xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, təşəkkür edirəm.

Növbəti məsələ "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsidir. Üçüncü oxunuşdur, xahiş edirəm, bunu nəzərə alasınız. Buyurun, Anar müəllim, söz Sizindir.

**Anar İsgəndərov**. Hörmətli Ziyafət müəllim, "Ümumi təhsil haqqında" Qanunda dəyişikliklə bağlı qanun layihəsi həm komitədə, həm də plenar iclasda ətraflı müzakirə olunmuşdur. Qanun layihəsi ilə bağlı komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun.

Təklif var, səsə qoyulsun. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsidir, üçüncü oxunuşdur. Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun. Üçüncü oxunuşa tam hazırdır. Heç bir sual, təklif daxil olmayıb. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun.

Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

6-cı məsələ "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsidir. Üçüncü oxunuşdur. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli Ziyafət müəllim. Hakimlərin xidməti vəsiqəsini tənzimləyən bu dəyişikliklə bağlı əlavə heç bir təklif komitəyə daxil olmamışdır. Üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, təşəkkür edirəm.

Çıxış etmək istəyən yoxdur. Xahiş edirəm, qanun

layihəsinə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsidir, ikinci oxunuşdur. Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Kamal Cəfərov. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli Ziyafət müəllim. Qanun layihəsi ilə bağlı birinci oxunuşda geniş məlumat verilib. İkinci oxunuş zamanı, sadəcə, texniki bir əlavə var. Qanun layihəsinin 2-ci maddəsində "hərbi vəzifə və hərbi xidmət haqqında" sözlərindən sonra "Azərbaycan Respublikasının Qanunu" sözləri əlavə edilmişdir və qanun layihəsində nəzərdə tutulub. Həmkarlarımı qanun layihəsinin lehinə səs verməyə çağırıram.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, təşəkkür edirəm.

Hörmətli deputatlar, ikinci oxunuş olduğuna görə biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun,

qanun layihəsinə əsas kimi səs verək.

| **Səsvermənin nəticələri** | (saat 12.26 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsi ilə əlaqədar, Zahid Oruc. Buyurun, Zahid müəllim.

**Zahid Oruc**. Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, dəyərli millət vəkilləri, təbii ki, hər birimiz layihəni alqışlayırıq. Edilən dəyişikliklər dövlətimizin yeni ordu quruculuğuna dair mövqələrini özündə əks elətdirir. Ona görə ehtiyatdan müddətli həqiqi hərbi xidmətə çağırılan və bağlaşma ilə xidmət edən zabitlərin dinc dövrdə xidmət müddətinin 6 ay azaldılması, o cümlədən onlara hərbi rütbələrin verilməsi və əsasnamədə aparılan dəyişikliklər, qeyd etdiyimiz kimi, Vətən müharibəsindən sonrakı dövrdə bizim yeni ordu siyasətimizin tərkib hissəsidir.

Bizi bir mühüm problem dərindən narahat etməlidir. Bu, əslində, hərbi xidmətin, yaxud da hərbi sistemdə müqaviləli xidmətin ayrılmaz parçasıdır. Son illər Rusiya–Ukrayna müharibəsində hər iki tərəfdən döyüşlərə qatılan onlarca azərbaycanlının həlak olması və itkin düşməsi barədə mediada üzücü məlumatlar yayılır. Müharibəyə könüllü və ya yaşadığı dövlətin tələbi ilə qoşulan həmyerlilərimizlə yanaşı, Azərbaycan vətəndaşlarının muzdlu şərtlərlə əməliyyatlara cəlb olunması da inkaredilməzdir.

Sosial şəbəkələrdə kəşfiyyat mərkəzlərinə bağlı olduğu şübhə doğurmayan səhifələr, hədəfli reklamlar, müqavilə ilə xidmət, iş və ya təlim adı altında yığım kampaniyası aparırlar. Həmyerlilərimiz bəzən döyüş bölgələrindən müraciət yayaraq şirnikləndirici vədlərin yalan məngənəsindən çıxmaq üçün kömək istəyirlər. Rəsmi statistika olmadığından hərbi təşkilatların verdiyi rəqəmlərə görə, yüzlərcə soydaşımız və vətəndaşımız qarşı səngərlərdə döyüşür.

Azərbaycan dövləti xüsusi ilə Suriyada İŞİD bayrağı qaldırılarkən qanunvericiliyi sərtləşdirdi. Hörmətli Ziyafət müəllim, Siz həmin dövrdə həm də Müdafiə və təhlükəsizlik komitəsinin sədri idiniz, xatırlayırsınız. Bu, kifayət qədər də yerində olan addımlar idi. Xaricdə hərbi birləşmələrə qoşulanların fəaliyyəti terrorçuluq əməli kimi ən sərt cəza ilə, o cümlədən vətəndaşlıqdan məhrumetmə kimi qiymətləndirildi. Xatırladaq ki, o dövrdə DTX-nin yaydığı məlumatlarda Yaxın Şərqdə 900-dən artıq vətəndaşımızın döyüşdüyü göstərilirdi. Onda torpaqlarımız işğal altında idi və həmin oğullara əlahiddə ehtiyacımız var idi. İndi Vətən müharibəsində peşəkarlıq qazanan şəxsləri Ukrayna müharibəsinə cəlb edənlər, qardaşı qardaşa atəş açdıranlar təkcə onların ailələrinə deyil, həm də dövlətimizə hərbi-siyasi zərbə vururlar. Əməliyyatlarda həyatını itirən və cənazələri ölkəmizə gətirilən şəxslərin yaxınlarının, qohumlarının "nədən ötrü", "kimin uğrunda" suallarına hakimiyyət orqanlarının açıq münasibət bildirməsi vətəndaşlarımızı cinayət yolundan daşındırardı. Təkcə Müdafiə Nazirliyinin, yaxud hüquq mühafizə, prokurorluq orqanlarının deyil, həm də siyasi qiymətləndirmə tələb edən məsələ geniş ictimaiyyətin, kütləvi informasiya vasitələrinin, həmçinin tanınmış

hərbçilərimizin fəal mövqe bildirməsinə ehtiyac var ki, yüzlərcə insan bundan daşınardı.

Bir vaxtlar Suriyaya cənnət ümidi ilə gedənlərin son 4 ildə iki slavyan qardaşın müharibəsində dini müqəddəslik axtarışlarına da yer yoxdur. Ən böyük itki Qarabağda hərbi təcrübə qazanan peşəkar şəxslərin aylıq muzd müqabilində döyüşlərə qatılmasıdır. Görünür, xarici kəşfiyyat mərkəzlərinin məqsədi həm də Vətən müharibəsində iştirak edən və qalib ordu imici qazanan oğulları qəsbkarlıq müharibəsinə qoşmaqla nüfuz itkisinə məruz qoymaqdır. Nəticədə təkcə millətimizin deyil, həm də ordumuzun itkisini yaşayırıq.

Mediada ictimailəşən ölüm faktları ilə yanaşı, itkin və əsir düşən həmvətənlərimizin bir çoxu haqqında heç bir məlumat yoxdur. Yaralanaraq ölkəyə dönən, lakin müharibənin amansız təsirlərini beyinlərində daşıyan şəxslər ailələri və cəmiyyət üçün ağır mənəvi-sosial sarsıntıdır, gələcəkdə radikal qruplara qoşulma riskidir.

Dövlət təhlükəsizliyi orqanları haqlı olaraq keçmiş “vaqnerçiləri” həbs etməklə bütün vətəndaşlarımıza və həmyerlilərimizə çağırış etdi. Bizim Vətən müharibəmiz Qarabağdır, torpaqlarımızın azadlığıdır. Terror təşkilatları ilə müxtəlif dövlətlərin nizami orduları tərkibində iştirak etmək, əslində, eyni məsuliyyətli əməldir. Kampaniyanın arxasında üçüncü dövlətlərin dayandığına şübhə yoxdur. Rusiya–Ukrayna müharibəsində həyatını itirən vətəndaşlarımız şəhid deyil. Onları təşviq edənlər genefondumuza zərbə vururlar. Biz şəhid adını yalnız vətənin müdafiəsində canını verənlər üçün deyirik. Yalnız qardaş Türkiyə uğrunda dövlətimizdən qərar gözləmədən müharibəyə qoşulmaq Çanaqqala savaşındakı kimi müqəddəs işdir. Vətən müharibəsinin qəhrəmanları ilə yad döyüşdə

ölənləri bir tutmaq torpaqlarımız üçün canından keçən oğulların ruhunu incitməkdir. Azərbaycan dövləti heç bir dövlətin müharibəsində rəsmi hərbi müttəfiq kimi iştirak etmir. Ona görə də biz çox arzulayırıq və çağırış edirik ki, Ali Baş Komandanın əmr vermədiyi savaşlara nə vətəndaşlarımız, nə də soydaşlarımız qoşulmasınlar.

Sağ olun.

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun.

Rəşad Mahmudov. Buyurun.

**Rəşad Mahmudov.** Çox hörmətli xanım sədr, dəyərli millət vəkilləri, mən, əvvəla, bildirmək istəyirəm ki, müzakirə etdiyimiz qanun layihəsi ilk baxışda texniki dəyişiklik təsirini bağışlaya bilər, amma əslində, bu sənəd dövlətin insan kapitalına, eləcə də yüksək ixtisaslı kadrlara yanaşmasına mahiyyətini əks etdirir. Birmənalı olaraq ikinci oxunuşa uyğun bir şəkildə bunu dəstəkləyəcəyimi bildirmək istəyirəm.

Əslində, səhiyyə camiyəsi içərisində olan bir şəxs kimi uzun illərdən bəri müraciət edən həkimlərin, xüsusən yüksək ixtisaslı həkimlərin bu mövzu ilə bağlı vacib məsələsini dilə gətirmək istəyirəm. Bu gün Tibb fakültəsini bitirən hər həkim normal sıravi əsgər kimi hərbi xidmətə çağırılır. Hamımız da bilirik ki, bu insanların hazırlanması illər tələb edir. Bir həkimin bir il müddətinə və ya il yarım müddətinə sistemdən tam ayrılması təkcə onun şəxsi karyerasına deyil, eyni zamanda, səhiyyə sisteminin davamlılığına da ciddi təsir göstərir. Düşünürəm ki,

bu gün biz qardaş Türkiyədə, Cənubi Koreyada, İsraildə uzun illərdən bəri tətbiq olunan yeni yanaşmanı həkimlər üçün də tətbiq etsək, bu, beynəlxalq təcrübəyə daha uyğun olacaq. Dediyim ölkələrdə həkimlərin hərbi xidməti qısamüddətli, maaşlı və ixtisaslarına uyğun şəkildə təşkil olunur. Biz də bu dəyişikliklərlə klassik çağırış modelindən peşəkar və effektiv xidmət modelinə keçid edə bilərik. Bu, qanunda da öz əksini tapır. Burada məqsəd kimə isə, hansı isə sahə qrupuna güzəşt etmək deyil. Məqsəd dövlətin ehtiyaclarını daha ağıllı şəkildə qarşılamaqdır. Ordu real tibbi xidmət qazanacaq, dövlət isə yüksək ixtisaslı kadrını itirməyəcək, eyni zamanda, könüllülük və motivasiya prinsipi güclənəcək.

Aparılan statistikada göstərilir ki, Tibb fakültəsini bitirən həkimlərin çoxunun xarici ölkələrə getmə səbəblərindən biri öz peşəkar fəaliyyətini itirməməkdir. Bu həkimlərin çox az hissəsinin əsgərliyə getməsi, çoxunun xarici ölkələrdə təhsilini davam etdirməsi də statistikada verilən məlumatlar içərisindədir. Ona görə düşünürəm ki, gələcəkdə bu mövzunun aidiyyəti qurumlar qarşısında müzakirə olunmasına ehtiyac var. Hesab edirəm ki, bu dəyişikliklər həm milli təhlükəsizlik maraqlarına, həm də səhiyyə sistemimizin davamlılığı, eləcə də müasir dövlət idarəçiliyi prinsiplərinə tam cavab verəcək.

Bu layihəyə müsbət yanaşıram, bütün həmkarlarımı da qanun layihəsinə səs verməyə çağırıram.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Rəşad müəllim.

Daha müzakirəyə yazılan yoxdur. Hörmətli həmkarlar, biz səsverməyə keçirik. Bu qanun layihəsində iki maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu, “Dövlət rüsumu haqqında” və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Azər müəllim Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, ikinci oxunuşda təqdim etdiyimiz qanun layihəsi “Dövlət rüsumu haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” qanunlarda dəyişikliklər edilməsini nəzərdə tutur. Bu dəyişikliklər daşınmaz əmlaka mülkiyyət hüquqlarının dövlət qeydiyyatı zamanı rüsumlardan azad olunmanı müəyyən edir. Rüsumdan azad olunma müharibə ilə, 20 Yanvar hadisələri ilə, hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar, o cümlədən Çernobıl AES-də xidmətlə bağlı əlilliyi olanlara və şəhid ailəsi statusu almış şəxslərə şamil edilir.

Birinci oxunuşda hörmətli həmkarımız Vasif Qafarovun qanun layihəsi ilə bağlı təkliflərinə baxılmış və bu barədə müvafiq arayış təqdim olunmuşdur. Dövlətin sosial müdafiə siyasətinin elementlərini özündə birləşdirən bu qanun layihəsinin ikinci oxunuşda da dəstəklənməsini məqsədəuyğun hesab edirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, ikinci oxunuşdur, xatırladım, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxışa yazılanlar var. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Mən çox vacib bir məsələyə diqqət çəkmək istəyirəm. 2023-cü ildə Prezident tərəfindən "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalanıb. Məqsəd illərlə sənədsiz qalan qeyri-yaşayış obyektlərini rəsmiləşdirmək, sahibkarların əl-qolunu açmaq, iqtisadiyyata nəfəs vermək olub. Rəqəmlərə baxanda görürük ki, bu fərmanla bağlı 18 mindən çox müraciət edilib. Amma bu müraciətlərin nəticəsi nə olub? Təxminən cəmi 4-5 min obyekt sənədləşdirilib. Bu o deməkdir ki, hər 5 sahibkardan 4-ü hələ də nəticə ala bilməyib. Bu, artıq statistika deyil, narazılıqdır.

Demək, sahibkarlar sənəd veriblər, amma aylarca cavab ala bilməyiblər. Bir idarə digər quruma göndərib, o biri idarə isə yenidən müraciət edilməsini istəyib. Biri razılıq verib, digəri isə imza atmayıb. Bu, sahibkarlıq üçün ciddi bürokratik labirint yaradıb. Bu gün sənədi olmayan obyekt nə deməkdir? Sahibkar bankdan kredit ala bilmir, obyektini sata bilmir, girov qoya bilmir, işini böyütmək istəsə də, riskə girə bilmir. Nəticədə iş yerləri açılmır, pul dövriyyəyə girmir, dövlət də, vətəndaş da uduzur.

Bir məsələ də var. Bu prosedur üçün son tarix qoyulub – 2026-cı il. Məni də narahat edən məsələ budur. Buna görə çıxış etdim. Artıq yanvar ayının 1-dək kim portalda qeydiyyata düşə bilibsə, onların sənədləri qəbul olunacaq və fərmanın 3 illik qüvvədə olduğu vaxt bitəcək. Amma bu temp ilə gedilərsə, minlərcə sahibkar qoyulan vaxta çata bilmir. Sonra nə olacaq? Yenə problem, yenə narazılıq. Fərmanın niyyəti doğru idi, amma icrası zəif həyata keçirilib. Problem qanunda deyil, mexanizmdədir. Ona görə də burada açıq bir məsələni demək istəyirəm. Prosedurlar gərək sadələşdirilsin. Cavab müddətləri konkret olmalı idi, sahibkar aylarca havada saxlanmamalı idi.

Vaxt 2026-cı ildə bitdiyinə görə, mən istərdim, məlumatınız olsun ki, ölkə boyu aidiyyəti qurumların qarşısında hazırda onilliklər boyu bizim xarici pasportun alınması zamanı gördüyümüz həmin növbələr var və orada da növbələr satılır. Çünki hər kəs orada növbədə durub ki, portalda qeydiyyatdan keçirə bilsinlər. Ona görə də mən portalda qeydiyyatdan keçmə zamanının uzadılmasını çox xahiş edirəm. Xanım sədr, xahiş edərdim ki, Siz də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinə bir göstəriş verəsiniz, bu məsələ aidiyyəti qurumlarla araşdırılsın və bu problemin miqyası nəzərə alınaraq bununla bağlı hər hansı addımlar atılsın. Əgər bu məsələ həll olunmasa, sabah bu, daha böyük sosial narazılığa çevriləcək. Həm də indi müəyyən araşdırma apardım və gördüm ki, cənab Prezidentin fərmanında nəzərdə tutulan dövlət orqanlarının heç biri üzərinə düşən vəzifəni də, demək olar, tam məsuliyyətlə yerinə yetirməyib. Özünüz də bilirsiniz, iş yerinin açılması cəmiyyətimiz üçün nə qədər vacibdir. Sahibkar sıxıntı çəkirsə, ölkə də inkişaf etmir, sahibkar qazanmırsa, dövlət də qazanmır. Bu baxımdan

mən istərdim ki, bu məsələyə baxılsın və həmin portalda qeydiyyatdan keçmə vaxtı uzadılsın.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Azər müəllim, bu məsələyə bir az diqqətlə qulaq asa bilmədim, sonra Sizinlə danışarıq, baxarsınız, nə məsələdir.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yox, indi Siyavuş müəllim çıxış etsin, sonra.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Mənim kiçik bir düzəlişim var. Deməli, burada güzəştlərlə kateqoriyalar göstərilib. Məsələn, Çernobıl əlilləri ilə bağlı düzəliş var, amma Əfqanıstan müharibəsi veteranları ilə bağlı göstərilməyibdir. Azərbaycandan Əfqanıstanda 7 min nəfər iştirak edibdir. Onların bir hissəsi geri dönməyibdir, bir hissəsi isə xəstə vəziyyətindədir. Əgər Sovetlər Birliyini götürürüksə, Çernobıl da, Əfqanıstan da Sovetlər Birliyi dönəmində baş verən hadisələrdir. Ona görə də hər halda buna diqqət yetirilməsi... Digər qanunlarda da mən rast gəlirəm ki, bu cür yanaşma mövcuddur. Bütün kateqoriyalar yazılır, Əfqanıstan müharibəsi veteranları isə yazılmır.

Xatırlatmaq istəyirəm ki, ilk dəfə məhz Ümummilli Lider Əfqanıstan veteranlarına müraciət etdi. Beyləqanda erməni qoşunlarının qarşısını məhz Əfqanıstan müharibəsinin iştirakçıları aldılar və onlara irəliləməyə imkan vermədilər. O baxımdan da gələcəkdə bu məsələnin də nəzərdə tutulması məqsədəuyğun olardı.

Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Azər müəllim, nə isə demək istəyirdiniz? Buyurun.

**Azər Əmiraslanov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli Razi müəllimin qaldırdığı məsələ bu gün müzakirə etdiyimiz qanun layihəsinin predmeti deyil. Burada konkret olaraq sosial baxımdan həssas əhali qrupunun dövlət rüsumundan azad olunması nəzərdə tutulur. Onun qaldırdığı məsələlər isə müvafiq icra hakimiyyəti orqanlarının məsuliyyətində olan məsələlərdir. Əgər Siz də bununla bağlı tapşırıq verirsinizsə, biz aidiyyəti orqanlarla bu barədə müəyyən bir fikir mübadiləsi edə bilərik. Amma hər bir halda müzakirə etdiyimiz məsələ tamamilə başqa mövzudadır.

Hörmətli Siyavuş müəllimin qaldırdığı məsələ ilə bağlı qeyd etmək istərdim ki, burada rüsumdan azad olma kateqoriyası onun qeyd etdiyi Əfqanıstan müharibəsi iştirakçılarını da əhatə edir. Əgər diqqət yetirilsə, burada göstərilib: müharibə ilə, hərbi xidmət vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar. Yəni Əfqanıstanda iştirak edən müharibə iştirakçıları heç bir halda burada istisna deyil. Nəzərə alınmasını xahiş edirəm.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Razi müəllimin dediyi məsələ ilə bağlı mən sonra Sizinlə danışacağam. Razi müəllimlə də danışacağam.

Siyavuş müəllim, deməli, Əfqanıstanla bağlı dediniz. Həmin kateqoriyaya aid adamlar qanun layihəsində verilib. Sadəcə, Əfqanıstan müharibəsi deyil, orada müharibə deyilir.

Çox sağ olun. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən indi maddələr üzrə səsverməyə keçəcəyəm. Layihədə iki maddə var. 1-ci maddəyə səs verək. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.
İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.
Mən indi qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələmiz Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Komitənin sədri, Azər müəllim, yenə də Sizdən xahiş edirəm. Buyurun, məlumat verin.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, ikinci oxunuş üçün təqdim edilən bu qanun layihəsi vergi rezidentliyinin müəyyən edilməsi ilə bağlıdır. Birinci oxunuş zamanı geniş məlumat verilmişdi. Hörmətli həmkarlarımız tərəfindən komitəyə hər hansı təklif, qeyd daxil olmamışdır. Bunu nəzərə alaraq ikinci oxunuş üçün bu layihənin olduğu kimi səsə qoyulması xahiş olunur.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Çıxış etmək istəyən yoxdur. Səsverməyə keçirik. Qanun layihəsi iki maddədən ibarətdir. 1-ci maddəyə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verмədi | 3 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

Növbəti maddəni, yəni 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Vergi Məcəlləsində, “Sosial sığorta haqqında” və “Dövlət qul-

luğu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. İkinci oxunuşdur. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli**. Çox sağ olun, hörmətli xanım sədr. Bu layihə barədə birinci oxunuşda geniş məlumat vermişəm. Layihənin məqsədi dövlət qulluğunun hüquqi və sosial təminatına dair bir sıra yeni tənzimləmə məsələləridir. Hər hansı suallar, təkliflər olmamışdır. İkinci oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, bu qanun layihəsinə iki komitədə də baxılmışdır. İkinci komitə, Azər müəllim, sizin komitənizdir. Buyurun, məlumat verin.

**Azər Əmiraslanov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, təqdim olunan qanun layihəsi ikinci oxunuşda da komitə tərəfindən dəstəklənir. Nəzərə alınmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Üçüncü komitə Əmək və sosial siyasət komitəsidir. Komitənin rəyini bildirmək üçün komitənin üzvü Soltan Məmmədova söz verirəm. Soltan müəllim, buyurun.

**Soltan Məmmədov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Hörmətli xanım sədr, qanun layihəsi Əmək və sosial siyasət komitəsinin 18 dekabr tarixli iclasında müzakirə olunmuş və yekdilliklə plenar iclasda ikinci oxunuşa tövsiyə olunmuşdur. Odur ki, həmkarlarımdan qanun layihəsini ikinci oxunuşda dəstəkləmələrini xahiş edirəm.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Yazılanlar yoxdur. Ona görə də səsverməyə keçirik. Maddələr üzrə səs verəcəyik. Qanun layihəsi 3 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

2-ci maddə də qəbul edildi.
İndi isə 3-cü maddəni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.
İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi. Çox sağ olun.

Hörmətli həmkarlar, biz sonuncu məsələyə keçirik. Əmək Məcəlləsində və digər 3 məcəllədə, "Həmkarlar ittifaqları haqqında" Qanunda və daha 13 qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır, bilirsiniz. Məsələyə dair məlumat vermək üçün, Soltan müəllim, yenə də Sizə söz verirəm. Buyurun.

**Soltan Məmmədov.** Hörmətli xanım sədr, dəyərli millət vəkilləri, media nümayəndələri. Əmək Məcəlləsində və digər 17 məcəllədə və qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi Milli Məclisin 16 dekabr tarixli plenar iclasında birinci oxunuşda müzakirə olunaraq yekdilliklə qəbul edilmişdir. Müzakirələr zamanı deputat həmkarlarımdan Qüdrət müəllim Həsənquliyev, Elçin müəllim Mirzəbəyli, Nigar xanım Məmmədova və Fatma xanım Yıldırım layihə ilə bağlı müsbət fikirlərini söyləmiş və qanun layihəsini dəstəkləmişlər.

Bununla yanaşı, hörmətli Qüdrət müəllim Həsənquliyev və Elçin müəllim Mirzəbəyli işçilərin əmək hüquqları ilə bağlı bəzi problemləri də səsləndirmişlər. Bu fikirlərin qanun layihəsinin predmetinə deyil, sözügedən sahədə həllini gözləyən ümumi problemlərə aid olduğunu nəzərə çatdıraraq müzakirələrdə iştirak etmiş və fikir bildirmiş bütün həmkarlarıma təşəkkürümü bildirirəm.

Layihə ilə bağlı birinci oxunuş zamanı tərəfimdən geniş məlumat verilmişdir. Xatırlatmaq istərdim ki, bu hüquqi sənəd yerli əmək normalarının spesifikası nəzərə alınmaqla beynəlxalq əmək normalarının milli qanunvericiliyə implementasiyası, bu sahədə elektron sistemlərin tətbiqi ilə əlaqədar yeni qaydaların müəyyən edilməsi, eləcə də ötən dövr ərzində əmək qanunvericiliyində aşkar edilmiş boşluqların aradan qaldırılması və nəticədə müvafiq hüquqi normaların təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır.

Hörmətli xanım sədr, dəyərli millət vəkilləri, ilk oxunuşdan sonra, habelə Əmək və sosial siyasət komitəsinin 18 dekabr tarixli iclasında sözügedən layihənin ikinci oxunuşda müzakirəsi zamanı komitəyə hər hansı rəy və təklif daxil olmamışdır. Odur ki, həmkarlarımdan qanun

layihəsini ikinci oxunuşda dəstəkləmələrini xahiş edirəm.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, bilirsiniz ki, bu qanun layihəsinə daha 6 komitədə baxılıb. Mən indi bir-bir komitələrin sədrlərinə söz verəcəyəm. Birinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Əli müəllim, xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli sədr, bizim komitə Cinayət Məcəlləsinə və Cəzaların İcrası Məcəlləsinə uyğunlaşdırma xarakterli düzəlişlərə müsbət rəy vermişdir. Nəzərə almağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi. Azər müəllim, buyurun, komitənin rəyini bildirin.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, qanun layihəsi ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyi müsbətdir. İkinci oxunuşda da layihənin qəbul edilməsini məqsədəuyğun hesab edirik.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Siyavuş müəllim, Sizdən xahiş edəcəyəm, komitənizin rəyini bildirin. Regional məsələlər komitəsi. Buyurun.

**Siyavuş Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Hörmətli xanım sədr, komitənin rəyi müsbətdir. Qəbul olunmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun.

Ailə, qadın və uşaq məsələləri komitəsinin rəyini bildirmək üçün komitə sədrinin müavini hörmətli Jalə Əliyevaya söz verirəm. Buyurun.

**Jalə Əliyeva,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Təqdim olunan qanun layihəsi ilə bağlı Ailə, qadın və uşaq məsələləri komitəsinə ikinci oxunuşda əlavə rəy və təklif daxil olmayıb. Cari il dekabrın 17-də komitə iclasında ikinci oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə edilib. Məlumatı nəzərə almağınızı və qanun layihəsini səsə qoymağınızı xahiş edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Səhiyyə komitəsinin rəyini hörmətli Rəşad Mahmudov səsləndirəcək. Buyurun, Rəşad müəllim.

**Rəşad Mahmudov,** *Milli Məclisin Səhiyyə komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, xanım sədr. Səhiyyə komitəsinin profilinə aid olan qanun layihələri ilə əlaqədar hər hansı bir irad və təklif bildirilməmişdir. Layihəyə müsbət rəy verilir. Bütün həmkarlarımızı da qanun layihəsini dəstəkləməyə çağırıram.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Şahin İsmayılov, Siz də öz komitənizin – Gənclər və idman komitəsinin rəyini bildirin. Buyurun.

**Şahin İsmayılov,** *Milli Məclisin Gənclər və idman komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun.

Komitələrin rəyini öyrəndik, hörmətli həmkarlar. İndi isə qanun layihəsinə əsas kimi səs verməliyik. Buyurun, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

İndi müzakirəyə keçirik. Pərvanə Vəliyeva. Buyurun.

**Pərvanə Vəliyeva.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Əmək Məcəlləsinə təklif edilən mütərəqqi dəyişikliklərdən biri də iş yerlərində əməyin mühafizəsinin daha sistemli, nəzarət edilən və məsuliyyətə əsaslanan mexanizmə çevrilməsini hədəfləyir.

Xüsusi ilə 219-cu maddədə zərərli, ağır və yüksək təhlükə mənbəyi olan istehsalat sahələrində çalışan işçilər üçün tələblər əhəmiyyətli yeniliklərdən biridir. Bu kateqoriyaya aid işçilər ən azı üç ayda bir dəfə, digər sahələrdə çalışanlar isə ildə azı bir dəfə əməyin mühafizəsi üzrə təlimatlandırılmalıdır. Təlimlərin məzmunu, müddəti, təlimçilər barədə də minimum tələblər müəyyənləşsə, məqsədəuyğun olardı.

220-ci maddəyə təklif olunan dəyişiklik üzrə istehsalat sahələri olan müəssisələrdə əməyin mühafizəsi tədbirlərinə ayrılan vəsait işçilərin əməkhaqqı fondunun azı 2 faizini, digər müəssisələr üçün isə azı 1 faizini təşkil etməlidir. Bu norma əməyin mühafizəsinin xərc deyil, investisiya kimi qəbul edilməsini təşviq edir. Əməyin mühafizəsinə qoyulan xərclərdən gələn mənfəətin hesablanması qaydaları müəyyən olunsa, mənzərəni tam ortaya qoyar.

İstənilən qəza həm işəgötürənə, həm də dövlətə böyük xərc gətirir. Hər il iş yerində insanlara dəyən zərər nəticəsində dövlət büdcəsindən sosial təzminatlara, sığorta şirkətlərinə, əlilliklə bağlı təminatlara ciddi miqdarda vəsait sərf olunur. Ancaq biz işəgötürənlərin təhlükəsiz iş şəraiti yaratmasını doğru mexanizmlərlə stimullaşdıra bilsək, milyonlarca manat vəsaitə qənaət etmiş olarıq. Bu, büdcənin əlavə yüklənməməsinə böyük töhfə verər. Məsələn, yüksək riskli istehsalat müəssisələrindən daha çox, riskləri olmayan və iş qəzaları minimum olan müəssisələrdən isə daha az sığorta vəsaiti toplana bilər. Bu, avtomobillərin sığortası mexanizmində də tətbiq olunur və bu mexanizmin məqsədi təhlükəsizliyi stimullaşdırmaq xarakteri daşıyır.

222-ci maddəyə təklif olunan dəyişikliklə indi işçilərinin sayı 50-dən az olan müəssisələrdə bu funksiyanın müvafiq biliyi olan işçilərdən birinə həvalə edilməsi və ya ayrıca mütəxəssis ştatının yaradılması təklif olunur. Bu yanaşma SƏTƏM – sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit prinsiplərinin bütün müəssisələrdə icbari tətbiqini nəzərdə tutan ISO45001 standartına uyğundur.

Qanun həm də fiziki şəxs olan işəgötürənlərə şamil olunur. Lakin onu da nəzərə almalıyıq ki, bu gün əksər mikrosahibkarlıq subyektlərinin azı 3 işçisi var. Yəni 3-4 işçisi olan iş yerində əməyin təhlükəsizliyi xidmətlərinin təşkilinin də effekti olmayacaq, xüsusi ilə əgər bu, istehsalat deyil, xidmət sahəsidirsə. Məsələn, Britaniya modelində aşağı hədd 5 nəfərdən çox qəbul olunur. Təklif edirəm ki, bu maddədə aşağı hədd də müəyyənləşdirilsin.

Digər təklifim qanundakı terminologiya ilə bağlıdır. "Əməyin mühafizəsi" funksiyası bu sahə üzrə qoşulduğumuz Beynəlxalq Əmək Təşkilatının 155-ci və 187-ci

konvensiyalarında “Occupational safety and health” – peşə təhlükəsizliyi və sağlamlıq, ISO45001 standartında “Occupational health and safety”, yəni peşə sağlamlığı və təhlükəsizliyi kimi ifadə olunur. 155-ci konvensiyanın tətbiqi ilə bağlı 2023-cü ildə qəbul edilən Azərbaycan Respublikası Qanununu da “Əməyin təhlükəsizliyi və gigiyenası” kimi qəbul etmişik. Burada təhlükəsizlik termini daim ön plandadır və daha geniş anlayışdır. Bu sahə üzrə universitetlərimizdə tədris olunan ən yeni dərsliklərdə də bu fəaliyyət “sağlamlıq və əməyin təhlükəsizliyi” kimi ifadə olunur. Yəni biz beynəlxalq standartları qəbul edirik, tətbiq edirik, ancaq qanunvericiliyimizdə fərqli terminologiya istifadə olunur.

Ölkə üzrə terminoloji vahidliyi təmin etmək, həmçinin beynəlxalq standartlara uyğunlaşmaq məqsədi ilə qanunda “əməyin mühafizəsi” terminini “əməyin təhlükəsizliyi” termini ilə əvəz etmək məqsədəuyğun olardı.

Ümumilikdə, dəyişikliklər iş yerlərində təhlükəsizliyin gücləndirilməsinə, istehsalat risklərinin azalmasına və insan həyatının ali dəyər kimi qorunmasına xidmət edir. İnanıram ki, qanun iş yerlərində təhlükəsizlik mədəniyyətinin inkişafına böyük töhfə verəcəkdir.

Layihəni dəstəkləyirəm, səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, səsverməyə keçirik. Bu qanun layihəsində 18 maddə var. Mən onları üç-üç səsə qoyacağam. Buyurun, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi isə növbəti – 4-cü, 5-ci və 6-cı maddələri səsə qoyuruq. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə 7-ci, 8-ci, 9-cu maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 10-cu, 11-ci və 12-ci maddələr səsə qoyulur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

13-cü, 14-cü, 15-ci maddələr. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 16-cı, 17-ci, 18-ci maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə, xahiş edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Bizim növbəti iclasımız ayın 26-da olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***<u>23 dekabr 2025-ci il</u>***

**Bədəl Bədəlov.** Müstəqil dövlətin inkişaf trayektoriyasının uğurlu olması ilk növbədə milli maraqlara söykənən, dərin düşünülmüş və real çağırışlara cavab verən siyasətin mövcudluğu ilə şərtlənir. Bu siyasətin praktik müstəvidə reallaşdırılması isə qətiyyətli siyasi iradə və güclü lider faktoru olmadan mümkün deyil. Müasir dövrdə əldə olunan çoxşaxəli nailiyyətlər aydın şəkildə göstərir ki, ölkəmizin inkişafı uzunmüddətli strateji baxışın, ardıcıl qərarların və xalqın mənafeyini üstün tutan idarəetmə fəlsəfəsinin məntiqi nəticəsidir. Dövlətimizin qarşıya qoyduğu hədəflər əvvəlcədən dəqiq müəyyənləşdirilir, bu işlərin icrası üçün mərhələli
yət planları hazırlanır və icra prosesi sistemli ş
həyata keçirilir.

Belə ki, milli maraqların qorunması və xalqın sosial rifahının təmin olunması dövlət siyasətinin prioritet istiqamətləri sırasında dayanır. Bu kontekstdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan sabit inkişaf yolunda inamla irəliləyir. 2003-cü ildən etibarən formalaşan yeni siyasi mərhələ Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş dövlətçilik kursunun davamlılığını nümayiş etdirir. Ötən dövrdə siyasi varislik yalnız ideoloji və konseptual səviyyədə deyil, konkret addımlarla, real islahatlarla və uğurlu nəticələrlə təsdiqlənib. Xalqa verilmiş vədlərin ardıcıl şəkildə yerinə yetirilməsi, sosial ədalətin qorunması, hüquqi dövlət quruculuğunun möhkəmləndirilməsi və idarəetmədə səmərəli-

liyin artırılması həmin kursun əsas mahiyyətini təşkil edir.

Bu siyasi xəttin davam etdirilməsi ölkədə sabit və proqnozlaşdırılan idarəetmə mühitinin formalaşmasına səbəb olub. Eyni zamanda, cəmiyyətin dövlətə olan inamı əhəmiyyətli dərəcədə artıb, ictimai münasibətlərdə sağlam dialoq mühiti formalaşıb. Milli həmrəyliyin güclənməsi, gələcəyə inamın möhkəmlənməsi və vətəndaşların dövlət quruculuğu prosesində fəal iştirak etməsi bu ardıcıl siyasətin təzahürü kimi yüksək dəyərləndirilir. Beləliklə, siyasi varislik ölkənin inkişafında mühüm sabitləşdirici və istiqamətləndirici amilə çevrilib.

Dövlətimizin başçısının rəhbərliyi ilə formalaşmış müasir idarəetmə modeli rasional siyasi davranışa, dərin analitik təhlilə və milli məqsədlərə xidmət edən praqmatik yanaşmaya əsaslanır. Qərarların qəbulunda obyektiv reallıqların nəzərə alınması, qlobal və regional risklərin əvvəlcədən qiymətləndirilməsi, mövcud imkanların səmərəli istifadəsi bu modelin əsas xüsusiyyətləri sırasındadır. Dövlət idarəçiliyində planlılıq və məsuliyyət prinsiplərinin önə çəkilməsi idarəetmənin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldib. Bununla yanaşı, siyasi mədəniyyətin inkişaf etdirilməsi, milli mənəviyyata uyğun siyasi əxlaq standartlarının tətbiqi və etik davranış prinsiplərinin möhkəmləndirilməsi cəmiyyətin ümumi siyasi mühitinə müsbət təsir göstərib. Bu yanaşma dövlət–vətəndaş münasibətlərində qarşılıqlı etimadın artmasına, ictimai sabitliyin möhkəmlənməsinə və uzunmüddətli inkişaf üçün sağlam sosial mühitin formalaşmasına imkan yaradıb.

2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirilib. Həmin boru xətti dövlətin

enerji strategiyasında mühüm dönüş nöqtəsi olmaqla yanaşı, beynəlxalq münasibətlər sistemində yeni geosiyasi reallıqlar formalaşdırıb. Bu layihə regionun enerji xəritəsini əsaslı şəkildə dəyişdirərək ölkəni qlobal enerji təhlükəsizliyinin mühüm aktorlarından birinə çevirib. Eyni zamanda, beynəlxalq tərəfdaşlıq münasibətlərinin genişlənməsinə və qarşılıqlı etimada əsaslanan əməkdaşlıq mühitinin formalaşmasına güclü təkan verib. Enerji diplomatiyasının ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsi iqtisadi sabitliyin möhkəmlənməsinə, maliyyə resurslarının genişlənməsinə və xarici siyasət mövqelərinin güclənməsinə xidmət edib. Həmin strategiya dövlətin geosiyasi çəkisini artıraraq qlobal arenada etibarlı tərəfdaş imicinin formalaşmasına mühüm töhfə verib.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası ölkə üzrə tarazlı və inklüziv inkişafın təmin olunmasında əsas mexanizmlərdən birinə çevrilib. Bu proqramlar çərçivəsində nəqliyyat, enerji, kommunal və sosial infrastruktur yenilənib, regionların iqtisadi potensialının reallaşdırılması üçün geniş imkanlar yaradılıb. Kənd təsərrüfatının müxtəlif sahələri üzrə konkret inkişaf layihələrinin icrası bölgələrdə iqtisadi fəallığı əhəmiyyətli dərəcədə artırıb. Regionlarda yeni iş yerlərinin yaradılması, əhalinin gəlir səviyyəsinin yüksəlməsi və sosial məsələlərin mərhələli şəkildə həlli nəticəsində sosial rifah güclənib. Qeyri-neft sektorunun inkişafı naminə formalaşan əlverişli mühit iqtisadiyyatın şaxələndirilməsini sürətləndirərək dayanıqlı inkişaf üçün möhkəm zəmin yaradıb.

Dövlətimizin başçısının rəhbərliyi ilə aparılan məqsədyönlü və ardıcıl siyasətin nəticəsi olaraq qalib dövlət

modeli formalaşıb. Bu model artan beynəlxalq nüfuz, güclü iqtisadi potensial, təhsilli və fəal cəmiyyət, eləcə də yüksələn sosial rifah kimi əsas göstəricilərlə xarakterizə olunur. Əldə olunan nailiyyətlər uzunmüddətli perspektivdə yeni sosial-iqtisadi inkişaf mərhələsinin əsaslarını formalaşdıran mühüm amillərdir.

"Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" postpandemiya və postkonflikt dövründə dövlətin strateji baxışını əks etdirən fundamental yol xəritəsidir. Bu sənəd innovasiyaya əsaslanan iqtisadiyyatın qurulmasını, maliyyə dayanıqlığının möhkəmləndirilməsini, insan kapitalının inkişafını və yüksək rifah cəmiyyətinin formalaşdırılmasını əsas hədəf kimi müəyyənləşdirir və gələcək inkişafın ideoloji-siyasi əsasını təşkil edir.

2020-ci ilin payızında baş vermiş 44 günlük Vətən müharibəsi müasir dövlətçilik tarixində fundamental dönüş nöqtəsi kimi dəyərləndirilir. Bu müharibə təkcə hərbi Zəfər deyil, eyni zamanda, milli iradənin, dövlətin qətiyyətinin və xalq–ordu birliyinin real təzahürü olub. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hərbi-siyasi strategiya nəticəsində uzun illər davam edən işğala son qoyulub, tarixi ədalət bərpa edilib. Belə ki, Azərbaycan Ordusunun sentyabrın 27-də başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Şanlı qələbə dövlətin gücünü, milli birlik və həmrəyliyi bütün dünyaya nümayiş etdirib. Noyabrın 10-da imzalanmış Üçtərəfli Bəyanata əsasən noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verilib. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri azad olunub. Bəyanata əsasən noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də isə Laçın

rayonu Azərbaycana təhvil verilib. 2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürülüb. Beləliklə, Üçtərəfli Bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşıb. Dövlətimizin başçısı qeyd edib: “Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun, biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik”.

Vətən müharibəsi ilə yaradılan yeni reallıqlar Azərbaycan Ordusu tərəfindən 2023-cü il sentyabrın 19-da və 20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə tamamlanıb. Bu əməliyyat dövlətin suveren hüquqlarının tam bərpasına, Konstitusiya quruluşunun bütün ərazilərdə bərqərar olmasına xidmət edib. Qısa müddətdə və yüksək peşəkarlıqla icra olunan bu tədbirlər bir daha sübut edib ki, dövlətimiz təhlükəsizlik məsələlərində hər zaman qətiyyətlidir. Həmin addımlar dövlətin beynəlxalq mövqelərini daha da gücləndirib, regionda yeni təhlükəsizlik balansının formalaşmasına səbəb olub. Azərbaycan artıq postmünaqişə dövrünü uğurla idarə edən, sabitlik və inkişaf modeli təklif edən regional aktor kimi çıxış edir.

Postmüharibə dövründə əsas diqqət reinteqrasiya prosesinə yönəlib, dövlət tərəfindən həyata keçirilən tədbirlər azad edilmiş ərazilərimizə qayıdan keçmiş məcburi köçkünlərin təhlükəsizliyinin təmin olunmasına, ictimai

həyatın normallaşdırılmasına xidmət edir. Bu mərhələdə hüquqi mexanizmlər, sosial proqramlar və iqtisadi təşəbbüslər paralel şəkildə həyata keçirilir. Belə ki, Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri tarixi qələbələrin strateji nəticələrinin konkret ifadəsidir. Yeni yaşayış məntəqələrinin salınması, infrastrukturun qurulması və Böyük Qayıdış proqramının icrası həmin ərazilərin ölkənin ümumi sosial-iqtisadi sisteminə inteqrasiyasını sürətləndirir.

Beləliklə, formalaşmış yeni reallıqlar şəraitində həyata keçirilən gələcəyə hesablanmış dövlət siyasəti milli maraqlara söykənən, uzunmüddətli strateji baxışa əsaslanan və cəmiyyətin bütün təbəqələrinin rifahını hədəfləyən konseptual yanaşma kimi çıxış edir. İşğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri, Böyük Qayıdış prosesinin ardıcıl şəkildə davam etdirilməsi, təhlükəsizliyin möhkəmləndirilməsi və müasir ordu quruculuğu dövlətin gücünü və dayanıqlılığını təmin edən əsas meyarlardır. Eyni zamanda, elmə və yüksək texnologiyalara əsaslanan iqtisadi modelin formalaşdırılması, sosial rifahın yüksəldilməsi, idarəetmədə səmərəliliyin artırılması, müstəqil və balanslı xarici siyasət xətti, şəffaflıq, ictimai iştirakçılıq və siyasi dialoqun dərinləşdirilməsi cəmiyyət–dövlət münasibətlərinin daha sağlam əsaslar üzərində qurulmasına xidmət edir. Zəngin mədəni irsin və milli-mənəvi dəyərlərin qorunması ilə tamamlanan bu siyasət Azərbaycanın güclü, sabit və perspektivli inkişaf yolunda inamla irəlilədiyini təsdiqləyir və gələcək nəsillər üçün möhkəm dövlətçilik fundamenti yaradır.

Fürsətdən istifadə edərək Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı cənab İlham

Əliyevi doğum günü münasibəti ilə həm öz adımdan, həm də 96 saylı Goranboy-Naftalan seçki dairəsinin seçiciləri adından səmimi qəlbdən təbrik edir, qalib liderimizə möhkəm can sağlığı və Azərbaycan dövlətinin milli maraqlarına xidmət edən məqsədyönlü fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayırıq.

**Fatma Yıldırım.** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan etməsi olduqca strateji, dərin məzmun daşıyan və gələcəyə hesablanmış mühüm bir qərardır. Bu təşəbbüs təkcə şəhər infrastrukturunun müasirləşdirilməsi ilə məhdudlaşmır, eyni zamanda, tariximizə, mədəniyyətimizə və milli kimliyimizə olan bağlılığın təzahürü kimi dəyərləndirilməlidir.

Bildiyimiz kimi, Azərbaycan dövləti ötən illər ərzində şəhərsalma sahəsində böyük təcrübə qazanmış və bu istiqamətdə bir sıra mühüm layihələrə imza atmışdır. Xüsusi ilə işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və yenidənqurma işləri, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi, ekoloji, iqtisadi və sosial baxımdan balanslaşdırılmış urbanizasiya nümunələri artıq dünyanın diqqət mərkəzindədir.

Ən önəmlisi isə bu prosesdə keçmişə sayğı ilə yanaşılır. İşğal dövründə məhv edilmiş tarixi-memarlıq irsimizin bərpası, dini-mədəni abidələrin əvvəlki görkəminə qaytarılması dövlətimizin mədəni kimliyimizin qorunmasına verdiyi böyük önəmin göstəricisidir. Bu yanaşma Ulu Öndər Heydər Əliyevin "Tarixini bilməyən xalq gələcəyini qura bilməz" fəlsəfəsinin real təcəssümüdür.

Eyni zamanda, Bakının 2026-cı ildə ev sahibliyi edəcəyi Dünya Şəhərsalma Forumu ölkəmizin bu sahədə

qazandığı beynəlxalq nüfuzun və etimadın göstəricisidir. Bu forum Azərbaycan üçün yalnız beynəlxalq əməkdaşlığın genişlənməsi deyil, həm də milli təcrübəmizin dünya ilə paylaşılması, yerli mütəxəssislərimizin qlobal proseslərə daha aktiv inteqrasiyası baxımından da mühüm platformadır.

Mən bu mühüm ilin ölkəmiz üçün yeni imkanlar açacağına, həm şəhərlərimizin, həm də yaşayış məkanlarımızın daha funksional, estetik və dayanıqlı olmasına töhfə verəcəyinə inanıram.

**Günay Əfəndiyeva.** Azərbaycan və Türkiyə hökumətlərinin təhsil sahəsində əməkdaşlığına dair Sazişə Əlavə Protokol haqqında qanun layihəsi iki ölkənin qardaşlığının, yüksək səviyyəli strateji tərəfdaşlığının məntiqi davamı olmaqla yanaşı, həm də ümumtürk inteqrasiyasına növbəti bir dəyərli töhfəsidir. Ötən əsrin sonunda Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə etdiyi "Bir millət, iki dövlət" müdrik çağırışı dərin bir fəlsəfəyə çevrildi və sonra XXI əsrdə cənab Prezidentin "Türk dünyası bizim ailəmizdir" ifadəsində daha da geniş vüsət aldı və inkişaf yolumuzun əsas istiqamətlərindən birini göstərdi.

Bu baxımdan Azərbaycan və Türkiyənin, eləcə də ölkəmizin, bütövlükdə, türk dünyası ilə birgə təhsil təşəbbüsləri, ümumilikdə, regionun yüksəlişində önəmli rol oynayır.

Azərbaycanın türk dünyası ilə qardaşlıq və təhsil sahəsində əməkdaşlıq əlaqələri bu gün Bakıda Türkiyə–Azərbaycan Universitetinin, Füzuli şəhərində Özbəkistanın Mirzə Uluqbəy adına məktəbinin, Qazaxıstanın Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin, Ağdamın Xıdırlı kəndində Qırğızıstanın "Ayköl Manas" məktəbinin, eləcə də Cəbrayıl rayonunda Macarıstanın

dəstəyi ilə inşa edilən məktəbin fəaliyyəti ilə öz təsdiqini tapır. Bu təhsil ocaqları xalqlarımız arasında mənəvi və intellektual körpülərin qurulduğu, ortaq tarix, dil, mədəni dəyərlərə əsaslanan birgə baxış və həmrəylik mühitinin formalaşdırıldığı strateji platformalardır. Düşünürəm, çox vacibdir ki, həmin təhsil müəssisələrində müasir dillərimiz ilə yanaşı, qədim əlifbamız da öyrənilsin. Bu, tarixi bağlarımızı daha da möhkəmləndirərək bizi bir-birimizə daha da yaxınlaşdıracaq.

Növbəti ilə sayılı günlər qalır və məlumunuzdur ki, Azərbaycan Prezidentinin Sərəncamına əsasən 2026-cı ildə Birinci Türkoloji Qurultayın 100 illiyi ölkəmizdə geniş qeyd olunacaq. Bir əsr öncə bu qurultayda iştirak edən görkəmli ziyalılar, alimlər türk dünyasının bugünkü mənzərəsini – elm, təhsil, mədəniyyətdə sıx əməkdaşlıq edən, bir-birinə dayaq olan, ortaq gələcəyə inamla irəliləyən birliyi arzulayırdılar. Bu gün həmin arzular Azərbaycanın dövlət siyasətinin əsas prioritetləri sırasında konkret addımlarla və uğurlu nəticələrlə öz parlaq təcəssümünü tapır. Müasir dövrdə cənab Prezident bu tarixi missiyanı böyük siyasi-diplomatik məharətlə həyata keçirdi və ölkəmiz bu gün türk dünyasının mühüm aparıcı sütunlarından biri kimi çıxış edir.

Fürsətdən istifadə edərək Azərbaycanın qalib liderini, möhtərəm cənab Prezident İlham Əliyevi sabahkı doğum günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona möhkəm can sağlığı, tükənməz enerji, ölkəmizin tərəqqisi, qlobal aləmdə yüksəlişi və türk dünyasının birliyi naminə şərəfli fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.

**Xanlar Fətiyev.** Mən də burada səslənən fikirlərə qoşularaq öz adımdan və bütün seçicilərimin adından möhtərəm Prezidentimiz cənab İlham Əliyevi ad günü

münasibəti ilə təbrik edir, möhkəm can sağlığı arzulayırıq.

Qeyd etmək istərdim ki, başa çatmaq üzrə olan 2025-ci il xalqımızın tarixinə mühüm siyasi və iqtisadi nailiyyətlərlə zəngin bir dövr kimi həkk olunacaq. Bu ilin mənzərəsi göstərir ki, həm siyasi, həm iqtisadi, o cümlədən sosial sferada müəyyən edilmiş bütün vəzifələr yerinə yetirilib, Azərbaycan regionda və qlobal arenada öz mövqelərini daha da gücləndirib. Ümumilikdə isə, ilin bütün siyasi və iqtisadi hadisələri Azərbaycanın özünün bütün hədəflərinə doğru qətiyyətlə irəlilədiyini və məqsədlərinə çatdığını təsdiq edir. Bütün nailiyyətlərimiz təsdiq edir ki, cənab Prezident İlham Əliyev tərəfindən "Şəhərsalma və Memarlıq İli" elan edilən 2026-cı ildə də dövlətimiz yeni uğurlara nail olacaq.

Yalnız 2025-ci ilin deyil, geridə qoyduğumuz digər illərin də reallıqlarına nəzər salsaq, görərik ki, respublikamızın tarixi ən möhtəşəm uğurlarla əlamətdardır. Bütün bunlar, ilk növbədə, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyaşar ideyalarının və cənab Prezident İlham Əliyevin müdrik siyasətinin təntənəsidir. Bu siyasətin nəticəsidir ki, Azərbaycan qarşısında dayanan əsas strateji məqsədlərinə nail olub. Bu siyasətin nəticəsidir ki, respublikamız regional və qlobal səviyyədə siyasi və iqtisadi proseslərdə fəal iştirak edir, əməkdaşlıq əlaqələrini stimullaşdırır, dünyada sülhə və təhlükəsizliyə mühüm töhfələr verir.

Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasəti nəticəsində Azərbaycan iqtisadi sferada böyük inkişaf yolu keçib. İqtisadi göstəricilərin yüksəlməsində, ilk növbədə, Prezident İlham Əliyevin başlatdığı yeni islahatların düşünülmüş və əsaslandırılmış olması, o cümlədən enerji sferasında qarşıya qoyulan vəzifələrin tam reallaşdırılması

mühüm rol oynayıb. Bu islahatlar nəticəsində regionların iqtisadi potensialı hərəkətə gətirilib, yeni sənaye sahələri yaradılıb. İqtisadiyyatda diversifikasiyanın baş verməsi ölkə üzrə ümumi əmsalda qeyri-neft sektorunun payını əhəmiyyətli artırıb. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istifadəyə verilməsi, daha sonra Cənub Qaz Dəhlizinin işə salınması nəticəsində ölkəmizin artan maliyyə imkanları iqtisadi sferada, xüsusən qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi ilə bağlı qarşıda dayanan strateji vəzifələrin daha çevik və səmərəli şəkildə yerinə yetirilməsində mühüm rol oynayıb.

Onu da qeyd edim ki, Azərbaycanın müəllifi olduğu bütün neft-qaz kəmərlərinin inşası və istifadəyə verilməsi də, ilk növbədə, Prezident İlham Əliyevin qətiyyətli siyasətindən xəbər verir. Dövlətimizin başçısı bu yolda bütün maneçilikləri, o cümlədən erməni lobbisinin yaratdığı əngəlləri qətiyyətlə dəf edib. Tarixdə ilk dəfə olaraq Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi ilə Xəzərin karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxarıb. Bunun nəticəsidir ki, indi Azərbaycan qlobal enerji təhlükəsizliyi məsələlərində söz sahibi olan dövlətdir. Hazırda Rusiya ilə Ukrayna arasında davam edən müharibə fonunda Prezident İlham Əliyevin nə qədər müdrik və uzaqgörən enerji siyasəti yürütdüyü aydın görünür. Təsadüfi deyil ki, hazırda bir sıra Avropa dövlətləri öz enerji təhlükəsizliklərinə görə məhz Azərbaycana minnətdardırlar.

Respublikamızın Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyi uğurlarının miqyası olduqca böyükdür. Bu sırada Azərbaycanın regionun nəqliyyat habına çevrilməsi, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərində fəal rol

oynaması, kosmik kluba daxil olması, beynəlxalq tədbirlərin ünvanına çevrilməsi, dünyanın ən təhlükəsiz ölkələrindən biri kimi tanınması Prezident İlham Əliyevin rəhbərliyinin mühüm siyasi nəticələridir.

Möhtərəm Prezidentimizin liderliyi ilə xalqımızın nail olduğu ən böyük uğur isə, əlbəttə ki, torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpa olunmasıdır. Cənab İlham Əliyev hələ 2003-cü ildə Azərbaycan Prezidenti kimi and içərkən torpaqlarımızın işğaldan azad olunmasını öz fəaliyyətinin prioritetlərindən biri olaraq müəyyən etdi. Dövlətimizin başçısı hər zaman torpaqlarımızın azadlığı məsələsində qətiyyətli siyasət yürütdü, Azərbaycan ərazilərində ikinci erməni dövlətinin yaradılmasına imkan verilməyəcəyini qətiyyətlə bəyan etdi. Eyni zamanda, hər zaman açıq mətnlə bildirdi ki, danışıqlar nəticəsiz qalarsa, Azərbaycan dövləti öz ərazilərini müharibə yolu ilə işğaldan azad edəcək. Ermənistanın hərbi təxribatlarından sonra başlanan İkinci Qarabağ müharibəsi cənab İlham Əliyevin bu barədə fikirlərinin real həyatdakı təsdiqi oldu. “Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm” deyən Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Silahlı Qüvvələri cəmi 44 günə torpaqlarımızı işğaldan azad etdi. Bu Zəfərin davamı kimi 2023-cü ilin sentyabrında cəmi 23 saat ərzində Qarabağdakı separatçı rejim darmadağın edilərək Azərbaycan dövlətinin milli suverenliyi, Konstitusiyamızın hüquqi qüvvəsi bütün ərazilərimiz üzərində bərqərar olundu.

Dövlət və xalq məhz bu cür qələbələrlə ucalır. Bu baxımdan Prezident İlham Əliyev ərazi bütövlüyümüzün bərpasının müəllifi kimi xalqımızın başını uca etdi, Azərbaycana dünyada yüksək ehtiram qazandırdı. Cənab

İlham Əliyev özü isə dünyanın ən nüfuzlu siyasi liderləri cərgəsində dayanır.

Bu günlərdə ad günü münasibəti ilə cənab Prezident İlham Əliyevin ünvanına dünyanın hər yerindən, dövlət və hökumət başçılarından, beynəlxalq təşkilatların sədrlərindən, ictimai xadimlərdən təbrik məktubları gəlir. Bütün bunların hamısı, o cümlədən məktublarda yer alan fikirlər Prezident İlham Əliyevə olan beynəlxalq ehtiramın, dövlətimizin başçısının nüfuzlu siyasi liderlərlə bir cərgədə dayanmasının göstəricisidir.

Respublikamız Vətən müharibəsinin başa çatmasından və ərazi bütövlüyümüzün bərpasından sonra formalaşmış yeni reallıqlar mühitində inamla və qürurla öz inkişafının növbəti mərhələsinə daxil olub. Bu yeni mərhələdə qarşıda duran strateji vəzifələr dövlət müstəqilliyimizi, milli suverenliyimizi, əldə olunan nailiyyətlərimizi daha da möhkəmləndirmək, Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək və Azərbaycanı inkişaf etmiş dövlətlərin cərgəsinə yüksəltməkdir. Əminik ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamız bu mərhələdə də yeni əzəmətli nailiyyətlərə imza atacaq.

Ad günü münasibəti ilə bir daha hörmətli Prezidentimizi təbrik edir, şərəfli missiyasında uğurlar diləyirik.

**Jalə Əliyeva.** Azərbaycanın son 22 ili xalqımızın taleyinə yazılmış bir yüksəliş dastanıdır. Bu dastanın qəhrəmanı isə Prezident İlham Əliyevdir. Ötən illər ərzində onun rəhbərliyi altında Azərbaycan özünü yenidən yaratdı. Bu gün bütün sahələrdə əldə etdiyimiz uğurun arxasında məhz onun dəmir məntiqi, uzaqgörənliyi və xalqına arxalanan liderlik iradəsi dayanır. Milli gücə, müstəqil siyasətə və xalqın rifahına əsaslanan Azərbaycan dövlətinin inkişaf fəlsəfəsi böyük uğurlarımızın təməlini təşkil edir.

Cənab Prezident İlham Əliyev öz siyasətini sadə bir həqiqət üzərində qurur: xalq güclənməlidir ki, dövlət yüksəlsin; dövlət yüksəlməlidir ki, xalq daha xoşbəxt yaşasın.

2020-ci ilin Zəfəri təkcə torpaqların azad olunması deyildi. Bu Zəfər Azərbaycanın gücünü, xalqın birliyini və cənab Prezidentin qətiyyətini dünyaya göstərdi. Bu il həmin tarixi qələbənin 5-ci ildönümünün xoşbəxtliyini yaşadıq. Beş il əvvəl Azərbaycan Ordusu düşmən üzərində misilsiz qələbə qazandı. Bu şanlı Zəfərdən ötən beş ildə isə Azərbaycan dövləti Qarabağımızda quruculuq mübarizəsinin qalibi oldu. Füzuli Hava Limanı açıldı, Zəngilan iqtisadi mərkəzə çevrilir, Şuşa mədəniyyət paytaxtına qayıtdı, Böyük Qayıdış başlayıb, artıq həyat geri dönür. Bu beş il göstərdi ki, Azərbaycan yalnız müharibəni deyil, sülh və quruculuq dövrünü də qələbə ilə idarə edə bilir.

Bu gün Azərbaycan regionda yeni siyasi reallıqlar yaradır. Məhz Azərbaycanın irəli sürdüyü təşəbbüslər və ev sahibliyi ilə region sabitliyə qovuşur, yeni iqtisadi dəhlizlər açılır, müharibələr dövrü bitir, Qafqazda yeni sistem formalaşır. Bu, həm diplomatik qələbədir, həm də Azərbaycanın gücünün dünyada qəbul edilməsinin göstəricisidir. Diplomatiyada heç nə təsadüfən baş vermir. Bu proseslərin arxasında Azərbaycan Prezidentinin çoxillik siyasi xətti, qətiyyəti və dəqiq dəyərləndirmələri dayanır.

Bu gün Azərbaycanın qısa zamanda qət etdiyi böyük yol göz önündədir və bu yolun hər qarışı danılmaz bir həqiqətə əsaslanır – Azərbaycanın müstəqil, suveren və güclü olması həqiqətinə!

Cənab Prezident İlham Əliyev dövrünün mahiyyəti, sadəcə, inkişaf deyil. Bu dövr dövlətin xarakterinin

sərtləşməsi, siyasətin prinsipiallaşması, diplomatiyanın güclənməsi, iqtisadiyyatın genişlənməsi, ordunun yenilənməsi, xalqın özünə inamının yüksəlməsidir. Bu model dünyanın bir çox ölkəsinə nümunə ola biləcək bir idarəçilik sistemidir: həm iradəli, həm humanist, həm realist, həm də uzaqgörən. Cənab Prezident İlham Əliyevin fəaliyyətinə baxanda belə görünür: o, xalqın gücünə güvənən, öz sözünü kimsədən çəkinmədən deyən, millətin maraqlarını hər şeydən üstün tutan bir Prezidentdir. Siyasi baxışla yanaşanda isə beynəlxalq aləmdə güc balansını hiss edən, regionda yeni reallıqlar yaradan, böyük güclərlə bərabər statuslu danışıqlar aparan, diplomatiyada yeni xətt formalaşdıran strateqdir. Bu isə böyük dövlətçilik fəlsəfəsidir və Azərbaycanı bu gün regionun, sabah isə daha geniş coğrafiyanın aparıcı güclərindən birinə çevirir.

Son 22 ildə əldə etdiklərimiz daha bir həqiqəti təsdiqləyir. Azərbaycanı dəyişən, gücləndirən və qlobal siyasətdə söz sahibi edən lider cənab Prezident İlham Əliyevdir. Bu 22 ilin uğurları bir çıxışın mətninə, əlbəttə ki, sığa bilməz.

Qarşıda bizi yeni uğurlar gözləyir: sülh müqaviləsi, Zəngəzur dəhlizi, Zəfərin quruculuq illəri, yeni iqtisadi yüksəliş, türk dünyasının inteqrasiyası, qlobal enerji siyasətində aparıcı rol və sair. Bütün bunlar yeni başlanan yolun müjdələridir və Azərbaycan bu gün öz liderinin iradəsi ilə daha güclü, daha qürurlu və daha sabit gələcəyə inamla addımlayır. Qalib, müasir və yenilməz bir dövlət olaraq!

* * *

Ana yasamız olan Konstitusiya təsbit edir ki, Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır. Konsti-

tusiyada insan hüquqları, sosial ədalət, ictimai bərabərlik prinsipləri və bu prinsiplərin qorunması çox əhəmiyyətli bir yerdə gəlir. Bu gün cənab Prezident tərəfindən müzakirəmizə təqdim edilən Əmək Məcəlləsində əlavə və dəyişikliklər də birmənalı olaraq insan amilinə, sosial ədalətə, cəmiyyətin inkişafına xidmət edir və çox mütərəqqi əlavə və dəyişikliklərdir. Mən elə çıxışımın əvvəlində bu dəyişikliklərin və əlavələrin hər birinə səs verəcəyimi bildirirəm. Hər bir həmkarımı da səsverməyə dəvət edir və layihəni plenar iclasa tövsiyə edirəm.

Çoxsaylı dəyişiklikləri əhatə edən müddəaların hər biri haqqında məndən əvvəl çıxış edənlər ətraflı məlumat verdilər və əlbəttə ki, burada qeyd edilən istiqamətlərin hər biri çox əhəmiyyətlidir. Beynəlxalq Əmək Təşkilatının konvensiyalarının tələbləri doğrultusunda atılan addımlardan danışıldı. Bizim üçün bəlkə də çox yeni olmayan, 2020-ci il pandemiyasında yaşadığımız və indi artıq hüquqi bazasını yaratdığımız, qanuniləşdirdiyimiz distant iş, distant təhsil haqqında, sosial həssas qrupların hüquqlarının daha təkmil bir şəkildə qorunması haqqında danışıldı. Minimum əməkhaqqı anlayışının beynəlxalq tələblərə uyğunlaşdırılması haqqında, məzuniyyət hüququndan, atalıq məzuniyyəti hüququndan, işçinin işdən kənarlaşdırılması normalarının daha ədalətli prinsiplər əsasında təsbit edilməsindən, həmkarlar ittifaqları tərəfindən həyata keçirilən və işçinin hüquqlarının qorunması baxımından çox əhəmiyyətli məsələlərdən, eyni zamanda, İşəgötürənlər Konfederasiyasının da Azərbaycanda bu sahəyə verdiyi töhfələrdən söhbət getdi.

Göründüyü kimi, əlavə və dəyişikliklər çox geniş bir arealı əhatə edir. Hər birinin arxasında insan amili, insan faktoru dayanır. Bu baxımdan bu gün müzakirə etdiyimiz

qanun layihəsi də dövlətimizin strategiyasının hüquqi əsaslarla təsbit edilməsinə xidmət edir.

Mənim bir sualım olacaq. Qanuna əlavələrdə nəzərdə tutulan distant iş amilinin hazırda hüquqi əsası yaradılır. Bayaq da söylədik. Əslində, pandemiya şəraitində bütün dünya və eyni zamanda, ölkəmiz də bu prosesdən keçdi, yəni ölkədə distant iş və distant təhsil tətbiq edildi. Bundan sonra hansı hallarda işçi məsafədən işləyəcək? Bunun üçün onun hansı bazası olacaq, əməkhaqqının ödənişi hansı qaydada hesablanacaq və sair. Bütün bunlar daha sonra profil qanunlarla nə şəkildə tənzimlənəcək?

**Kamal Cəfərov.** 1991-ci ildə müstəqilliyinin formal bərpasından sonra postsovet məkanında işğala məruz qalan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini, milli şərəfi bərpa edən müzəffər sərkərdə İlham Əliyevdir. 1991-ci ildəki regionun ən zəif dövlətini ən qüdrətli dövlətinə çevirən, son 22 ildə iqtisadiyyatımızı 10 dəfə artıran, strateji valyuta ehtiyatlarını 40 dəfədən çox artıran islahatçı lider İlham Əliyevdir. Azərbaycanın təbii sərvətini insan kapitalına çevirən, coğrafi yerləşməsini Avrasiyanın strateji nəqliyyat qovşağına çevirən, Azərbaycanı Avropanın ən etibarlı enerji tərəfdaşı edən vizyoner strateq İlham Əliyevdir. Dünyanın qütbləşməyə məcbur olduğu dövrdə Azərbaycanı türk dövlətlərinin təkanverici qüvvəsinə çevirən, türk dövlətləri təşkilatı arasında əməkdaşlığı Şuşa Bəyannaməsi ilə yeni modelə keçirən, eyni zamanda, türk dövlətləri arasında Avropa İttifaqı ölkələri ilə ən çox strateji əməkdaşlığa malik birləşdirici lider İlham Əliyevdir. Heç bir hərbi blokda iştirak etmədən NATO-nun ikinci ən böyük ordusu olan Türkiyə ilə müttəfiqlik, nüvə dövləti Pakistanla strateji tərəfdaşlıq quran, qonşuları ilə qarşılıqlı hörmət və

maraqlar əsasında balanslaşdırılmış əlaqələr yaradan müstəqil siyasət ustadı İlham Əliyevdir. Daxildə və xaricdə qarşılaşdığı çətinliklərə, xəyanətlərə, süni böhranlara, beynəlxalq qaralama kampaniyalarına baxmayaraq, dəmir iradəsi ilə Azərbaycanı daim irəli aparan, onu dünyanın hörmət etdiyi, seçilən dövlətlərindən birinə çevirən qətiyyətli dövlət xadimi İlham Əliyevdir.

Bu gün hər bir azərbaycanlı üçün Qarabağ, bayraq, suverenlik və Vətən necə müqəddəsdirsə, İlham Əliyev də məhz o müstəsna əhəmiyyətə malikdir. Biz bu gün cənab Prezidentin müxtəlif sahələrdə göstərdiyi müstəsna fəaliyyətinə görə fərqli terminlərdən, sifətlərdən istifadə etdik. Ancaq ən önəmlisi odur ki, İlham Əliyev xalqının lideridir. O, hər bir vətəndaşın Prezidentidir. Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tutaraq ölkəmizi tərəqqiyə və birliyə doğru aparır. Bu onun rəhbərliyinin əsasını təşkil edir və bütün nailiyyətlərin mərkəzində dayanır.

**Kamaləddin Qafarov.** XXI əsrin dəyişkən və çoxqütblü siyasi sistemində liderlik yalnız idarəetmə bacarığı deyil, eyni zamanda, qlobal prosesləri analitik şəkildə səciyyələndirmək, riskləri düzgün qiymətləndirmək və milli maraqları beynəlxalq müstəvidə səmərəli şəkildə müdafiə etmək bacarığıdır. Cənab Prezident İlham Əliyevin siyasi lider obrazı məhz bu keyfiyyətlərin sintezindən formalaşıb. Möhtərəm Prezidentimiz İlham Əliyevin akademik təməldən biznes idarəçiliyinə, enerji sektorundan parlament tribunasına, beynəlxalq təşkilatlarda səmərəli fəaliyyətdən dövlət rəhbərliyinə uzanan geniş təcrübə xətti onun zəngin ictimai-siyasi irsinin əsasını təşkil edir. Bu çoxşaxəli formalaşma modeli 2003-cü ildən başlayaraq Azərbaycanın idarəçilik sistemine

praqmatik və analitik yanaşma gətirdi. Ulu Öndər Heydər Əliyevin "yüksək intellekt", "praqmatik təfəkkür", "müasir dünya siyasətini dərindən bilmək" ifadələri bu liderlik modelinin mahiyyətini dəqiq təsvir edir. Həmin keyfiyyətlər zaman keçdikcə Azərbaycanın xarici siyasət kursunda, daxili siyasi sistemində, iqtisadi modelində və dövlətin modern idarəçilik strukturunda özünü daha aydın şəkildə göstərdi. Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan təkcə regionun deyil, qlobal geosiyasi məkanın aktiv oyunçularından birinə çevrildi.

Azərbaycan siyasətində son 20 ilin dəyişiklikləri təkcə institusional modernləşmə ilə məhdudlaşmayıb. Bu dövrdə ölkənin siyasi mədəniyyəti tamamilə yeni mərhələyə keçdi. Cənab Prezident İlham Əliyevin müxtəlif siyasi partiyalarla dialoq təşəbbüsləri, siyasi sistemdə rəqabətin sağlam mühitdə aparılması, müxalifət nümayəndələrinin parlament rəhbərliyinə seçilməsi yeni siyasi davranış məntiqinin yaranmasına gətirib çıxardı. Bu, qarşıdurma üzərində qurulmayan, əməkdaşlığı prioritet götürən, dövlət maraqlarını ümumi siyasi məsuliyyət kimi qəbul edən modern yanaşmadır. 2024-cü il parlament seçkilərinin bütöv Azərbaycan ərazilərində keçirilməsi isə bu transformasiyanın siyasi legitimlik baxımından ən parlaq nümunəsidir.

Partiya sisteminin yenilənməsi də aparılan islahatların mühüm hissəsidir. YAP daxilində aparılan struktur islahatları, gənclərin və yeni siyasi düşüncə sahiblərinin önə çəkilməsi, idarəçilikdə modern yanaşmaların tətbiqi Azərbaycanın siyasi inkişafına dinamizm gətirdi. Bu proses bir daha göstərdi ki, cənab Prezident İlham Əliyevin liderlik modeli təkcə mövcud vəziyyətin idarə olunması deyil, həm də siyasi sistemin təkamül istiqamətinin müəyyənləş-

dirilməsidir. Beynəlxalq siyasətdə Azərbaycanın artan nüfuzu isə dövlət başçımızın qlobal səviyyəli liderliyinin ən təsirli göstəricisidir.

Ölkəmizin BMT Təhlükəsizlik Şurasına 155 dövlətin dəstəyi ilə qeyri-daimi üzv seçilməsi, Qoşulmama Hərəkatına dörd ilə yaxın sədrlik etməsi, Türk Dövlətləri Təşkilatında aparıcı aktora çevrilməsi Azərbaycanın diplomatik fəallığının miqyasını göstərir. COP29-un Bakıda keçirilməsi, Bakı Maliyyə Məqsədinin elan olunması isə ölkəmizin qlobal iqlim gündəliyində söz sahibi olduğunu təsdiqlədi. Bu təşəbbüslər Azərbaycan diplomatiyasının artıq aktiv və təşəbbüskar xarakter daşıdığını nümayiş etdirir. Bir məqamı da xüsusi qeyd edək ki, Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə–Azərbaycan münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəlməsi Cənubi Qafqazda siyasi nizamın əsas dayaqlarından birinə çevrildi. Türk dünyası ilə genişlənən əməkdaşlıq, enerji və nəqliyyat dəhlizləri üzrə strateji layihələr, regional təhlükəsizlik modelində Azərbaycanın aktiv mövqeyi ölkəmizin beynəlxalq nüfuzunu daha da artırdı. Bütün bunlar göstərir ki, cənab Prezident İlham Əliyevin liderliyi təkcə bu günün çağırışlarına cavab vermir, bu model gələcək nəsillər üçün yeni strateji inkişaf fəlsəfəsi yaradır. Dövlət başçımızın siyasi xətti bu gün artıq həm regional, həm də qlobal səviyyədə Azərbaycanın uzunmüddətli inkişaf trayektoriyasını müəyyənləşdirən intellektual dövlətçilik sisteminə çevrilib.

2020-ci il Zəfəri ilə Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini yaradan Prezident hər keçən gün, hər ötən il Azərbaycana uğurlar bəxş edir. Bu gün İlham Əliyevin təcrübəsi, diplomatiyası, sərkərdəlik qabiliyyəti tək postsovet məkanında deyil, regiondan kənarda da analiz

edilir, öyrənilir.

Başa çatmaqda olan ildə də Azərbaycanın mövqeləri siyasi, ticari-iqtisadi münasibətlər baxımından daha da möhkəmləndi. Azərbaycanın beynəlxalq nüfuzu gücləndi və bunun sayəsində tərəfdaşlar ölkəni güclü, müstəqil və etibarlı oyunçu kimi qəbul edirlər. Heç şübhəsiz ki, Azərbaycanın əldə etdiyi uğurlar, tarixi qələbəmiz Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin nəticəsidir. Tarixdə az sayda liderə rast gəlmək olar ki, qısa müddət ərzində öz ərazisində 200 ildir, kök salan separatizm və terror bəlasını cəmi 44 gün ərzində dəyişə bilsin.

Hazırda azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə geniş inşaat işləri gedir. Doğma yurdun hər qarışında tikinti bumu yaşanır. Yeni infrastruktur – xəstəxanalar, məktəblər, yaşayış binaları, mədəniyyət obyektləri, muzeylər, hava limanları, avtomobil və dəmir yolları, körpülər, tunellər tikilir, məscidlər bərpa olunur. Artıq xeyli vaxtdır ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası reallaşmaqdadır. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır. Ümumiyyətlə, Qarabağda və Şərqi Zəngəzurda reallaşdırılan layihələrə nəzər yetirsək, görərik ki, bəlkə də, böyük dövlətlərin neçə illər ərzində görə bilmədikləri işləri Azərbaycan cəmi 5 ildə reallaşdırıb. Bu ərazilərdə hava limanları, yaşayış məntəqələri, avtomobil və dəmir yolları, körpülər, tunellər, su

anbarları, elektrik enerjisi stansiyaları, içməli su xətləri və sosial-iqtisadi infrastrukturun yaradılması dünyanın diqqətini cəlb edir.

Azərbaycan xalqı yeni quruculuq dövrünü yaşayır və yeni dövrə qədəm qoyarkən bütün Azərbaycan xalqı böyük ümidlərlə yaşayır və biz elə işləməliyik, elə addımlar atmalıyıq ki, bu ümidlər çin olsun. Bu gün hər bir vətəndaşımız əmindir ki, onun ümidləri, arzuları həyata keçəcək, yeni dövr də Azərbaycan xalqı üçün çox uğurlu olacaq. Bu əminlik xalqımızın öz gücünə, öz bacarığına inamla yanaşı, öz liderinə sonsuz etimadından irəli gəlir.

**Könül Nurullayeva.** Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə bütün sahələr davamlı inkişaf edib. Azərbaycan beynəlxalq sülh, sabitlik və əmin-amanlığın təminatına ciddi töhfə verməklə regional siyasətin formalaşdırılmasında mühüm rol oynayan dövlətə çevrilib. Bu, Prezident İlham Əliyevin zəngin liderlik bacarığı, praqmatik xarici siyasətinin nəticəsidir.

1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuş İlham Heydər oğlu Əliyev 1967–1977-ci illərdə Bakı şəhərində 6 saylı orta məktəbdə təhsil alıb. 1977–1982-ci illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil alıb. 1982-ci ildə həmin institutun aspirantura pilləsinə daxil olub. 1985-ci ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsini almışdır.

Prezident İlham Əliyev 1985–1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun müəllimi olub. 1991–1994-cü illər ərzində özəl biznes sahəsində çalışıb və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik edib. 1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin əvvəlcə

vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olub. 1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə üzv seçilib. 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir. 1999-cu ildə Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilib. 2003-cü il avqustun 4-də Milli Məclisdə təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin olunmuşdur.

Cənab Prezident dövlət siyasətinin müasir modelini yaradıb. Azərbaycan xalqı hər zaman Prezident İlham Əliyevi dəstəkləyib. Belə ki, 2003-cü il oktyabrın 15-də Prezident seçkilərində seçicilərin 76 faizindən çoxu, 2008-ci il oktyabrın 15-də seçicilərin 88,73 faizi, 2013-cü il oktyabrın 9-da seçicilərin 84,54 faizi, 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə seçicilərin 86,02 faizi məhz cənab İlham Əliyevin lehinə səs verib.

2024-cü il fevralın 7-də ilk dəfə müstəqil həyatımızda bütün ərazilərimizdə keçirilmiş Zəfər seçkisində də seçici fəallığı 76,43 faiz olmuşdur. İlham Əliyev seçicilərin 92,12 faiz səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra İlham Əliyevin rəhbərliyi ilə xalqımız misilsiz nailiyyətlərə imza atmışdır. Ötən dövrdə həyata keçirilmiş ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahını, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin etmiş, ölkəmizin beynəlxalq nüfuzu yüksəlmiş, dünyada strateji əhəmiyyəti artmışdır.

Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan Ordusunu dünyanın ən güclü 50 ordusu sırasına yüksəltdi. Ötən dövrdə Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsi, müasir infrastrukturun yaradılması, hərbi qulluqçuların sosial müdafiəsi, mənzil təminatının yaxşılaşdırılması, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə Prezident İlham Əliyev tərəfindən xüsusi diqqət ayrılıb. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilmişdir.

İqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə regionun lideri, eyni zamanda, qlobal aktor kimi qəbul olunur. Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf edən Azərbaycan Silahlı Qüvvələri bu gün müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz xalqına qələbəni bəxş etmiş müzəffər orduya çevrilmişdir.

Vətən müharibəsində Azərbaycanın qələbəsi şərəfinə 2020-ci il dekabrın 10-da Bakının “Azadlıq” meydanında keçirilmiş Zəfər paradı, həmçinin 2025-ci il noyabrın 8-də qələbənin beşinci ildönümünə həsr olunmuş möhtəşəm hərbi parad təkcə Azərbaycan xalqı üçün deyil, bütün türk dünyası üçün mühüm hadisə oldu.

Azərbaycanda hərbi sənaye kompleksinin yaradılması ölkənin hərbi qüdrətini daha da artırmaqdadır. Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın

hərbi məhsulları nümayiş olunur. Bu cür nailiyyətlər Azərbaycana öz ordusunu zəruri silah, sursat və texnika ilə təchiz etmək üçün əvəzsiz imkanlar yaradıb.

Ümumiyyətlə, son 22 il müasir Azərbaycanın inkişaf tarixində tam yeni mərhələ kimi xarakterizə olunur. Belə ki, Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli təqdim edən Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın daha da güclənməsinə xidmət edib.

Ölkəmiz qlobal əhəmiyyətli təşəbbüslərin müəllifi kimi də etimad qazanıb. Regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsini, bölgədəki əməkdaşlığın dərinləşməsini şərtləndirib. BMT, Qoşulmama Hərəkatı, TDT kimi nüfuzlu təsisatlarda yüksək səviyyəli təmsilçilik ölkəmizin beynəlxalq miqyasda nüfuzunu daha da artırıb. D-8 kimi nüfuzlu təşkilata yekdilliklə üzv qəbul olunması ölkəmizə bütün beynəlxalq platformalarda, o cümlədən islam dünyasında olan etimadın göstəricisidir.

Eyni zamanda, ötən il BMT-nin ən nüfuzlu platforması olan COP29-a Azərbaycanın sədrliyi də ölkəmizin iqlim dəyişmələri, qlobal əməkdaşlıq kimi məsələlərdə liderlik bacarığını, beynəlxalq dialoq və fəaliyyətdə rolunu bir daha nümayiş etdirdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin gələcəyə xidmət edən strategiyası sayəsində regionun beynəlxalq statusu dəyişib. Təsadüfi deyil ki, 2025-ci ilin avqustunda Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən Birgə Bəyannamə imzalanıb. Vaşinqton görüşünün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması Azərbaycanın irəli sürdüyü sülh gündəliyini təsdiq edib. “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və döv-

lətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş” layihəsinin paraflanması ilə bağlı müddəa çərçivəsində Sazişin imzalanmasına və ratifikasiyasına nail olmaq üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğu təsbit edilib. Bu kontekstdə Azərbaycan tərəfi sazişin imzalanması üçün Ermənistan konstitusiyasında dəyişiklik edilərək Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılmasını gözləyir. Birgə Bəyannamədə xüsusi əhəmiyyət kəsb edən daha bir müddəa iki ölkə arasında nəqliyyat kommunikasiyalarının açılmasına dair bənddir. Sənəddə Ermənistan ərazisində xüsusi bağlantı layihəsi – “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”nun həyata keçiriləcəyi təsbit olunub. Bu müddəa Ermənistan ərazisi vasitəsi ilə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədi ilə ABŞ tərəfindən həyata keçiriləcək layihəni nəzərdə tutur. Həmçinin “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş” layihəsi paraflanıb və rəsmi Bakının haqlı tələbinə uyğun olaraq, ATƏT-in Minsk prosesi və əlaqəli strukturlarının bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinin ünvanına birgə müraciət məktubu imzalanıb. 2025-ci il dekabrın 1-də isə Minsk prosesi və onun əlaqədar strukturlarının bağlanması yekunlaşdı.

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə bütün sahələr davamlı inkişaf edib. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” də müasir inkişaf ideologiyasına əsaslanan yeni sosial-iqtisadi artım modelinin bazasında həyata keçiriləcəkdir. Bu model ölkənin bütün resurslarını və nailiyyətlərini səfərbər etməklə onları uzunmüddətli dövrdə qarşıya qoyulan strateji

vəzifələrin reallaşmasına yönəldəcək.

Yeri gəlmişkən, Ermənistan–Azərbaycan münaqişəsinin həlli regionun təhlükəsizliyi və investisiya cəlbediciliyi baxımından strateji əhəmiyyətə malikdir. Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verməkdədir. Uğurla həyata keçirilən Böyük Qayıdış strategiyası yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş əraziləri, ümumən, regionun yeni inkişaf modelinə çevirməkdən ibarətdir. İrimiqyaslı infrastruktur layihələri azad olunmuş əraziləri regionun ən inkişaf etmiş bölgəsinə çevirməkdədir. İşğaldan azad olunmuş ərazilərin bərpası, soydaşlarımızın öz doğma yurduna qayıtması son 5 ildə əsas prioritetdir.

Təsadüfi deyil ki, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın ümumi icra faizi təqribən 79 faizdir. İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın davamlılığının təmin edilməsi məqsədi ilə Prezident İlham Əliyev 2025-ci il mayın 30-da imzaladığı Sərəncamla “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı” layihəsinin hazırlanmasını tapşırmışdır.

Görülən işlər nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə 62 mindən çox insan yaşayır və fəaliyyət göstərir. Əsas məqsəd vətəndaşlarımızı layiqli həyat şəraiti ilə təmin etməkdir. Qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah ölkənin sosial-iqtisadi inkişaf

nailiyyətlərini xarakterizə edir.

Bu gün tam qürurla deyə bilirik ki, 22 il öncə müəyyən olunmuş bütün vəzifələr icra edilib. Cənab Prezidentin də söylədiyi kimi, Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafına təkan verdi. Azərbaycanın uğurlarının əsas səbəbi isə güclü lider, iqtisadi müstəqillik və siyasi iradədir.

**Malik Həsənov.** Mən də təbriklərə qoşulub səmimi təbriklərimi çatdırıram. Prezident İlham Əliyevin imzaladığı sərəncam Azərbaycanın inkişaf yolunda strateji baxımdan düşünülmüş, gələcəyə hesablanmış bir qərardır. Əminəm ki, 2026-cı il Azərbaycanın şəhərsalma tarixində yeni əlamətdar uğurlarla tarixə yazılacaq. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük Qayıdış proqramı çərçivəsində işğaldan azad olunmuş bölgələrimizdə aparılan quruculuq işləri müasir şəhərsalma mədəniyyətinin ən üstün keyfiyyətlərini özündə əks etdirir.

Dövlət başçısı İlham Əliyevin ötən ilin əvvəlində yerli televiziya kanallarına müsahibəsində "Bu gün ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycanımızdan, suverenliyimizi tam bərpa etmiş Azərbaycanımızdan son 20 illik fəaliyyətə nəzər salsaq, hansı mənzərə canlanır? Biz bu 20 ildə haradan-haraya gəlmişik" sualını cavablandırarkən səsləndirdiyi fikirləri yada salmaq istərdik. Prezident İlham Əliyev bu reallığı diqqətə çatdırmışdır ki, son 20 ilin tarixi göz qabağındadır və əsas məsələ ondadır ki, 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi. Müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi. Yəni Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı

bəlalarla, faciələrlə üzləşə bilərdi. Müstəqilliyimizin ilk iki ili əyani şəkildə göstərir ki, güclü lider və düşünülmüş siyasət olmadan istənilən ölkə, xüsusi ilə gənc müstəqil ölkə çox ciddi təhlükələrlə üzləşə bilər. 2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi. Bugünkü reallıqları biz 2003-cü illə deyil, 1993-cü illə müqayisə etməliyik. Çünki məhz o tarixdən başlayaraq Azərbaycan inkişaf yoluna qədəm qoydu, sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu və ölkəmiz beynəlxalq təcriddən çıxdı. 1993–2003-cü illərdə bugünkü dövlətçilik prinsipləri bərqərar olundu və Azərbaycanda vətəndaş cəmiyyəti yaradıldı, eyni zamanda, xalq–iqtidar birliyi artıq önəmli bir amilə çevrildi.

Prezident İlham Əliyevin bu çağırışları səsləndirdiyi həmin müsahibəsindən ötən iki ili də nəzərə alsaq, bu gün 22 ilin uğurlarına söykənərək qalib, bütövləşən Azərbaycanın gələcəyə daha böyük inamla irəlilədiyini qeyd edirik. 22 ildə cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan misilsiz nailiyyətlərə imza atıb. Ötən dövrdə həyata keçirilmiş ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahını, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin etmiş, ölkəmizin beynəlxalq nüfuzu yüksəlmiş, dünyada strateji əhəmiyyəti artmışdır. Prezident İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən, siyasi realizmə söykənən fəaliyyət nümunəsi gətirdi, öz fəaliyyəti və davranışı ilə siyasi sistemimizə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi

etika nümunəsi təqdim etdi. Bu gün Azərbaycan formalaşmış yeni reallıqlar mühitində inamla və qürurla öz inkişafının növbəti mərhələsinə qədəm qoyub.

Yeni dövrdə qarşıda duran strateji vəzifələrimiz müstəqilliyimizi, əldə olunmuş nailiyyətləri daha da möhkəmləndirmək, Azərbaycanı davamlı və dayanıqlı inkişaf edən ölkəyə çevirməkdir. İşğaldan azad edilmiş ərazilərdə irimiqyaslı bərpa və yenidənqurma işlərinin, Böyük Qayıdışın davam etdirilməsi, təhlükəsizliyin təmin olunması və müasir ordu quruculuğu, qabaqcıl elmə və yüksək texnologiyalara əsaslanan iqtisadiyyatın formalaşdırılması, cəmiyyətin rifahının yüksəldilməsi, dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi, müstəqil xarici siyasət sayəsində Azərbaycanın beynəlxalq mövqelərinin daha da gücləndirilməsi, cəmiyyət həyatında şəffaflığın və ictimai iştirakçılığın, həmçinin ölkədə mövcud siyasi dialoqun dərinləşdirilməsi, zəngin mədəni irsimizin, milli-mənəvi dəyərlərimizin qorunması və sair kimi məsələlər həyata keçirilən siyasətin prioritet istiqamətləridir. Azərbaycanın qlobal mədəniyyətlərarası dialoqun ünvanlarından birinə çevrilməsi ölkəmizin beynəlxalq statusunun və tərəfdaşlarının sayının artmasına səbəb olub. Azərbaycanda davamlı olaraq Bakı Beynəlxalq Humanitar Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, habelə BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu, UNESCO-nun xüsusi sessiyalarının və onlarla digər əhəmiyyətli tədbirlərin keçirilməsi nəticəsində Bakı qlobal münasibətlər sistemində nüfuzlu beynəlxalq siyasi meydanlardan birinə çevrilib. Azərbaycan “Sülh naminə tərəfdaşlıq” Proqramı çərçivəsində NATO-nun etibarlı və fəal tərəfdaşıdır. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının ən aktiv və nüfuzlu üzvlərindən biridir. Dünyada

sülhü və konstruktiv əməkdaşlığı tərənnüm edən Prezident İlham Əliyevin beynəlxalq təşəbbüsləri mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin başçısının uğurlu siyasəti nəticəsində ölkəmizin qazandığı uğurlar etibarlılıq nümunəsini təqdim edir.

İqtisadiyyatın inkişafı və insanların sosial rifah halının yüksəldilməsi məqsədi ilə Prezident İlham Əliyevin təşəbbüskarı olduğu qanun layihələri, həmçinin imzaladığı fərman və sərəncamlar əsasında həyata keçirilən sosial-iqtisadi layihələr vətəndaşlarımızın yaşayış səviyyəsinə öz müsbət təsirini göstərir. Prezident İlham Əliyevin rəhbərliyi ilə görülmüş genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində hazırda Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağıdır. Beş fundamental nəticə – qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah ölkənin sosial-iqtisadi inkişaf nailiyyətlərini xarakterizə edir. Bu nailiyyətlər uzunmüddətli dövrdə ölkə iqtisadiyyatı üçün keyfiyyətcə yeni sosial-iqtisadi inkişaf simasının formalaşmasına böyük töhfə verəcək.

Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf edən Azərbaycan Silahlı Qüvvələri bu gün müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz xalqına qələbəni bəxş etmiş müzəffər orduya çevrilib. 2003-cü ildən etibarən ordu quruculuğu məsələləri dövlət siyasətinin prioriteti kimi müəyyən olunub. Planlı və ardıcıl şəkildə görülmüş işlər

Azərbaycan Ordusunu dünyanın ən güclü 50 ordusu sırasına yüksəltdi. Ötən dövrdə Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsi, müasir infrastrukturun yaradılması, hərbi qulluqçuların sosial müdafiəsi, mənzil təminatının yaxşılaşdırılması, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə Prezident İlham Əliyev tərəfindən xüsusi diqqət ayrılıb. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir. Azərbaycanda hərbi sənaye kompleksinin yaradılması ölkənin hərbi qüdrətini artırdı. Ölkəmizdə mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur. Azərbaycan Silahlı Qüvvələri müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsində qələbə qazanaraq tarixi nailiyyətə imza atdı. Ərazi bütövlüyümüzün bərpası və xalqımızın mədəniyyət beşiyi hesab olunan Şuşanın azad olunması Prezident İlham Əliyevin Zəfər zirvəsidir. Qarabağın və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı işlər postmünaqişə dövründə tətbiq edilən ən sistemli və sürətli yenidənqurma modellərindən biri kimi beynəlxalq təcrübə üçün mühüm nümunədir. Soydaşlarımızın mərhələ-mərhələ doğma yurd-yuvalarına qayıdışı tariximizin qürurverici səhifələrindəndir.

Son 22 ilin uğurları, Ümummilli Lider Heydər Əliyevin 2003-cü il oktyabrın 1-də xalqa etdiyi müraciəti – "Həm Prezident İlham Əliyev, həm də Yeni Azərbaycan Parti-

yası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" əminliyin təsdiqidir. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev ata vəsiyyətini yerinə yetirdiyi üçün xoşbəxtdir. Dövlətimizin başçısı ötən il müstəqillik tarixində ilk dəfə olaraq bütün ölkə ərazisində keçirilən Prezident seçkilərində inamlı qələbəsindən sonra andiçmə mərasimində bu əminliyi də ifadə etdi ki, indi yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət abhava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub.

**Müşfiq Cəfərov.** Bu gün müzakirə etdiyimiz və cəmiyyətimiz üçün xüsusi əhəmiyyət daşıyan məsələ, yəni Amnistiya aktının imzalanması və 20 min nəfərin azadlığa buraxılması dövlətimizin hüquqi, sosial və mənəvi dəyərlərə sadiqliyinin parlaq nümunəsidir.

Amnistiya institutu hüquqi dövlətin ayrılmaz tərkib hissəsidir. Bu institut təkcə cəzanın yüngülləşdirilməsi və ya ləğvi anlamına gəlmir, eyni zamanda, insanlara islah olunmaq, səhvlərindən nəticə çıxarmaq və cəmiyyətə yenidən inteqrasiya etmək üçün imkan yaradılmasıdır. Bu baxımdan qəbul edilən qərar olduqca düşünülmüş, balanslaşdırılmış və humanist xarakter daşıyır.

20 min vətəndaşımızın azadlığa qovuşması təkcə statistik rəqəm deyil. Bu, 20 min ailənin sevincidir, 20 min evə ümidin, inamın qayıtmasıdır. Hər bir ailənin arxasında gözləyən valideyn, övlad, həyat yoldaşı dayanır. Dövlətin bu humanist addımı sosial bağların möhkəmlənməsinə, ailə institutunun qorunmasına mühüm töhfə verir.

Eyni zamanda, qeyd etməliyik ki, bu qərar hüquq mühafizə və məhkəmə sistemində aparılan islahatların məntiqi davamıdır. Son illərdə insan hüquq və azadlıqlarının təmin edilməsi, cəza siyasətinin humanistləşdirilməsi, alternativ cəza tədbirlərinin tətbiqi istiqamətində ardıcıl addımlar atılır. Bugünkü Amnistiya aktı da bu strategiyanın mühüm tərkib hissəsidir.

Burada çox vacib bir məqamı da vurğulamaq istəyirəm. Amnistiya cəzasızlıq demək deyil. Əksinə, bu, dövlətin gücündən doğan etimad və məsuliyyət mesajıdır. Azadlığa buraxılan şəxslər qarşısında böyük bir öhdəlik dayanır: qanunlara hörmət etmək, ictimai qaydalara əməl etmək və cəmiyyətin etimadını doğrultmaq.

Biz millət vəkilləri olaraq və aidiyyəti qurumlar bu şəxslərin azadlığa çıxdıqdan sonra cəmiyyətə adaptasiyası, məşğulluq imkanlarının artırılması, sosial və psixoloji dəstək mexanizmlərinin gücləndirilməsi istiqamətində də fəaliyyətimizi davam etdirməliyik. Çünki real nəticə yalnız azadlıqla deyil, dayanıqlı reinteqrasiya ilə ölçülür. Bu qərar həm də beynəlxalq aləmdə ölkəmizin insan hüquqlarına, humanizm və ədalət prinsiplərinə sadiqliyini bir daha nümayiş etdirir. Dövlətimiz göstərir ki, güclü olmaq yalnız sərt cəza siyasəti aparmaqla deyil, lazım gəldikdə mərhəmət göstərməyi bacarmaqla ölçülür.

Sonda bir daha vurğulamaq istəyirəm ki, bu Amnistiya aktı ölkəmizin hüquqi dövlət quruculuğunda yeni mərhələ,

cəmiyyətimizdə isə həmrəylik və qarşılıqlı etimadın möhkəmlənməsi üçün mühüm fürsətdir. Bu qərarın təşəbbüskarı cənab Prezident başda olmaqla, qərarın ərsəyə gəlməsində əziyyəti olan hər kəsə təşəkkür edir, azadlığa qovuşan vətəndaşlarımıza isə məsuliyyətli, qanunlara hörmət edən və cəmiyyətimizə faydalı bir həyat yolu arzulayıram.

**Sadiq Qurbanov.** Qlobal siyasətdə liderliyin həqiqi ölçüsü təkcə proseslərə yön vermək, böhranları idarə etməkdə deyil, böhranların doğurduğu qeyri-müəyyənlikdən strateji imkan yaratmaqda görünür. Cənubi Qafqaz kimi tarixən imperiyalararası rəqabətin “kəsişmə zonası” olmuş bir məkanda dövlətlərin taleyi çox vaxt xarici paytaxtlarda yazılıb. Azərbaycan isə fərqli təcrübə yaratdı. İlham Əliyevin “qlobal gücləri cilovlamaq” və ziddiyyətləri geoiqtisadi layihələrlə uzlaşdırmaq strategiyası ilə geosiyasi obyekt olmaqdan geosiyasi subyektə çevrilməyə nail olub.

44 günlük Vətən müharibəsində tarixi qələbə Azərbaycanın böyük güclərin maraqlarını uzlaşdıran siyasətinin effektivliyini sübut etdi. Azərbaycan müharibədən sonra regionda yeni geosiyasi reallığı formalaşdıraraq onu enerji təhlükəsizliyi, nəqliyyat marşrutları və iqtisadi əməkdaşlıqla möhkəmləndirdi.

Prezident İlham Əliyevin strategiyası enerji, nəqliyyat və təhlükəsizlik alətlərini birləşdirərək regionda yeni reallıq, geosiyasi coğrafiyanı yenidən düzənləyən, qlobal oyunçuların ziddiyyətlərini regional əməkdaşlıq mexanizmlərinə çevirən güclü liderliklə icra olunur.

Bu liderlik strategiyası iki paralel xətdən ibarətdir. Dövlətin gücünü, iqtisadi potensialını artırmaqla, beynəlxalq mövqelərini möhkəmləndirməklə milli suverenliyi

təmin etmək, yumşaq güc və geoiqtisadi alətlər vasitəsi ilə böyük güclərin maraqlarını uzlaşdırmaq. Bu strategiya, liderlik münaqişə coğrafiyasını iqtisadi əməkdaşlıq coğrafiyasına çevirir, səngərlərin yerini dəmir yolları, blokadaların yerini tranzit müqavilələri, qeyri-müəyyənliyin yerini isə institusional zəmanətlər tutur.

İlham Əliyevin liderliyinin mahiyyəti Heydər Əliyev dövründə qurulmuş "balanslaşdırma və konsensus" modelini daha geniş geoiqtisadi, geoenerji ekosisteminə çevirməkdədir. Bu ekosistemin strateji hədəfi Azərbaycanı təkcə enerji ixracatçısı kimi deyil, Avrasiyanın əsas əlaqələndirici platforması kimi mövqeyə sahib olmasını təmin etmək və bununla da Cənubi Qafqazın geosiyasi oriyentirlərini dəyişməkdir.

Böyük Henri Kissincer deyirdi: "Diplomatiya gücü cilovlamaq sənətidir". Bu baxımdan İlham Əliyevin geosiyasi doktrinası unikal xüsusiyyətlərə malikdir. Doktrinanın işləmə mexanizmi üçpilləli ardıcıllıqdır: enerji infrastrukturu – tərəfdaşlıq şəbəkəsi və resurs bazası yaratmaq, nəqliyyat-logistika infrastrukturu – qovşaq statusu və geoiqtisadi çəkini artıran "tranzit platforma" formalaşdırmaq və postmünaqişə təhlükəsizlik arxitekturası – kommunikasiyaların açılması və iqtisadi inteqrasiya ilə sülhün institusional dayaqlarının yaradılması. Bu ardıcıllıq strateji baxımdan "zəmanətlər arxitekturası" yaradır, nə qədər çox ölkə və şirkət Azərbaycan üzərindən keçən marşrutlardan istifadə edirsə, həmin marşrutların davamlılığında və regionun sabitliyində kollektiv maraq bir o qədər yüksəlir.

Prezident İlham Əliyevin strategiyası enerji, nəqliyyat və təhlükəsizlik alətlərini birləşdirərək uzunmüddətli perspektivdə geniş regional kontekstdə yeni imkanlar açması

ilə fərqlənir. Bakı-Tbilisi-Ceyhan neft kəmərini və Cənub Qaz Dəhlizinin yeni geosiyasi reallıqda artan dəyərini qeyd etmək olar. BTC-nin geosiyasi əhəmiyyəti yalnız neft daşınması ilə məhdudlaşmır. Birincisi, o, tranzit risklərini diversifikasiya edərək alternativ ixrac arxitekturası qurur. İkincisi, Gürcüstan və Türkiyənin regional dəyərini artırır. Üçüncüsü, digər Xəzər ölkələri üçün də "alternativ marşrut" ideyasını praktikada reallaşdıraraq regional enerji təhlükəsizliyinə çeviklik gətirir. Artıq Qazaxıstanın neft ixracının bir hissəsi BTC ilə həyata keçirilir. Bu, BTC-nin uzunmüddətli strateji aktiv kimi aktual qaldığını və Azərbaycan infrastrukturunun regional deyil, Avrasiya miqyasında faydalı alternativə çevrildiyini göstərir.

Bir sözlə, deyə bilərik ki, Prezident İlham Əliyevin liderliyi Azərbaycanı regional reallığı formalaşdıran aktora çevirib. Bu liderlik həm güc balansını, həm də iqtisadi xəritəni dəyişdirən meqalayihələr vasitəsi ilə işləyir. Bu səbəbdən Azərbaycanın regional siyasətini yalnız milli kontekstdə deyil, Avrasiyanın dəyişən geoiqtisadi arxitekturası kontekstində oxumaq daha doğrudur.

Prezident İlham Əliyevin "böyük güclərin maraqlarını cilovlamaq" strategiyası ilə Azərbaycan klassik qarşıdurma və bloklaşma modelini deyil, maraqların qarşılıqlı asılılıq üzərindən idarə edilməsi yanaşmasını seçməklə regional geosiyasətdə yeni ölçülər, baxış formalaşdırıb. Bu strategiyanın hədəfi böyük güclərin maraqlarını Cənubi Qafqazın nəqliyyat-logistika, qovşaq potensialını reallaşdırmaqla uzlaşdırmaq, rasional maraqlar balansı yaratmaqdır.

Bu gün regionun gələcəyinə dair planlar Azərbaycan amili nəzərə alınmadan real sayılmır. Cənubi Qafqazın gələcəyi, Mərkəzi Asiyanın Avropaya çıxışı, enerji təhlü-

kəsizliyi və əsas nəqliyyat marşrutları ilə bağlı bütün real planların mərkəzində Azərbaycan faktoru dayanır. Bu gün Azərbaycanın addımları təkcə mövcud vəziyyətə deyil, gələcək onilliklərə hesablanan geosiyasi reallıqlara uyğun qurulur. Bütün bunlar müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin dünya və xalqımız qarşısında xidmətidir. Sabah doğum günüdür. Cənab Prezidenti təbrik edir, ona uzun ömür, can sağlığı və Azərbaycanın inkişaf etdirilməsində yeni-yeni uğurlar arzulayıram.

**Sevil Mikayılova.** Dövrünün parlaq siyasi lideri, təcrübəli dövlət xadimi, Azərbaycan xalqının qürur tarixinin yaradıcısı Prezident İlham Əliyevin xalq və dövlət qarşısında tarixi xidmətləri əvəzsizdir. O, müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında və möhkəmlənməsində əsas rol oynayan siyasi liderdir. Milli maraqlara söykənən müstəqil xarici siyasət Azərbaycanın beynəlxalq aləmdə etibarlı və prinsipial mövqeyini təmin edir.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan həm daxili inkişaf, həm də beynəlxalq arenada mövqelərinin güclənməsi baxımından yeni mərhələyə qədəm qoyub.

Azərbaycan tarixində Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin adı torpaqlarımızın azadlığı və milli qürurun bərpası ilə bağlı xüsusi yer tutur. Onun rəhbərliyi ilə Azərbaycan xalqı uzun illər davam edən işğala son qoyaraq öz ərazi bütövlüyünü təmin etmişdir. Bu tarixi nailiyyət xalqın iradəsi, ordunun gücü və Prezident İlham Əliyevin qətiyyətli siyasi liderliyi sayəsində mümkün oldu. Prezident İlham Əliyev illər boyu səbrli, prinsipial və milli maraqlara əsaslanan siyasət yürütmüş, eyni zamanda, güclü ordu quruculuğunu dövlət siyasətinin əsas prioritetinə çevirmişdir. Məhz bu strateji

yanaşma nəticəsində Azərbaycan Ordusu yüksək peşəkarlıq, müasir texnika və döyüş ruhu nümayiş etdirərək torpaqlarımızı azad edib. Torpaqların azad edilməsi yalnız hərbi qələbə deyil, eyni zamanda, tarixi ədalətin bərpası, xalqın milli ləyaqətinin və dövlət suverenliyinin tam təmin olunması deməkdir. Bu qələbə Azərbaycan xalqının birliyini və Prezident İlham Əliyevin "Qalib xalqın qalib lideri" kimi tarixə düşməsini təsdiqləyib. Bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri qələbənin davamı olaraq gələcəyə inamla baxmağın göstəricisidir.

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış hədəfi tarixi ədalətin bərpası ilə yanaşı, milli birliyin və dövlət suverenliyinin möhkəmləndirilməsini ifadə edir. Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri, infrastruktur layihələri və təhlükəsiz yaşayış mühitinin yaradılması bu prosesin ardıcıl və planlı şəkildə həyata keçirildiyini göstərir.

2025-ci il avqustun 8-də keçirilən Vaşinqton görüşü Prezident İlham Əliyevin növbəti diplomatik uğuru oldu. Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəliyə aparılmasında göstərdiyi qətiyyət öz məntiqi nəticəsini tapdı. Amerika Birləşmiş Ştatları Prezidentinin Azərbaycan liderinin şəxsiyyətinə sərgilədiyi hörmət və minnətdarlıq Cənubi Qafqazda cərəyan edən proseslərə yeni yanaşma idi. Bu yeni yanaşmanın fəlsəfəsinin əsasında Prezident İlham Əliyevin prinsipiallığı, diplomatik bacarıqları və praqmatizmi dayanır.

Qalib xalqın qalib lideri olaraq Prezident İlham Əliyevin hədəfləri Azərbaycanın güclü, müasir və firavan dövlət kimi inkişafını təmin etməyə yönəlib. Hər zaman Azərbaycan xalqının dəstəyinə arxalanan liderimizə bu

şərəfli fəaliyyətinin həyata keçirilməsində tükənməz enerji və uğurlar arzu edirik.

**Sevinc Fətəliyeva.** Müasir beynəlxalq münasibətlər sistemi dərin transformasiya mərhələsindən keçir. Qlobal güc balansının dəyişməsi, regional münaqişələrin artması, beynəlxalq institutlara etimadın zəifləməsi və ədalətli yanaşmaların getdikcə arxa plana keçməsi fonunda dövlətlərin xarici siyasət strategiyaları yalnız çeviklik deyil, eyni zamanda, prinsipiallıq tələb edir. Məhz bu mürəkkəb geosiyasi şəraitdə Prezident İlham Əliyevin həyata keçirdiyi beynəlxalq siyasət Azərbaycanı regional aktordan etibarlı, təşəbbüskar və söz sahibi olan qlobal iştirakçıya çevirmişdir.

Prezident İlham Əliyevin xarici siyasət xəttinin əsas fərqləndirici cəhəti onun milli maraqlara söykənən, praqmatik və eyni zamanda, dəyərlərə əsaslanan xarakteridir. Azərbaycan nə ideoloji bloklaşmanın, nə də birtərəfli asılılıqların tərəfdarı olmuş, əksinə, suverenlik, qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə əsaslanan diplomatik model formalaşdırmışdır. Bu yanaşma ölkəyə mürəkkəb beynəlxalq proseslərdə manevr imkanlarını qorumağa və uzunmüddətli strateji məqsədlərini reallaşdırmağa şərait yaratmışdır.

Prezident İlham Əliyevin beynəlxalq siyasətində türk dünyası xüsusi yer tutur. Azərbaycan Türk Dövlətləri Təşkilatının formalaşmasında və institusional inkişafında aparıcı rola malik olmuş, təşkilatı mədəni birlikdən siyasi, iqtisadi və təhlükəsizlik platformasına çevirmişdir. Şuşa Bəyannaməsi, Qarabağ Bəyannaməsi, eləcə də TDT çərçivəsində keçirilən rəsmi və qeyri-rəsmi Zirvə görüşləri Azərbaycanın təşəbbüskarlığını və inteqrasiyaedici rolunu

açıq şəkildə nümayiş etdirmişdir.

Eləcə də Orta Asiya ölkələri ilə münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Qazaxıstanla, Özbəkistanla, Qırğızıstanla və Türkmənistanla siyasi dialoq təkcə ikitərəfli deyil, çoxtərəfli formatlarda da dərinləşmiş, nəqliyyat-logistika dəhlizləri, enerji təhlükəsizliyi, yaşıl iqtisadiyyat və humanitar əməkdaşlıq sahələrində konkret layihələrlə möhkəmlənmişdir. Xəzər dənizi üzərindən keçən Orta Dəhliz Azərbaycanın Orta Asiya ilə Avropa arasında əsas körpüyə çevrilməsini təmin etmişdir. Azərbaycan bu proseslərdə yalnız tranzit ölkə deyil, strategiya formalaşdıran və regional sinerji yaradan mərkəz kimi çıxış edir. Bu, Prezident İlham Əliyevin türk dünyasında balanslaşdırıcı və birləşdirici lider imicini möhkəmləndirmişdir.

Prezident İlham Əliyevin beynəlxalq siyasətinin mühüm istiqamətlərindən biri də ədalət prinsipinin ardıcıl şəkildə qlobal səviyyədə gündəmə gətirilməsidir. Bunun nümunəsi olaraq Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə ölkəmiz inkişaf etməkdə olan dövlətlərin maraqlarının müdafiəsində fəal mövqe sərgiləmiş, beynəlxalq münasibətlərdə ikili standartlara qarşı prinsipial çıxış etmişdir. COVID-19 pandemiyası zamanı Azərbaycan Prezidentinin təşəbbüsü ilə qlobal miqyasda həmrəylik çağırışları edilmiş, peyvəndlərə bərabər çıxış məsələsi BMT səviyyəsində qaldırılmışdır. Bu yanaşma Azərbaycanın yalnız milli maraqlarını deyil, qlobal məsuliyyət anlayışını da prioritet hesab etdiyini göstərmişdir.

Eyni zamanda, Prezident İlham Əliyev keçmiş müstəmləkə ölkələrinin hüquqlarının müdafiəsi, iqtisadi bərabərsizliklərin aradan qaldırılması və inkişaf etməkdə olan

dövlətlərin beynəlxalq qərar qəbuletmə mexanizmlərində daha ədalətli təmsil olunması məsələlərində açıq və prinsipial mövqe nümayiş etdirmişdir. Bu, Azərbaycanın qlobal Cənubda etibarlı tərəfdaş və söz sahibi kimi qəbul edilməsinə səbəb olmuşdur.

Xüsusi qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin xarici siyasətində enerji və nəqliyyat diplomatiyası əsas sütunlardan biri olaraq qalır. Bakı-Tbilisi-Ceyhan və Cənub Qaz Dəhlizi layihələri Azərbaycanın Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş statusunu möhkəmləndirmiş, ölkəyə siyasi və iqtisadi manevr imkanları qazandırmışdır. Bununla yanaşı, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı Azərbaycanın Avrasiya məkanında əsas logistika mərkəzinə çevrilməsini sürətləndirmişdir. Bu layihələr Azərbaycanın beynəlxalq münasibətlərdə yalnız resurs ixracatçısı deyil, strateji əlaqələndirici ölkə kimi rolunu gücləndirmişdir.

Beləliklə, Prezident İlham Əliyevin beynəlxalq siyasəti Azərbaycanın müasir tarixində keyfiyyətcə yeni mərhələ yaratmışdır. Bu siyasət ölkəmizi regional çərçivələrdən çıxararaq qlobal gündəmin formalaşmasında iştirak edən, ədalətli yanaşmaları təşviq edən və çoxtərəfli əməkdaşlığa real töhfə verən dövlətə çevirmişdir. Azərbaycanın türk dünyasında liderliyi, Orta Asiya ilə strateji tərəfdaşlığı və qlobal miqyasda prinsipial mövqeyi Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən və məsuliyyətli liderliyinin nəticəsidir.

**Səbinə Salmanova.** Müasir beynəlxalq münasibətlər sisteminin reallıqları göstərir ki, hər bir dövlətin inkişaf səviyyəsi, təhlükəsizliyi və beynəlxalq aləmdə tutduğu mövqe bilavasitə ona rəhbərlik edən siyasi liderin dünyagörüşü, strateji baxışı və idarəçilik bacarığı ilə şərtlənir.

Qlobal çağırışların artdığı, geosiyasi qarşıdurmaların dərinləşdiyi bir dövrdə milli maraqları qorumaq, dövlət müstəqilliyini möhkəmləndirmək və dayanıqlı inkişafı təmin etmək yalnız güclü və uzaqgörən siyasi liderlərin öhdəsindən gələ biləcəyi məsuliyyətli missiyadır. Bu baxımdan Azərbaycanın müasir tarixi, xüsusi ilə 1993-cü ildən sonrakı dövr güclü liderliyin dövlətin taleyində oynadığı həlledici rolu bariz şəkildə nümayiş etdirir.

1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev Azərbaycanı dərin siyasi, iqtisadi və hərbi böhrandan xilas etdi. Həmin dövrdə ölkəmizdə dövlətçiliyin əsasları sarsılmış, xaos və anarxiya hökm sürürdü. Ulu Öndərin qətiyyəti, siyasi iradəsi və misilsiz idarəçilik bacarığı sayəsində ölkədə sabitlik təmin olundu, müstəqilliyimizin itirilməsi təhlükəsinin qarşısı alındı. Heydər Əliyev müasir Azərbaycan dövlətinin möhkəm təməllərini formalaşdırdı, milli maraqlara söykənən inkişaf strategiyasını müəyyənləşdirdi və Azərbaycanı etibarlı gələcəyə aparan yolun əsasını qoydu. Məhz bu tarixi xidmətlərinə görə o, xalqımızın Ümummilli Lideri kimi tarixə düşdü.

Ulu Öndər Heydər Əliyevin müdrikliyi, şəxsiyyətinin böyüklüyü və siyasi uzaqgörənliyi həm də onda idi ki, öz siyasi kursunun varisliyini, güclü dövlətçilik təliminin ardıcıllığını da layiqincə təmin etdi. 2003-cü ilin prezident seçkilərindən bir qədər əvvəl Ulu Öndər xalqımıza müraciətində həmvətənlərimizi cənab İlham Əliyevi dəstəkləməyə çağıraraq demişdi: "Üzümü sizə – həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli,

praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

2003-cü ilin prezident seçkilərində xalqımızın yüksək etimadını qazanaraq öz missiyasına başlayan Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu layiqincə həyata keçirməyə başladı. Təsadüfi deyil ki, cənab İlham Əliyevin seçkilər öncəsi xalqa verdiyi vədlər vaxtından da tez yerinə yetirildi, sosial-iqtisadi inkişafla bağlı o dövrdə qarşıya qoyulmuş bütün vəzifələr yerinə yetirildi.

Cənab İlham Əliyev 2008-ci, 2013-cü, 2018-ci və 2024-cü illərdə keçirilən prezident seçkilərində də xalqımızın etimadına layiq görüldü. Təbii ki, hər bir seçkidəki qələbənin kökündə mühüm siyasi və iqtisadi amillər dayandı. Bu baxımdan ötən 22 ilin reallıqları göstərir ki, möhtərəm İlham Əliyevin hər bir prezidentlik dövrü Azərbaycanın müasir müstəqillik tarixinə möhtəşəm uğurların yazılması ilə əlamətdar olub. Bu illər ərzində Azərbaycanın iqtisadiyyatı üç dəfədən çox böyüyüb, vətəndaşların sosial rifahı əhəmiyyətli dərəcədə yüksəlib.

Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin enerji siyasətini layiqincə davam etdirərək onun qarşısında dayanan hədəflərə çatmasını təmin edib. Vaxtı ilə Heydər

Əliyevin təməlini qoyduğu Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri məhz Prezident İlham Əliyevin qətiyyəti sayəsində həyata vəsiqə alıb. Cənab İlham Əliyev həm də “Cənub Qaz Dəhlizi”nin yaradılmasına nail olmaqla Heydər Əliyevin enerji siyasətini yeni mərhələyə yüksəldib, regionun enerji xəritəsinə ciddi dəyişikliklər edib. Təsadüfi deyil ki, bu gün Azərbaycan qlobal enerji təhlükəsizliyi müzakirələrində aparıcı mövqeyə malik dövlət kimi tanınır.

Bununla yanaşı, Azərbaycan həm də Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişdiyi əsas coğrafi məkandır. Bu gün respublikamızın beynəlxalq nəqliyyat dəhlizlərindəki iştirak səviyyəsi bir daha Prezident İlham Əliyevin müdrik siyasətindən, respublikamızın milli maraqlarını layiqincə təmin etməsindən xəbər verir.

Bütövlükdə, Prezident İlham Əliyevin müdrik rəhbərliyinin nəticəsi olaraq bütün dünyada Azərbaycan regionun aparıcı dövləti kimi tanınır. Respublikamız həm də beynəlxalq münasibətlər sisteminin söz sahibi olan üzvüdür. Bunu Azərbaycanın beynəlxalq problemlərin həllində yaxından iştirakı, mədəniyyətlər və sivilizasiyalararası dialoqa layiqli töhfələr verməsi də təsdiq edir. Dünyada tolerantlıq ünvanı kimi tanınan ölkəmiz cənab Prezident İlham Əliyevin xidmətləri sayəsində həm də mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanına çevrilib.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi cəmiyyət həyatının bütün sahələrini əhatə edən möhtəşəm inkişaf, yüksəliş və uğurlar dövrüdür. Bu inkişaf və əldə edilən uğurlar ilk növbədə dövlətin və xalqın milli maraqlarının və mənafelərinin təmin olunmasına xidmət edib.

Onu da qeyd etməliyik ki, cənab Prezident İlham Əliyev Azərbaycanın siyasi sisteminə rasional siyasi

davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən, siyasi realizmə söykənən fəaliyyət nümunəsi də gətirib. Dövlətimizin başçısı öz fəaliyyəti və davranışı ilə siyasi sistemimizə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi təqdim edib. Bütün bunlar da, təbii ki, Prezident İlham Əliyevin yüksək siyasi keyfiyyətlərindən irəli gəlir.

Prezident İlham Əliyevin respublikamıza müdrik rəhbərliyinin ən böyük hadisəsi torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunmasıdır. Dövlətimizin başçısı artıq həllini tapmış Qarabağ problemi ilə bağlı aparılmış danışıqlarda hər zaman prinsipial mövqe tutdu, bütün təzyiqlərə sinə gərdi, heç bir güzəşt təşəbbüsünü yaxına buraxmadı. Buna görə xalqımız inanırdı ki, cənab İlham Əliyev mütləq torpaqlarımızın işğaldan azad olunmasını təmin edəcək. Xalqımızın bu inamı Vətən müharibəsində reallığa çevrildi. Həm 44 günlük Vətən müharibəsinin, həm də bir günlük antiterror əməliyyatının qələbə ilə başa çatması Prezident İlham Əliyevin qətiyyətli siyasi kursunun nəticəsidir. Bütün bunlar göstərir ki, məhz güclü siyasi liderlər öz xalqlarının və dövlətlərinin qarşısında dayanan istənilən taleyüklü məsələnin həllinə nail ola bilirlər.

Cənab Prezident İlham Əliyevin rəhbərliyi dövründə həyata keçirilən islahatlar yalnız iqtisadi və siyasi sahələrlə məhdudlaşmayıb, cəmiyyət həyatının bütün istiqamətlərini əhatə edib. Dövlət idarəçiliyində çevik və müasir mexanizmlərin tətbiqi, institusional islahatların dərinləşdirilməsi, şəffaflıq və hesabatlılığın gücləndirilməsi Azərbaycanı müasir idarəetmə modelinə malik güclü dövlətə çevirib. Bu yanaşma vətəndaş–dövlət münasibət-

lərində etimadın möhkəmlənməsinə, ictimai sabitliyin və siyasi konsensusun qorunmasına xidmət edib.

Prezident İlham Əliyevin sosial siyasəti də daim insan amilini ön plana çəkən, sosial ədalət prinsiplərinə söykənən xətt üzrə formalaşıb. Əhalinin sosial rifahının yüksəldilməsi, aztəminatlı ailələrin, şəhid ailələrinin və müharibə veteranlarının dövlət qayğısı ilə əhatə olunması, sosial müdafiə mexanizmlərinin davamlı şəkildə təkmilləşdirilməsi bu siyasətin əsas prioritetlərindəndir. Xüsusi ilə Vətən müharibəsindən sonra şəhid ailələrinin və qazilərin mənzil, tibbi xidmət və sosial təminatla təmin olunması dövlətin vətəndaş qarşısında məsuliyyətinin real göstəricisidir.

Bununla yanaşı, Prezident İlham Əliyevin diqqət mərkəzində olan əsas istiqamətlərdən biri də gənclər siyasətidir. Gənclərin bilikli, vətənpərvər və müasir dünyagörüşlü kadrlar kimi formalaşması üçün geniş imkanlar yaradılıb. Təhsil sahəsində aparılan islahatlar, yeni məktəblərin və ali təhsil müəssisələrinin tikintisi, gənclərin beynəlxalq təcrübəyə çıxışının təmin edilməsi Azərbaycanın gələcək inkişafının etibarlı təminatı kimi çıxış edir.

Prezident İlham Əliyevin xarici siyasət kursu isə milli maraqlara əsaslanan, müstəqil və balanslaşdırılmış siyasət nümunəsidir. Azərbaycan heç bir güc mərkəzindən asılı olmayan, qarşılıqlı hörmət və beynəlxalq hüquq prinsiplərinə söykənən siyasət həyata keçirir. Məhz bu prinsipial mövqe ölkəmizin beynəlxalq aləmdə etibarlı tərəfdaş və söz sahibi kimi qəbul olunmasını təmin edib.

Bu gün işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri də Prezident İlham Əliyevin strateji baxışının tərkib hissəsidir. Böyük Qayıdış proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngə-

zurda müasir şəhər və kəndlərin salınması, infrastrukturun yenidən qurulması, keçmiş məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz və layiqli şəkildə qayıdışı dövlətimizin gücünü və humanist mahiyyətini nümayiş etdirir.

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət Azərbaycanın milli maraqlarının tam və qətiyyətlə təmin olunmasına, dövlət suverenliyinin möhkəmlənməsinə, xalqımızın rifahının yüksəldilməsinə xidmət edir. Bu siyasət güclü dövlət, güclü lider və güclü xalq birliyinə əsaslanan uğurlu inkişaf modelidir və Azərbaycanı daha böyük hədəflərə doğru inamla aparır.

**Soltan Məmmədov.** Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tariximizdə bənzərsiz nailiyyətlərə imza atmış dövlət xadimidir. Onun liderliyi ilə ölkəmiz dərin siyasi, iqtisadi və hərbi sınaqlardan alnıaçıq çıxmış, öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edərək yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi müstəqil dövlətçilik kursunu dövrün çağırışlarına uyğun şəkildə davam etdirir, güclü iqtisadiyyat, dayanıqlı sosial siyasət, müasir ordu quruculuğu, balanslaşdırılmış xarici siyasət və milli maraqlara söykənən prinsipial mövqe onun mükəmməl liderliyinin fəlsəfəsini müəyyənləşdirir.

Cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrün siyasi-ideoloji və sosial-iqtisadi məzmununun təhlili onun siyasətinin bir neçə vacib sütun üzərində qurulduğunu söyləməyə əsas verir. Dövlət başçımızın fəaliyyətinin vacib prioritetlərindən biri güclü dövlətçilik və suverenliyin qorunması ideyasına əsaslanır. Güclü ordu quruculuğu, milli təhlükəsizlik strategiyası və qətiyyətli siyasi iradə bu prioritetin əsas dayaqlarıdır. Bu siyasətin

zirvəsi Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam şəkildə bərqərar edilməsi oldu.

Cənab İlham Əliyevin siyasətinin ikinci vacib istiqaməti dayanıqlı iqtisadi inkişafa və sosial rifaha nail olmaqdır. Prezidentin siyasətində iqtisadi müstəqillik ən vacib şərtlərdən biri olmuşdur. Neft-qaz gəlirlərinin səmərəli idarə olunması, qeyri-neft sektorunun canlanması, regionların sosial-iqtisadi inkişafı və əhalinin rifahının yüksəldilməsi istiqamətində ötən illər ərzində görülmüş işlər bunu bir daha təsdiq edir.

Balanslaşdırılmış və milli maraqlara əsaslanan xarici siyasət kursu cənab Prezidentin milli dövlətçilik strategiyasının daha bir mühüm istiqamətidir. Bu gün ölkəmiz milli maraqlara söykənən və balanslı xarici siyasət həyata keçirir, beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi çıxış edir, eyni zamanda, heç bir güc mərkəzindən asılı olmayan tamamilə müstəqil mövqe nümayiş etdirir. Enerji, nəqliyyat və regional əməkdaşlıq layihələri bu siyasətin uğurla həyata keçirilməsini təmin edən effektiv alətlər kimi istifadə olunur.

Azərbaycan Prezidentinin siyasətinin daha bir fundamental istiqaməti isə milli-mənəvi dəyərlərin qorunması və cəmiyyətin monolitliyinin təmin olunmasıdır. Prezident İlham Əliyevin siyasətində milli kimliyin, mənəvi dəyərlərin, tolerantlıq və multikulturalizm ənənələrinin qorunması xüsusi yer tutur. Dinlərarası və mədəniyyətlərarası harmoniyanın təmin edilməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi və ictimai sabitlik bu siyasətin əsas istiqamətləridir.

Hər bir siyasi liderin fəaliyyətinə tarix qiymət verir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tarixə öz adını yazmış nadir şəxsiyyətlərdən

biridir. Bu gün Şuşada, Laçında, işğaldan azad olunmuş torpaqlarımızda qürurla dalğalanan Azərbaycan bayrağı cənab İlham Əliyevin Azərbaycan tarixindəki müstəsna xidmətlərini və mükəmməl liderliyini təcəssüm etdirir.

**Tahir Mirkişili.** Prezident cənab İlham Əliyevin 22 illik prezidentlik dövrü müasir Azərbaycan dövlətçiliyinin ən parlaq, sistemli və strateji inkişaf mərhələsi kimi tarixə düşmüşdür. Bu dövr ölkəmizin həm daxili, həm də beynəlxalq müstəvidə güclənməsi, müstəqilliyinin möhkəmlənməsi və milli maraqlarının qətiyyətlə təmin olunması ilə səciyyələnir. Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yalnız regional deyil, eyni zamanda, beynəlxalq miqyasda söz sahibi olan, etibarlı tərəfdaş və güclü dövlət kimi tanınmışdır. Beynəlxalq arenada Azərbaycan balanslaşdırılmış və praqmatik xarici siyasət modeli ilə fərqlənmişdir. Dövlətimizin başçısının həyata keçirdiyi çoxşaxəli diplomatiya nəticəsində Azərbaycan həm Qərb, həm Şərq, həm də İslam dünyası ilə qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmuşdur. BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası kimi nüfuzlu beynəlxalq platformalarda ölkəmizin mövqeləri güclənmiş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü beynəlxalq hüquq normaları çərçivəsində ardıcıl şəkildə müdafiə edilmişdir. İqtisadi sahədə həyata keçirilən islahatlar Azərbaycanı postsovet məkanında ən dinamik inkişaf edən ölkələrdən birinə çevirmişdir. Enerji strategiyasının uğurla reallaşdırılması, neft və qaz layihələrinin beynəlxalq əməkdaşlıq formatında icrası ölkəmizin enerji təhlükəsizliyində mühüm aktor kimi mövqeyini möhkəmləndirmişdir. Eyni zamanda, qeyri-neft sektorunun inkişafı, sənayeləşmə siyasəti, regionların sosial-iqtisadi inkişaf proqramları iqtisadiy-

yatın şaxələndirilməsinə və dayanıqlılığın təmin olunmasına xidmət etmişdir. Azərbaycanın maliyyə ehtiyatlarının artması, strateji valyuta ehtiyatlarının formalaşması ölkənin iqtisadi müstəqilliyini daha da gücləndirmişdir. Prezident İlham Əliyevin daxili siyasətinin əsas prioritetlərindən biri sosial rifahın yüksəldilməsi olmuşdur. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, əməkhaqlarının və pensiyaların mərhələli şəkildə artırılması, ünvanlı sosial yardım mexanizmlərinin təkmilləşdirilməsi sosial dövlət konsepsiyasının real nəticələrini ortaya qoymuşdur. Təhsil, səhiyyə və sosial infrastruktur sahələrində həyata keçirilən genişmiqyaslı layihələr vətəndaşların həyat keyfiyyətinin yüksəlməsinə yönəlmişdir. İctimai-siyasi sabitliyin qorunması İlham Əliyev siyasətinin əsas dayaqlarından biri olmuşdur.

Ölkə daxilində təhlükəsizlik mühitinin təmin edilməsi, radikal və destruktiv təhdidlərin vaxtında qarşısının alınması Azərbaycanın sabit inkişafı üçün möhkəm zəmin yaratmışdır. Azərbaycanın hərbi gücünün artırılması və milli müdafiə sənayesinin inkişafı Prezident İlham Əliyevin strateji baxışının mühüm tərkib hissəsidir. Ordunun maddi-texniki bazasının gücləndirilməsi, müasir silah və texnologiyalarla təchiz olunması, yerli hərbi sənaye kompleksinin yaradılması ölkənin müdafiə qabiliyyətini keyfiyyətcə yeni mərhələyə yüksəltmişdir. Bu siyasətin ən parlaq nəticəsi Azərbaycanın 2020-ci ildə öz ərazi bütövlüyünü bərpa etməsi olmuşdur. 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfər dövlətimizin gücünü, xalq–ordu birliyini və siyasi rəhbərliyin qətiyyətini bütün dünyaya nümayiş etdirmişdir. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq və bərpa işləri

Prezident İlham Əliyevin uzaqgörən siyasətinin davamıdır. Eyni zamanda, məcburi köçkünlərin mərhələli şəkildə doğma yurdlarına qayıdışı humanist və ədalətli dövlət siyasətinin bariz təzahürüdür.

İdman və mədəniyyət sahələrində qazanılan uğurlar da Azərbaycanın beynəlxalq imicinin formalaşmasında mühüm rol oynamışdır. Milli-mənəvi dəyərlərin qorunması, mədəni irsin dünyada təbliği dövlət siyasətinin ayrılmaz hissəsinə çevrilmişdir. Bütün bu nailiyyətlər Prezident cənab İlham Əliyevin uzaqgörənliyi, prinsipial mövqeyi və milli maraqlara əsaslanan dövlət idarəçiliyi sayəsində mümkün olmuşdur. Onun rəhbərliyi ilə Azərbaycan güclü iqtisadiyyata, qüdrətli orduya, möhkəm beynəlxalq mövqeyə və sabit cəmiyyətə malik müasir dövlət kimi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Mən təbriklərə qoşulur, təmsil etdiyim sumqayıtlılar adından möhtərəm Prezidentimizi doğum günü münasibəti ilə təbrik edir, ona möhkəm can sağlığı və daim qələbələr arzu edirəm.

**Vasif Qafarov.** Bu gün mən 24 dekabr – Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin doğum günü münasibəti ilə onun dövlətimiz və xalqımız qarşısında misilsiz tarixi xidmətləri barədə fikirlərimi bölüşmək istəyirəm. Cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dövrü müasir Azərbaycan tarixində müstəsna yer tutur. Bu dövr güclü dövlət quruculuğu, milli maraqlara söykənən prinsipial siyasət, qətiyyətli liderlik və ən əsası qalib xalqın formalaşdığı bir mərhələ kimi tarixə düşüb.

İlk növbədə qeyd etməliyik ki, cənab Prezident İlham Əliyevin adı Azərbaycan tarixinə, hər şeydən əvvəl, Vətən müharibəsində qazanılan möhtəşəm qələbə ilə əbədi

olaraq qızıl hərflərlə həkk olunub. 2020-ci ildə müzəffər Ali Baş Komandan kimi onun rəhbərliyi altında Azərbaycan Ordusu 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı azad etdi, beynəlxalq hüququn norma və prinsiplərini faktiki olaraq bərpa etdi. Bu qələbə yalnız hərbi üstünlük deyil, milli iradənin, siyasi uzaqgörənliyin və dövlət gücünün təntənəsi idi.

44 günlük Vətən müharibəsi bir daha sübut etdi ki, Azərbaycan dövləti öz suverenliyini qorumağa qadirdir və bu suverenlik danışıqlar mövzusu deyil. Müharibədən sonra həyata keçirilən ardıcıl və məqsədyönlü addımlar, o cümlədən konstitusiya quruluşunun ölkənin bütün ərazisində təmin olunması, sərhədlərimiz üzərində tam nəzarətin bərqərar edilməsi dövlətçiliyimizin möhkəmliyinin bariz nümunəsidir.

Bu gün biz azad edilmiş Qarabağ və Şərqi Zəngəzur torpaqlarında aparılan nəhəng quruculuq və bərpa işlərinin şahidiyik. Qısa zaman ərzində inşa edilən beynəlxalq hava limanları, müasir avtomobil yolları, dəmir yolu xətləri, enerji infrastrukturu, sosial obyektlər və yaşayış məntəqələri cənab Prezidentin strateji baxışının və güclü idarəetmə modelinin nəticəsidir. “Ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının tətbiqi Azərbaycanın postmünaqişə inkişaf modelinin dünyaya nümunə kimi təqdim olunmasına imkan yaradır.

Böyük Qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtması təkcə sosial hadisə deyil, eyni zamanda, tarixi ədalətin bərpasıdır. Bu proses bir daha göstərir ki, dövlət siyasətinin mərkəzində insan amili dayanır.

Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar Azərbaycanın dayanıqlı inkişafını

təmin edib. Qeyri-neft sektorunun genişləndirilməsi, regionların kompleks inkişafı, sənayeləşmə siyasəti, rəqəmsal transformasiya və sahibkarlığın dəstəklənməsi ölkə iqtisadiyyatını yeni mərhələyə yüksəldib. Sosial rifahın yaxşılaşdırılması, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi, əməkhaqları və pensiyaların mütəmadi artırılması Prezidentin sosial ədalətə əsaslanan siyasətinin nəticəsidir.

Cənab Prezidentin həyata keçirdiyi xarici siyasət kursu Azərbaycanı regionun aparıcı dövlətinə və beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşa çevirmişdir. Qoşulmama Hərəkatına uğurlu sədrliyi dövründə Azərbaycan qlobal miqyasda ədalətin, beynəlxalq hüququn və dövlətlərin suverenliyinin müdafiəçisi kimi tanınmışdır.

Enerji təhlükəsizliyi sahəsində reallaşdırılan strateji layihələr – Bakı–Tbilisi–Ceyhan, TANAP, TAP və digər təşəbbüslər Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını təsdiqləyir. Eyni zamanda, nəqliyyat və logistika sahəsində həyata keçirilən layihələr, xüsusi ilə Orta Dəhlizin inkişafı ölkəmizin geosiyasi əhəmiyyətini daha da artırmışdır.

Cənab İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu müasir dövrün çağırışlarına uyğun şəkildə uğurla davam etdirərək güclü, müstəqil və qalib Azərbaycan modelini formalaşdırmışdır. Bu model milli maraqlara söykənən, praqmatik və nəticəyönümlü dövlət idarəçiliyinin parlaq nümunəsidir.

Bu gün Azərbaycan xalqı öz Prezidentinə inanır, ona güvənir və onun ətrafında sıx birləşib. Çünki bu etimad real nəticələrə, tarixi qələbəyə və davamlı inkişafa əsaslanır.

Sonda cənab Prezident İlham Əliyevi doğum günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona möhkəm

can sağlığı, uzun ömür və Azərbaycan dövlətinin daha da qüdrətlənməsi naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.

# MÜNDƏRİCAT

23 dekabr 2025-ci il............................................................... 3
Edilməmiş çıxışların mətnləri................................................ 93

Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

Beşinci sessiya
Payız

## 55-ci cild

23 dekabr 2025-ci il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  9,5. Sifariş 52. Tiraj 150.